**AQŞİN HACIZADƏ**

# TİKDİM Kİ,
# İZİM QALA

**“Elm və təhsil”**
**BAKI – 2021**

***Redaktoru:***
**Arif Məmmədli**
*şair, jurnalist*

***Məsləhətçi:***
**Araz Yaquboğlu**
*tədqiqatçı-jurnalist*

**Aqşin Hacızadə. Tikdim ki, izim qala.**
**Bakı, “Elm və təhsil”, 2021, 176 səh.**

Müəllifin kitabda çap olunmuş poema və şeirlərinin əsas mövzusu vətənpərvərlikdir. Vətən uğrunda canlarını fəda etmiş unudulmaz şəhidlərdən dönə-dönə söhbət açılır.

Kitabın adı ilə eynilik təşkil edən “Tikdim ki, izim qala” adlı poemada isə 1953-cü ildə Göyçə mahalının Daşkənd kəndindən deportasiya olunduqdan sonra Bərdə rayonu ərazisində məskunlaşan və burada tikib-yaradan, el-oba üçün gərəkli iz qoyan insanların xeyirxah əməlləri işıqlandırılır.

**ISBN 978-9952-37-330-1**

**A.Hacızadə, 2021**




***Müəllif kitabın çap olunmasında göstərdiyi maddi və mənəvi dəstəyə görə Yeni Daşkənd bələdiyyəsinin sədri Fəzair Piriyevə minnətdarlığını bildirir.***

# *ÖN SÖZ ƏVƏZİ*

Əgər ki, siz məni görmək istəsəz,
Arayın, a dostlar, öz ünvanımı.
Məkanım Bərdədi, kəndim Daşkənddi,
Bax belə tanıyın siz ünvanımı.

Arandan, Şirvandan, Gəncəbasardan,
Əziz bir qonaqsız, gəlsəniz hardan,
Məni soruşmayın qəlbi korlardan,
Soruşun düzlərdən düz ünvanımı.

Yaxşı dost həyatda xoş bir payımdır,
Səsimə səs verən hay-harayımdır.
Hər dostum qəlbimdə bir sarayımdır,
Sevirəm sizintək yüz ünvanımı.

Buyursun həm yaxın, həm yad aparsın,
Evimdən evinə xoş dad aparsın,
Ocağı sönənlər qoy od aparsın,
Vermişəm hər kəsə köz ünvanımı.

Xəyalım göydədi, gözüm vərəqdə,
Şeirə dönürəm özüm vərəqdə.
Aqşinəm, qalacaq sözüm vərəqdə,
Gəzənlər olacaq söz ünvanımı.

***20.12.2016***

# POEMALAR

# TİKDİM Kİ, İZİM QALA

## PROLOQ

*“Hanı bəy dediyim ərənlər,*
*Dünya mənim deyənlər.*
*Əcəl aldı, yer gizlədi,*
*Fani dünya kimə qaldı?*
*Gəlimli, gedimli dünya,*
*Son ucu ölümlü dünya.”*

Görün ki, söyləmiş nə qədər təmiz,
O ulu babamız, Qorqud dədəmiz.
Əlbətdə, bu dünya fanidir, fani,
Ömür də, ölüm də anidir, ani.
“OL” deyib dünyanı yaradan vaxtdan,
Olum da, ölüm də yaranıb haqdan.
Kim gəlib gedibdi, qalan olmayıb,
Heç kimsə əbədi məskən salmayıb.
Əbədi Allahdır, bir də ki, cahan,
Allahın izniylə olacaq hər an.
Hər axşam, hər səhər, hər gecə-gündüz,
Tək onun hökmüylə fırlanır sözsüz.
O qədər sirlidir, gözəldir dünya,
Çətin ki, dünyadan bir kimsə doya.
Hər bəşər əhlini məftun eyləmiş,
Nazlı bir gəlin tək “gəl-gəl” söyləmiş.
Gecəsi ulduzlu, aylı, buludlu,
Gündüzü günəşli, atəşli, nurlu.
Bu gözəl dünyaya gələn çox bəşər,
Özü də dünyaya vermiş töhfələr.
Duymuş ki, əbədi deyildir burda,

Gərəkdir sonralar salınsın yada.
Duymuş ki, bir heçdir yığdığı dövlət,
Ölümlə bacarmır var-dövlət əlbət.
Odur ki, gərəkdir nəsə yaratsın,
Yaratmış olduğu onu yaşatsın.
İstəmiş ölümlə sonu çatmasın,
Özündən sonra da adı batmasın.
Baxmışdır keçmişdə tikilənlərə,
Kim tikmiş, adları yaşayır hələ.
Demək ki, yaratmaq yaşamaq demək,
Odur ki, yaradıb yaşasın gərək.
Çox saray tikdirmiş çox milyonçular,
Özləri yoxsa da yaşayır onlar.
Mütləqdir adını çəkim bu yerdə,
Çox işlər görübdü, bil, Tağıyev[1] də.
Həddindən çox olub dövləti, varı,
Xalq üçün xərcləyib çox milyonları.
Bu gün də rəhmətlə söylərik bunu,
O çəkmiş Bakıya "Şollar suyu"nu.
Tikdirmiş nə qədər fabrik-zavodlar,
Bu tarix çətin ki, onu unudar.
Yaşadar əlbətdə onu əbədi,
Qafqazda ilk olan "Qızlar məktəbi".
Qoy deyim sonra da Ağa Musanı,
Yüz ildi yaşayır onun ad-sanı.
Bir zaman xərc çəkib, tikdirmiş deyə,
Yaşadır adını bil, "İsmailiyyə".
Sanaya bilərik çox belə insan,
Yüz ildi köç edib, "yaşayır" bu an.

[1] Hacı Zeynalabdin Tağıyev (1823-1924)

Yaşarlar həyatda tikdikləriylə,
İnsanlıq yolunda etdikləriylə.
Min bəzək vurublar onlar bu yurda,
Bir el bayatısın söyləyim burda.

*Əzizim bizim qala,*
*Həmişə bizim qala.*
*Tikmədim özüm qalam,*
*Tikdim ki, izim qala.*

## I

Gözümün önündə doğma mahalım,
Aparır keçmişə məni xəyalım.
O keçmiş başlayır ülvi bir addan,
O oğuz elindən, Dədə Qorquddan.
Diqqətlə oxusaq Dədə Qorqudu,
Var orda Göyçənin adı, həm odu.
Söz düşsə Göyçədən, həqiqət budur,
Oğuz türklərinin qədim yurdudur.
Səfəvi başçısı Şah İsmayıl da,
Bir zaman orduyla olubdu burda.
Seyr etmiş buranı, hər yeri gəzmiş,
Vəziri Rəvana göstəriş vermiş.
Və demiş, burada şəhər salınsın,
Dörd yanı dağılmaz qala alınsın.
Tikdirmiş Rəvan xan, keçməmiş zaman,
Şəhərin adını qoymuşdur Rəvan.
Bu şəhər sonralar İrəvan olmuş,
Erməni zəbt etmiş, Yerevan olmuş!
Yenə də keçmişdən söz salım bir az,

Keçmişi unutmaq bizə yaraşmaz.
O keçmiş zamanda, o qədim yurdda,
Mənim də bir kəndim varıydı orda.
Yaxşı xatırlaram dörd bir bəndini,
İgidli, ərənli Daşkənd kəndini.
Göyçənin özü tək Daşkənd qədimdi,
Kim salıb bu kəndi, kim bilir, kimdi?
Bilinən odur ki, ər türk yurdudu,
Bəlkə də Türklərin ən ilk yurdudu.
Haraya üz tutsan türk adlarıydı,
Hər yerdə türklərin izi varıydı.
Qoy deyim onlardan, sən də bil, tanı,
Biz cənnət sanardıq "Hacı Qurban"ı,[1]
Xoş məclis yeriydi yayın ilk çağı,
O Tərsə yaylağı, Şişin ocağı.
Olardı dörd yanı qonaq yığnağı,
Qocaman bulağı, Ocaq bulağı.[2]
Əvəzi yox idi "Abbas bəyi"nin,[3]
O yaylaq yerinin gül-çiçəyinin.
Gözəllik varıydı "Uzun güney"də,[4]
Dinərdi bu yerdə zurna da, ney də.
Gözəldi yazında, payız-qışında,
Türklərin izi var hər qarışında.
Çox olub bu kəndin ər igidləri,
Susdurub düşməni nər igidləri.
Borcumdu söz açım onlardan bir az,

---

[1] Daşkənd kəndinə aid yaylaq.
[2] Daşkənd kəndində bulaqlar.
[3] Daşkənd kəndinə aid yaylaq.
[4] Daşkənd kəndində yer adı.

Əlbətdə deməsəm, bu doğru olmaz.
Erməni general Selikov[1] varmış,
Ruslardan güc alıb, "at oynadarmış".
Çox sitəm edərmiş bütün türklərə,
Bu ağır gəlirmiş ər igidlərə.
Göyçənin Zod adlı kəndində, deyim,
Kəsibdir başını Daşkəndli Rəhim.[2]
Nəinki Göyçədə, gedib Laçında,
Döyüşüb Daşkəndli Məşədi Qasım[3] da.
Hər zaman döyüşdə zəfər çalarmış,
Ağdamda adına bir kənd də varmış.
İdris[4] də, Ziyad[5] da çox mərd olublar,
Düşmənə səngərdə bir dərd olublar.
Həm igid olubdur, həm aşıq, Nəcəf,[6]
Beş oğlu düşmənə olubdur hədəf,
Bunları yazmaqda bir məqsədim var.
Bilin ki, ölməyib, yaşayır onlar.
Yaşayır ruhları, dildə adları,
Heç zaman ölməyir el adamları.
Bu yerdə yadıma bir şair düşür,
Sərraf Şiruyədən bu şeir düşür:

---

[1] Selikov – erməni generalı

[2] Hacı Rəhim (1960-1921) – 1905-1907 və 1918-1920-ci illərdə ermənilərə qarşı döyüşən el qəhrəmanı. Zod kəndində döyüş zamanı erməni generalı Selikovun başını kəsmişdir.

[3] Məşədi Qasım (1863-1921) – 1905-1907 və 1918-1920-ci illərdə ermənilərə qarşı döyüşən el qəhrəmanı.

[4] İdris – ermənilərə qarşı döyüşən el qəhrəmanı. Qızılhacılı nəslindəndir.

[5] Ziyad – ermənilərə qarşı döyüşən el qəhrəmanı. Babakişilər nəslindəndir.

[6] Daşkəndli Aşıq Nəcəf (1876-1919) – Aşıq Ələsgərin şəyirdi.

*“Vətənə, xalqına xəyanət edən*
*Özünə xəyanət etmiş kimidir.*
*Həyatda heç kimə yaramayanlar*
*Ölməmiş həyatdan getmiş kimidir.*

*Vətənçün öləni vətən ağlayar,*
*Əbədiyyət aləmində saxlayar.*
*Gərəksiz insanı kim soraqlayar,*
*Elə bil dünəndən itmiş kimidir.*

*Ay Şiruyə, dərin ağlı olanlar,*
*Ürəyi xalq üçün dağlı olanlar.*
*Vətənə, xalqına bağlı olanlar,*
*Əbədi həyatda bitmiş kimidir.”*

Bəli, bu belədir lap əzəlindən,
Eşitdik bir daha şair dilindən.
Bu yerdə onları uca sayıram,
El sevən hər kəsi alqışlayıram.

**II**

İyriminci əsr, təzadlı illər,
Dörd dəfə qovulub Göyçədən ellər.
Yenə də erməni “oyun” oynayır,
Əlli üçüncü ildə bir köç başlayır.[1]
Mikoyan “tor” qurur, eyləyir hazır,
Bu köçün əmrini Stalin yazır.

[1] 1953-cü ilin may-iyun aylarında Göyçənin Daşkənd kəndindən 130 ailə Bərdə rayonuna köçürülür.

"Könüllü" adıyla, zorla hər kəsi,
Qocası, cavanı, evdə körpəsi,
Min illik yurdundan ayrı salırlar,
Yurdunu əlindən qovub, alırlar.
Qovurlar Türkləri orda hər yerdə,
Yaşayır bu dərdi Daşkəndlilər də.
Demirəm Daşkəndin hamısı köçür,
Minlərlə insanın yarısı köçür.
Köçür də səfalı öz vətənindən,
Səfalı bu yerin duman-çənindən.
O güllü, çiçəkli dağından köçür,
Ömrünün ən gözəl çağından köçür...
Ayrılır burada qardaş-qardaşla,
Köç edir arana gözündə yaşla.
Nə üçün köçürlər? – bilə bilməyir,
Haraya köçürlər? – hələ bilməyir!

*Əzizinəm haraya,*
*Tanrı, yetiş haraya.*
*Məni vətəndən alıb,*
*Bu yol gedir haraya?*

Bərdədə dayanıb bu köç bu anda,
Qədim bir məkandır Bərdə aranda.
Doğrudur, Nizami "gözəldir" deyib,
Amma ki, orda da vardır bir eyib.
Bu yerin istisi həddən çox olur,
İstidən quruyur, ağaclar solur.
İstilər tez yorur sağ adamları,
Bəs burda dözərmi dağ adamları?!
Beləcə may ayı, Bərdə torpağı,
Hər yeri düzəndir, yoxdur bir dağı.

Dörd yanı kol-kosdu, alaqlanıbdı,
Çox susuz qalıbdı, ot da yanıbdı.
Yalnızca ətrafda vardır bir kölgə,
Beş böyük çinar var, yana-yana, birgə.
Az qala göylərə çatan başı var,
Bəlkə də bir neçə yüz il yaşı var.
Bu çinar ağaclar ümid doğurur,
Köç əhli yurd salır, burada durur.
Gah isti, gah yağış, çətin an keçir,
Həftələr adlayır, bir zaman keçir.
Əlbətdə hər işin öz qaydası var,
Kənd üçün, ev üçün gərəkdir qərar.
Çox keçmir, gəlir də böyük bir plan,
Salınır bir yeni kənd elə burdan.
Bölünür, verilir hər kəsə torpaq,
Hamını gətirir həvəsə torpaq.
Yer, məkan ölçülüb, işlər bitəndə,
Yeni Daşkənd adı qoyulur kəndə.
Kənd içi salınır çox enli yollar,
Ev üçün ayrılır kredit pullar.
Beləcə başlayır işə köçkünlər,
Tezliklə tikilir çiy kərpic evlər.

## III

İkicə ay keçib köç aylarından,
Bu Yeni Daşkənddə qaynayır həyat.
Hər evin inşası qurtaran zaman,
Qurulur o evdə şənlik, xoş büsat.

Bu eldə qaydadı lap əzəlindən,
Hay verir birisi düşəndə dara.
Varını gizləməz kimsə kimsədən,
Əl atır imkanlı imkansızlara.

Bu yolla hamının evi qurulur,
Bu yolla hamının ocağı yanır.
İndisə qarşıda bir məqsəd durur,
Məktəbin olması öndə dayanır.

Olsa da yüz ilin yerli sakini,
Yox ətraf kəndlərdə bir məktəb belə.
Narahat etməyib əsla heç kimi,
Təhsilsiz yaşayır bu kəndlər hələ.

Savadsız olmağın daşını atıb,
Elmli insanlar çox olub bizdə.
Odur ki, tezliklə məktəb yaradıb,
Uğur qazanmalıyıq təhsilimizdə.

Yığılır bir yerə el-oba hamı,
Necə həll etsinlər məktəb işini?
Seçirlər ağsaqqal Tat Süleymanı,
Əzimli Bayramı, Xıdır kişini.

Gedirlər rayona bu üç ağsaqqal,
Hər biri təmkinli, dilavərdilər.
Ədəblə, ərkanla edib hal-əhval,
Rayon rəhbərinə belə deyiblər.

“Sevirik vətəni, biz bu dövləti,
Vətəndir, dövlətdir bizlərə ürək.
Dünyaya tanıtmaq üçün milləti,
Gərək təhsilimiz olsun da yüksək.

Özgə bir umacaq yoxdur heç nəyə,
Ziyalı bir elik, olmuşuq köçkün.
Gələcək nəsilə elm öyrətməyə,
Bir məktəb vacibdir bizlərə bu gün.

Heç nə istəmirik, heç nə biz sizdən,
Var usta, var kərpic öz kəndimizdə.
Biz fərman istərik dövlətimizdən,
Bir məktəb açılsın tez kəndimizdə.”

Çox heyran qalmışdır rayon rəhbəri,
O zaman dinləyib tat Süleymanı.
Demişdir, “göndərrik biz sənədləri,
Gözləyək, Bakıdan gəlsin fərmanı.”

Əlli üçüncü il, bir yay günündə,
Tezliklə Bakıdan gəlir icazə.
İkicə ay öncə salınmış kəndə
Ən böyük töhfəydi bu məktəb bizə.

Çiy kərpic kəsilir el köməyiylə,
Tikilir beş sinif məktəb otağı.
Elm almaq, ucalmaq diləyi ilə,
Təhsilə başlayır bu kənd uşağı.

Unudub köçkünlük ağrı-əzabın,
Sevinir el-oba, sevinir hər ev.
Bu yeni məktəbin, elm ocağının
Rəhbəri seçilir Tapdıq Əliyev.

Bu məktəb söhbəti başlayan gündən,
Çox böyük olubdu onun zəhməti.
Qırxbirdə, qırxbeşdə döyüşdüyündən,
Rayonda əzizmiş xətri, hörməti.

Yayılır sorağı tez bu məktəbin,
Təhsilə gəlirlər bura hər yerdən.
Gəlişi-gedişi olsa da çətin,
Gəlir qonşu kənddən, gəlir Tərtərdən.

Tezliklə yayılır Azərbaycana
Ad-sanı Hacıyev Tanırverdinin.
Heç kimsə çatmazdı bilikdə ona,
Mahir bilicisiydi o öz fənninin.

Məhz onun biliyi, dərs deməsiylə,
Çox şagird meyl etdi riyazi elmə.
Öyrənib bu elmi, çox bilməsiylə,
Hər biri şöhrətdi mənim elimə.

Sabaha inamla eldə, obada,
Beləcə vaxt keçir, ötüşür illər.
Həm kənddən, həm özgə yerdən burada,
Dərs deyir savadlı çox müəllimlər.

O qədər çoxalır burda şagirdlər,
Beş sinif təhsilə azlıq eyləyir.
Beş-altı il boyu, o vaxt müəllimlər,
Bir neçə evlərdə dərslər söyləyir.

Ötüşür aradan tamam onbeş il,
Otaqlar bəs etmir artan tələbə.
Bax indi bu kənddə kiçiyə deyil,
Ehtiyac duyulur böyük məktəbə.

Sığmayır sinifə indi uşaqlar,
Söykənib əyləşir hamı bir təhər.
Yox, belə gedərsə təhsil pozular,
Düşünür bu haqda, düşünür rəhbər.

Məktəbə rəhbərsə artıq bu zaman,
Direktor seçilib Əliyev Namaz.
Söhbət ki, məhz ondan düşmüşdür bu an,
Gördüyü işlərdən yazmasam olmaz.

O, kərpic məktəbdə olan bu anlar,
İnternat məktəbi yaratmış burda.
Çox uzaq kəndlərdən gələn uşaqlar
Altı gün dərs günü qalarmış burda.

Yeni bir məktəbi tikdirmək üçün,
Rayona, Bakıya yolun çox şalmış.
Aylarla bu işə sərf edib gücün,
Nəhayət Bakıdan icazə almış.

Tezliklə başlamış burada bu iş,
Lahiyə olmuşdur bir qoşa tağlı.
İki il müddətə hündür və geniş,
Bir məktəb tikilmiş, onbeş otaqlı.

Az sonra yaratmış məktəb daxili,
Təsərrüfat üçün peşə məktəbi.
Oxuyub çox şagird o vaxt hər ili,
Alıblar sürücü olmaq sənədi.

Dözübdü sınağa, dözüb hər şeyə,
Olubdu əlbətdə onun üçün zor.
Şagirdlər peşəni öyrənsin deyə,
Rayondan alıbmış bir çox traktor.

Sonra da məktəbin ön tərəfində,
Salınmış çox böyük bir ərik bağı.
Əlli il ötübdür, bu kənd bu gün də,
Yaxşı xatırlayır o bağ, o çağı.

Nə qədər o məktəb, bu kənd, bu el var,
Yaşayır yaddaşda Namaz müəllim.
Hər ordan keçəndə, qeyri-ixtiyar,
Min rəhmət söyləyir ruhuna dilim.

# IV

Səksəninci illər uğurla ötür,
Kolxoz sisteminin parlaq dövrüdür.
Elə bir inkişaf var ki, bu anlar,
Bu ildən o ilə artır planlar.
Ölkəyə rəhbərdi Heydər Əliyev,
Katibdi Bərdədə Səfərəliyev.
Hər biri işində çox diqqətlidir,
Rəhbərlik əlbətdə çox zəhmətlidir.
Mütləqdi hər işdə sayıq olsunlar,
Gecə də, gündüz də ayıq olsunlar.
İşləri artırıb yazda, payızda,
Gərəkdi uğurlar artsın bir az da.
Gərəkdi kəndlərdə abadlıq olsun,
Hər yerdə, hər evdə tam şadlıq olsun.
Gərəkdi rəhbərlər olsun gərəkli,
Bir işi görəndə görsün ürəkli.
Bax belə rəhbərdi Kərimov Qiyas,
Bu yerdə söz açım mən ondan bir az.
O sədir seçilib "Yeni Həyat"a,[1]
Bu kolxoz mütləqdi uğura çata.
Böyük bir ümid var rayonda ona,
Çağırmış mərkəzə, o anda ona
Belə söyləyibdi Səfərəliyev,
Çox işlə deyibdi, Səfərəliyev.
İşlə ki, kəndini ucalt deyibdi,
Sən qazan kəndində bir ad, deyibdi.

---

[1] Yeni Həyat – Bərdə rayonunun Yeni Daşkənd, Zümürxan, İmamqulubəyli və Çəmənli kəndlərini əhatə edən kolxoz. Mərkəzi Yeni Daşkənd kəndi idi.

Beləcə başlamış işə Kərimov,
Heyrətlə deyiblər, "alovdur, alov."
Əkini, səpini vaxtında etmiş,
Qısa bir zamanda kəndə qaz çəkmiş.
Kənd içi yollara asfalt saldırmış,
Betondan yüzlərlə dirəklər almış.
Dəyişmiş cərəyan dirəklərini,
O köhnə çürüyən dirəklərini.
Hər evə çəkdirmiş su krantları,
Yazmaya bilmərəm bu olanları.
Telefon xətti də çəkdirmiş həm də,
Ən yaxşı ATS gətirtmiş kəndə.
Gətirtmiş Göyçənin çınqıl daşından,
Bu elin, obanın qan yaddaşından,
Ələsgər bulağı ucaltmış burda,
Yenidən Göyçəni yaşatmış burda.
Onun zəhməti var, baxırsan hara,
Məzarlıq alınıb hətda hasara.
Bu hasar işində olmayıb o, tək,
Hacıyev Yaqub da olmuşdur dəstək.
Bəs kimdir bu Yaqub Hacıyev belə?
– O şöhrət gətirmiş bu doğma elə.
Nəinki Bərdədə, Yevlax, Tərtərdə,
Mühəndis işində təkmiş bölgədə.
Düz ölçü-biçiylə nizama almış,
Bu hasar onlardan yadigar qalmış.
Bu hasar içində bir günbəz də var,
Tkilib, ucalıb burda qabaqlar.
Üstündən xətt çəkib neçə illərin,
Yaşadır adını Molla Əvzərin.
Unuda bilmərəm burada həm də,
Çox zəhmət çəkibdi Muxtar əmim də.

İnşaat rəhbəri olub kolxozda,
Yad etdim mən onu, olsa da az da.
O vaxtdan ötmüşdür neçə on illər,
Onları unutmur bu əziz ellər.
İzləri qalıbdı torpaq, daşında,
Ruhları əzizdi el yaddaşında.
Çox gərək olublar onlar bu yurda,
Onlardan söhbətə son verim burda.
Əziz ruhlarına söyləyib rəhmət,
Sonrakı işlərdən mən açım söhbət.

## V

Gün-günü qovduqca, il-ili qovur,
Dövr edir nizamla gecə-gündüzü.
Nə bizi durdurur, nə özü durur,
Bu dünya özüylə fırladır bizi.

Fırlana-fırlana dövran dəyişir,
Dəyişir həyatda zaman çox şeyi.
Çox ağır başlayır, çox gərgin keçir,
İyriminci əsrin son on illiyi.

Necə ki, əbədi deyildir həyat,
Əbədi olmayır hakimiyyət də.
Yetmiş il hökmran olsa da heyhat,
Dağılır Sovet də, o hökümət də.

Elə ki, dağıldı Sovet birliyi,
Müstəqil oldular bir çox ölkələr.
Ancaq ki, işləyir rusun bicliyi,
Qaynar bir ocaqdır həmin bölgələr.

Göyçədən, Vedidən, həm İrəvandan,
Minillik yurdundan qovulur türklər.
Qovulur tam Qərbi Azərbaycandan,
Qalmayır orada tək bircə nəfər.

Ruhudu, canıdı Azərbaycanın,
Səfalı Qarabağ, o qədim məkan.
İşğalı ucundan Ermənistanın,
Döyüş meydanına dönübdür bu an.

Həm ruslar, həm farslar arxadır deyin,
Bərk gedir, özünü öyür erməni.
Unudub bu yerə köçüb gəldiyin,
"Qarabağ bizimdir", – deyir erməni!

Odur ki, silaha sarılıb indi
Bu yurdun qeyrətli çox oğulları.
Şəhidlər vermişik, bir neçə mindi,
Qanları suvarıb bu torpaqları.

Könüllü olaraq gedib cəbhəyə,
Yüzlərlə oğullar Yeni Daşkənddən.
Hər biri qeyrətlə döyüşür deyə,
İgidlik xəbəri gəlir cəbhədən.

Nə qədər xoş xəbər gəlsə də, yenə,
İtkisiz olmayır müharibələr.
Nə qədər ağrılı olsa da mənə,
Qoy yazım, bilinsin, baş vermiş nələr!

Getdikcə döyüşlər şiddətlənirdi,
Doxsan ikinci ilin yay aylarında.
Hər kəndə, şəhərə şəhid gəlirdi,
Çoxusu etməmiş heç toyların da!

On doqquz avqustda Dranbom səmtə,
Döyüşə girmişdi nişanlı Yasif.
Adıyla ucalıq gətirib kəndə,
İlk şəhid olaraq dönmüşdü, heyf!

Polis serjantıydı Ziyafət onda,
Bircə gün durmadan o işdə idi.
Rahatlıq tapmırdı evdə qalanda,
Hər günü səngərdə, döyüşdə idi.

Qaynar bir qazandır Çıldıran bu an,
Döyüşlər başlayıb burada dəhşət.
Aradan keçməmiş cəmisi bir ay,
Şəhidlik qazanır burda Ziyafət!

Ötür doxsan iki, gəlir doxsan üç,
Cəbhədə vəziyyət dəyişir tamam.
İrəli gedərdik, dayanmazdıq heç,
Bir anda dağılır bütün istehkam!

Kiminsə əmriylə bütün hissələr,
Öndəki mövqedən çəkilir geri.
Hücuma keçərək bu an düşmənlər,
Pusquya salırlar çox igidləri.

Bir neçə ay öncə azad olmuşdu,
Bu qanlı Çıldıran, bu qanlı məkan.
Fevralda yenidən düşmən dolmuşdu,
Düşmüş mühasirəyə çox əsgər o an.

Çiynində rabitə qurğusu ilə,
Hər zaman lap öndə dayanmış Mehdi.
Göyçəyə qayıtmaq arzusu ilə,
Burada şəhadət qazanmış Mehdi.

Onların igidlik yoluna şahid,
Bu vətən torpağı, bu dağlarıydı.
Adını çəkdiyim bu ilk üç şəhid,
Bir nəslin əzizi, övladlarıydı.

Dördüncü şəhiddir Ziya bu yolda,
Şəhidlik qazanıb o, Kəlbəcərdə.
Onunla bərabər, yaralı halda,
Qalıbmış dağlarda bir çox əsgər də.

Sonralar nə qədər axtarılsa da,
Ziyanın cəsədi tapılmamışdır.
Nəinki cəsədi, hər nə olsa da,
Nişanə deyilən heç qalmamışdır.

Belə söyləyirlər döyüş dostları,
Eldəniz çox igid, çox cəsur imiş.
Gizlincə keçərmiş bütün postları,
Qorxu nə, ölüm nə? – o bilməyirmiş!

Ötüb Kəlbəcərdən, keçib Laçından,
Döyüşə-döyüşə gəlmiş Ağdama.
O, qəlpə yarası alıb başından,
Ucalmış şəhidlər çatan məqama.

Əsgərlər önündə dayanan zaman,
Həmişə deyərdi, "bizimdir zəfər!"
Növbəti şəhiddi, gəldi Ağdamdan,
Zəfərə inanan kapitan Cəfər.

Böyük bir tabordu Bərdə taboru,
Döyüşür yüzlərlə igidləriylə.
Gətirmiş tabora bir çox uğuru,
Qulam öz cürəti, öz hünəriylə.

Son günün yaşamış ər qəhrəman tək,
O qanlı, qadalı iyrimi yanvarda.
Onlarla düşməni məhv eyləyərək,
O şəhid olmuşdur "Qızıl qaya"da.

Qulamın məzarı üstdə and içib,
Qayıtmış döyüşə elə həmin gün.
Kəlbəcər uğrunda canından keçib,
Şəhidlik qazanmış cəsur Firudin.

İtkisi böyükmüş Yeni Daşkəndin,
Şəhid xəbərinə eyləmiş adət.
İgidlər böyütmüş Yeni Daşkəndin,
Növbəti itkini olur Rəşadət.

Gül təki açılıb, vaxtsız soldular,
Heç biri dünyadan almamışdı kam.
Kəlbəcər uğrunda şəhid oldular
Firudin, Rəşadət, həm də ki, Qulam.

Ailə qurmuşdu dördcə ay öncə,
Sanırdı ömrünün xoş çağı gəlir.
Aradan iki ay zaman keçincə,
Elçinin şəhadət sorağı gəlir.

Çox sevib yurdunu Elçin canından,
"Yaşasın yurdumuz" – deyib son anda.
Vətənin yolunda keçmiş qanından
Məhərrəm, həm Elçin burda – Ağdamda.

Bakıda son iki ili oxumuş,
Metroda olmuşdur son anı Rəsul.
Bu xalqa, vətənə qarşı qurulmuş,
Olmuşdur terrorun qurbanı Rəsul.

Bir neçə şəhid də işğal zamanı,
Qaçqınlıq həyatı yaşamış burda.
Onlar da vətənə xidməti anı,
Canların vermişlər bu ana yurda.

Döyüşüb Xocalı döyüşlərində,
Qəlblərə həkk olub Rəşidin adı.
Burdadı məzarı Ələsgərin də,
Elçin də, Daşqın da baxın, burdadı.

Beləcə bir-bir mən sadalayaraq,
Hörmətlə yad etdim bu igidləri.
Gərəkdi hər zaman xatırlayaraq,
Ürəkdə yaşadaq biz şəhidləri.

## VI

Bu qədər şəhidlər olduğu dəmdə,
Məhərrəm Əliyev rəhbərdir kəndə.
Sevilir o kənddə kolxoz sədri tək,
Mümkünsə hər kəsə eyləyir kömək.
El ilə döyünür ürəyi onun,
Bu eldi, obadı gərəyi onun.
Vətəni çox sevir o öz canından,
Gərəksə hazırdır, keçər qanından.
Hər həftə cəbhəyə səfər eyləyir,
"Bizimdir qələbə, zəfər" – söyləyir.
Yun əlcək, yun corab alır əsgərə,
Aparır cəbhəyə, birbaş səngərə.
Aparır onlara isti paltar da,
Soyuğa dəyməsin yağışda, qarda.
Bircə ay bu işə verməyir ara,
Güc-qüvvət aparır özüylə ora.
Həm də ki, qəlbində bir planı var,
Mütləqdir başlasın gəlincə bahar.
Şəhidlər ruhunu şad etmək üçün,
Onları daima yad etmək üçün,
Bu kənddə, bu eldə, özəl bir yerdə,
Onlara layiqli gözəl bir yerdə,
Şəhid abidəsi ucaltmaq gərək,
Onları əbədi yaşatmaq gərək.
Bu arzu-istəklə səd(i)r Məhərrəm
Bütün kənd əhlini toplayaraq cəm,
Fikrini onlara açıb söyləyir,
Bu fikri əlbətdə hər kəs bəyənir.
Sonra da bir neçə yerə gedirlər,
Abidə yerini təyin edirlər.

Həm gözəl məkandı, həm deyil uzaq,
Kolxoz binasının önündəki bağ.
Var burda hovuzlar, çox qızılgüllər,
Oxuyur burada çox vaxt bülbüllər.
Layiqdi şəhidlər adına ora,
Nəhayət plana salınır bura.
Tez işə başlayır, gecikmək nədir?!
Daşkəsən mərməri gətirir səd(i)r.
Şairli nəslindən Mikayıl kişi,
"Ya Allah" deyərək, başlayır işi.
Daş kəsən dəzgahı qurur yaxında,
O günlər bu elin durur yadında.
O mahir ustadı, təcrübəlidir,
Bu işi layiqlə bitirməlidir.
Odur ki, olmasın o yalnız gərək,
Temirov Tahiri çağırır kömək.
Tikinti rəhbəri odur kolxozda,
Gərəkdir köməyin göstərsin o da.
Bir neçə ay boyu gərgin işləyib,
Yorulmaq bilməyib, dinclik bilməyib.
Can qoyub düzülən hər mərmər daşa,
Uğurla vururlar bu işi başa,
O vaxtdan ötübdü indi çox illər,
Amma ki, bunları unutmur ellər.
Rəhmətlə anılır Mikayıl dayı,
Yüz olsun Tahirin ömrünün sayı.
Məhərrəm Əliyev var olsun hər an,
El qürur duyacaq hər zaman onnan.

## VII

Bir neçə il keçib artıq aradan,
İyriminci əsrin sonudur bu an.
Cəmisi bircə il zaman ötəcək,
Bu əsr qurtarıb, sona yetəcək.
Geridə qalsa da illər, fəsillər,
Hər zaman yaşayır işlər, əməllər.
Yaşayır adları, hər ünvanları,
Həm də ki, yaşadır yaradanları.
Fikrim yox onları seçəm, ayıram,
Yaradan hər kim var, alqışlayıram.
Əlbətdə, hamıdan yazmaq çətindi,
Birindən söz açıb, yazacam indi.
El üçün gördüyü işləri çoxdur,
Gördüyü işlərin əvəzi yoxdur.
Bacarıb yazacam onlardan bir az,
Hər işin yazmağa söz gücüm çatmaz.
Qoy deyim sizlərə kimdir bu insan,
Yaradan lütfünü üzməsin ondan.
Olsa da sənədlə Fəzair adı,
Bu adla çox zaman o çağrılmadı.
Niyəsə Fəzair uşaqlığından,
Fəzair deyil də, çağrılmış Xəzan.
Bu adla sevilib, hər zaman o da,
Bir hörmət gətirmiş baxın, bu ada.
Odur ki, bu yazım olunca tamam,
Mən onun adını Xəzan yazacam.
İndisə zamanı burda saxlayıb,
Yazmalı olanı mən unutmayıb,
Qayıdım keçmişə, bir az geriyə,
Xəzanı əvvəldən tanıyaq deyə,

Söz açım bir azca sizə mən ondan,
– Doğulub, böyüyüb, gəlibdi hardan?
Ancaq ki, getməyib çox da dərinə,
Dönəcəm bu əsrin əvvəllərinə.
Mən sizə yazmışdım bunu öncədən,
Bu kəndin yarısı köçmüş Göyçədən.
Göyçədən çıxmağa olarkən məhkum,
Hələ köçməmişdi Məzahim həkim.
Qalmışdı Daşkənddə, o doğma eldə,
Köçəcək ancaq ki, bu yaxın ildə...!
Altmış üçüncü ilin yaz zamanıdır,
Yerin də, göyün də naz zamanıdır.
Gül-gülü çağırır Göyçədə o an,
Doğulmuş Göyçənin mayında Xəzan.
O burda, Daşkənddə getmiş məktəbə,
Əlaçı olmuşdur hər vaxt, hər vədə.
Güldürmüş üzünü Əsgər kişinin,
O hündür, o bığlı, o ər kişinin.
Saxlayır burada onu babası,
Bərdədə yaşayır artıq atası.
Razılıq eyləyir ondan m(ü)əllimlər,
"Zehninə afərin, əhsən" deyirlər.
Söz verib məktəbdə müəllimlərə,
Sizin bu zəhməti vurmaram yerə.
Oxuyub mən ali təhsil alacam,
Bu elin gözündə uca olacam.
Beləcə məktəbi bitirmiş Xəzan,
Vədini yerinə yetirmiş Xəzan.
Ayrılıb Göyçədən çox uzaqlarda,
Ali təhsil almış Krasnodarda.
Oxumuş orada Politexnikdə,
Yenə də seçilmiş burda bilikdə.

Bitirmiş təhsili yüksək savadla,
Başlamış həyata Xəzan inadla.
Təyinat alaraq Azərbaycana,
Dönmüşdür vətənə, gözəl məkana.
Atası, öz eli yaşayan kəndə,
Daşkəndin adını daşıyan kəndə.
İlk gündən vurulmuş elə bu yurda,
Beləcə başlamış o, işə burda.
Yorulmaq bilmədən dörd-beş il bəlkə,
İşləmiş briqadir Xalidlə birgə.[1]
Sonra da Bərdədə işləmiş on il,
O illər yadından silinən deyil.
Əsrin son on ili olur bu illər,
Yadında uğurlu qalır bu illər.
Bu illər içində ailə qurmuş,
Xanımı Vəfayla o, xoşbəxt olmuş.
Bir qızı, bir oğlu gəlmiş dünyaya,
Onlar da bir zaman yetəcək haya.
İndisə adlayım yeni əsrə mən,
Yarımçıq fikrimi yazım yenidən.

## VIII

Son əsrin son ili, həm son ayında,
Seçki keçirilir Bələdiyyəyə.
Özünə güvənən çoxu bu anda,
Namizəd olubdur seçilsin deyə.

---

[1] Rəsulov Xalid Xanlar oğlu

Onlardan biridir Piriyev Xəzan,
Elinə güvənir o, bu seçkidə.
Çox sevir bu kənddə onu çox insan,
Kim olsa lap öndə, odur biri də.

Bu inam, ümidlə seçki sonunda,
Seçilir o, kəndin bələdiyyəsi.
Ümid var kəndin də, elə onun da,
Ucadan gələcək hər zaman səsi.

Uğurla başlayır işə Piriyev,
Heç nədən qorxmayır, o çəkinməyir.
Bu kənddə hər insan, bu kənddə hər ev,
“Dayanma eloğlu, qur-yarat” – deyir.

Bu elin sevgisin qazanmış deyə,
Öz xeyir-duasın el verir ona.
Hörmətlə, izzətlə şair Şiruyə,
Bir təbrik şeiri göndərir ona:

*“Keçib barmağına rütbə üzüyü,*
*Çalış laxlamasın, qaşı düşməsin.*
*Hörmət sarayını elə qoru ki,*
*Kərpici tərpənib, daşı düşməsin.*

*Mənəmlik eyləmə, özünü öymə,*
*El qara geyəndə sən əlvan geymə.*
*Qanan kimsələrin xətrinə dəymə,*
*Nisgildən gözünün yaşı düşməsin.*

*Elə xor baxmaynan, eldi pənahın,*
*Eldən imdad istə, varsa günahın.*
*Haqq-ədalət olsun hər səcdəgahın,*
*Könlünə yaltağın aºı düşməsin.*

*Elin dəlisinə sən dəli demə,*
*Ölməli adama "ölməli" demə.*
*Nə desən ciddi de, gülməli demə,*
*Ortaya sözlərin naşı düşməsin.*

*Sənsən bir mahalın havarı, hoyu,*
*Səninlə bağlıdır kədəri, toyu.*
*Otur kürsülərdə çox illər boyu,*
*Heç zaman ömrünün qışı düşməsin."*

Beləcə alqışla, xeyir duayla,
Gün-gündən həvəslə işləyir Xəzan.
Yarışır sanki o günəşlə, ayla,
Gücünü aldıqca eldən, obadan.

İlk işi olur da qısa zamanda,
Yanmış ATS-in təzələnməsi.
Gərəkdir səslənsin indiki anda,
Hər kəsin evində telefon səsi.

Əvvəllər ATS olsa da kənddə,
Onbeş il olar ki, yanıb, kül olub.
Seçkidən keçməmiş cəmi bir həftə,
Bunu tələb edən elə el olub.

Danışıq aparır rayonda səd(i)r,
Çatdırır bu yöndə elin istəyin.
Cavabı bu olur, – “sizə yox nədir,
ATS olacaq kəndə tez, deyin”.

Beləcə qış çıxıb, olunca bahar,
Yeni bir ATS qurulur kənddə.
Kaş belə baş tuta bütün arzular,
Kaş belə qurtara ağrı da, dərd də.

Yerlərdə kəndliyə dəstək olmağa,
Var indi ölkədə çox təşkilatlar.
Onları cəlb edib, çox iş qurmağa,
Xəzanda təcrübə, həm bacarıq var.

Fürsətdi, düşübdü indi əlinə,
Çox işlər görməyə çoxlu can atır.
O, kəndin xeyrinə, elin xeyrinə,
Tezliklə toplayıb, icma yaradır.

Görüşlər keçirir bu maraq üçün,
Bir neçə xarici təşkilat ilə.
Qoymuşdur ortaya nə varsa gücün,
Onlardan mənfəət gətirsin elə.

Dəyərli işiylə, xoş əməliylə,
CHF adlanan bir təşkilat var.
Onunla bağlanan iş birliyiylə
Yenidən qurulur transfarmatorlar.

İş qurur sonra da OKSFAM ilə,
Paylanır kənd üçün kredit pullar.
İnkişaf yaransın deyə bu elə,
Aranır, çözülür bir neçə yollar.

Var başqa xarici təşkilat yenə,
"Uşaqları qoruyun" adlanır adı.
Necədir, nə cürdür? – desələr mənə,
Deyərəm adı tək işi əladır.

Təmir olunaydı lap çoxdan gərək,
Sökülüb, dağılıb, bərbad gündədir.
Məhz həmin təşkilat edərək kömək,
Həkim məntəqəsi olunur təmir.

Dayanmır, yorulmur, toplayıb gücün,
Başqa bir şirkətlə işə can atır.
Müxtəlif şirələr, turşular üçün,
Bir emal sexi də kənddə yaradır.

Görülən bu işlər, bütün uğurlar,
Xəzanla bərabər elin uğrudur.
Var olsun el üçün yanan oğullar,
O sübut edir ki, elin oğludur.

Bu eldə, bu kənddə, elə bu vaxtda,
Növbəti bayrama hazırlıq gedir.
Sərraf Şiruyəylə bir olub hətda,
Xəzan da bu işdə rəhbərlik edir.

Cəm olur cavanlar, kiçik uşaqlar,
Ağsaqqal, ziyalı yığılır hamı.
Hamının bir arzu, bir marağı var,
Gərəkdi şən keçsin Novruz bayramı.

Nağara çiynində dayanıb Xasay,
Zurnaçı Əjdərlə Zamaxan gəlib.
Əzəldən sonadək bayramdır bu ay,
Torpağa can gəlib, gözəl an gəlib.

Gəlibdir həm də ki, zurnaçı Fərman,
Burdadı ağsaqqal Sətdar və Bəylər.
Sağ olsun, hamını çağırıb Xəzan,
Burdadı həm Hacı, həm Sabit, Əkbər.

Üzünü tutaraq əziz elinə,
Bir təbrik söyləyir şair Şiruyə.
Təşəkkür eyləyir Xəzan m(ü)əllimə,
Bu bayram şənliyin o qurmuş deyə.

Çatdırır arzusun, xoş fikirlərin,
Qoy qalsın bizlərdən bu bir iz deyir.
Hələ çox gənc olan elin rəhbərin,
Ağsaqqal sayaraq bir bənd söz deyir.

*“Ağıldadı, kamaldadı,*
*Ağsaqqallıq yaşda deyil.*
*Amaldadı, əməldədi,*
*Saflıq, paklıq başda deyil.”*

Sonra da zurnada bir şən havaya
Oynayır çoxları, həm el rəhbəri.
O günlər, o dəmlər dəyər min aya,
Unutmaq olarmı bəs o günləri?!

O vaxtdan iyrimi il zaman ötüb,
Bu gün də o şənlik yaşayır yadda.
Nə kimsə unudub, nə də ki itib,
Yaxşı iş hər zaman qalır həyatda.

**IX**

Seçkinin vaxtından ötübdür beş il,
Demək ki, Xəzana tamamdır vədə.
Nə adi bir işçi, nə sədr deyil,
İşləmir o artıq bələdiyyədə.

Ayrılmış olsa da bələdiyyədən,
Ayrılmır, vurğundu bu doğma elə.
Bu elin naminə Xəzan təzədən
İş qurur yenə də şirkətlər ilə.

Bəs nədir növbəti onun planı,
Görməli olası hansı işdi o?
Bu işi o zaman, yalanı yoxdu,
Çatdırıb eliyə bilməmişdi o.

Amma mən bunları saxlayıb burda,
Əlavə işləri çözüb-yozacam.
Xoş günlər diləyib, mən elə, yurda,
Bu işlər barədə sonra yazacam.

İndisə söz açım Yeni Daşkənddə,
Kənd üzrə növbəti bələdiyyədən.
Xariqə yaranar işə girəndə,
Daş üstə daş qoysa hər gəlib-gedən.

Növbəti seçkidə Fərman Quliyev,
Seçilib kənd sədri bələdiyyəyə.
Bəs nəyi düşünür bu an Quliyev,
O önəm verəcək görək bəs nəyə?!

Tezliklə xoş xəbər yayılır kənddə,
Bu səbəb olur da el sevincinə.
İnşallah qış çıxıb, bahar gələndə,
Məscid tikdirəcək o öz xərcinə.

Olmayıb bu kənddə məscid keçmişdə,
Odur ki, mütləqdir tikilsin kənddə.
Ona bu dəyərli, bu savab işdə
Dəstəkdi qardaşı Hacı Rövşən də.

Bir bahar günündə başlayır bu iş,
Çox dua söyləyir Molla Əmirxan.
O namaz əhlidir, o öncə gəlmiş,
Sevinir bu işə lap çox hamıdan.

Beləcə vaxt ötüb, payız gələndə,
Tikilir bu məscid, tamama yetir.
İbadət eyləyən hər kəs, hər bəndə,
O vaxtdan burada ibadət edir.

Allaha sevgiylə bu Allah evin,
Tikdirən kəslərə Allah yar olsun.
Həm Hacı Fərmanın, Hacı Rövşənin,
Qazancı çox olsun, özü var olsun.

Kim bilir, neçə yüz il qalacaqdır?
Məscidi kim tikmiş, bəs usta kimdir?
Nə vaxtsa soruşan bir olacaqdır,
Bunları yazmaq da mənim işimdir.

Rafayıl ustadır əsas ustası,
Çox mahir usta tək tanıyır hamı.
İkinci ustadır Nəsir qudası,
Var olsun hər iki qohum ustanı.

Bu işlər yenicə tamam olunca,
Tükənmir xoş xəbər, gəlir arxası.
Yeni tədris ili, dərs başlayınca,
Deyirlər olacaq məktəb inşası.

Çox işlər görübdü Heydər Əliyev,
Adıyla sevilən o fond, təşkilat.
Sevinir bütün kənd, sevinir hər ev,
Başlayır bu kənddə yenidən həyat.

Tikilir tez vaxtda bir yeni məktəb,
Bu fondun maliyyə dəstəyi ilə.
Dəyişir hal-əhval, dəyişir həm təb,
Bu kəndin, bu elin istəyi ilə.

İki min beşinci tədris ilində
Bu yeni məktəbə gəlir uşaqlar.
Gül-çiçək əlində, çanta belində,
Hər kəsin üzündə sonsuz sevinc var.

Bu yeni məktəbə açılış üçün,
Gəlibdir Bakıdan Mehriban xanım.
İlhamım bu andan alıbdır gücün,
Sanıram burdadır Azərbaycanım.

Ölkənin birinci olan xanımı,
Mehriban səs ilə salam söyləyir.
Müəllim, həm şagird, həm də hamını,
Bu gözəl gün üçün təbrik eyləyir.

Mehriban xanımın təbrik nitqinə,
El cavab göstərir alqışlar ilə.
Hamı bir ağızdan, hey dönə-dönə
Xoş gəldiz deyirlər bizim bu elə.

Təşəkkür eyləyir elin adından,
Kənd icra rəhbəri Sabir Cahan da.
Söyləyir heç zaman çıxmaz yadından,
Bu elin, obanın bu gün, bu an da.

Bəli bu gerçəkdir, həqiqətdi tam,
Bu görüş yaddaşda, yadda qalacaq.
Çox insan ömrünü etsə də tamam,
Bu görüş yenə də xatırlanacaq.

Aradan düz üç il zaman adlayıb,
Amma ki, məktəbin var problemi.
Tikinti zamanı düz qurulmayıb,
İşləmir istilik verən sistemi.

Seçilmir qış vaxtı çöllə içəri,
Buz təki olurlar bütün otaqlar.
Həftənin beş günü olan dərsləri,
Soyuqda oturur məcbur, uşaqlar.

Sistemin düzəlib işləməsinə,
Məktəbin çatacaq gücü yox ancaq.
Hamı çox tələsir yaz gəlməsinə,
Bəs gələn qış vaxtı necə olacaq?

Bu fikir, xəyalla mən bu məqamı,
Saxlayım, qoy qalsın bir neçə aya.
Eşidib, duyubdu imkanlı hamı,
Yəqin ki, kim isə yetişər haya!

**X**

Var kəndin imkanlı iş adamları,
Dar gündə əl tutan xoş adamları.
Var eli özünə dayaq sananlar,
El üçün çalışıb, canı yananlar.
Onlardan biridir Əsədov Lətif,
Səxada Hatəmi-Taiyə çəkif.
O bu gün həyatda yoxdu – sanmıram,
Mən onu yaşayan sanıb, yazıram.

Bakıda yaşayır düz otuz ildi,
Könlünü verdiyi yenə də eldi.
Göyçədə Daşkənddə anadan olmuş,
Amma ki, son sinfi burda oxumuş.
Bu elin oğludur, bir əzizidir o,
Amalda, əməldə çox təmizdir o.
Adi bir eloğlu deyil o, həm də,
Ad alıb, ucalıb Lətif elmdə...
Bilməyən tanısın, bilsin kimdir o,
Texniki elm üzrə bir alimdir o.
Hər işdə ucalıb, tac almışdır o,
Allahın lütfüylə ucalmışdır o.
Zəhmətlə qurubdur şəxsi biznesin,
Yayıbdı ölkədən kənarda səsin.
Var böyük hörməti getsə hayana,
Adı bir şərəfdir Azərbaycana.
Var pulu, imkanı, çox mağazası,
Onlardan daha çox vardır səxası.
Əl tutub, pul verib çox-çox adəmə,
Odur ki, oxşatdım onu Hatəmə.
O təmir etdirmiş Bakıda, baxın,
Mir Möhsüm ağanın ziyarətgahın.
Bir neçə məscid də təmir etdirmiş,
Qocalar evinə hər zaman getmiş.
Getmişdir ürəyi dolu sovqatla,
Görüşmüş onlarla xoş bir ovqatla,
Hər dəfə oradan qayıdan zaman,
Qocalar tutarmış onun qolundan.
Deyərmiş, “ay oğul, unutma bizi,
Unudan deyilik, bizlər də sizi...!”
Vurğunu olubdu o, şeirlərin,
Kitabın nəşr etmiş çox şairlərin.

Onlardan biridir Sərraf Şiruyə,
Bu səvab işləri yazmayım niyə?
Ödəmiş nəşr üçün öncə hesabın,
Alqayıt m(ü)əllimin neçə kitabın.
Sevinci çox olub yaxın-yadının,
Kitabı çıxanda Aşıq Hacının.
Çoxunu saymıram, yazmıram hələ,
Gərəkdir çox yazam, getsəm əvvələ.
İndisə qayıdaq, dönək məktəbə,
Kim kömək eyləyir görək məktəbə?!
İki min səkkizin tədris ilidi,
Bu tədris ilinin lap əvvəlidi.
Çatıbdir bu xəbər Lətif m(ü)əllimə,
Bu işin adıyla gəlib kəndinə.
Həm alim olaraq, həm də eloğlu,
Gəlibdir məktəbə ürəyi dolu.
Hamını ürəkdən salamlayaraq,
Təhsildə uğurlar arzulayaraq,
Hal-əhval eyləyir hər kəslə bir-bir,
Dindirir onları həvəslə bir-bir.
Sonra da gəzir o bütün məktəbi,
Öyrənir – “məktəbdə çətinlik nədi?!”
Bilir ki, məktəbdə yoxsa istilik,
Çətin ki, şagirdlər öyrənə bilik.
Odur ki, tezliklə düzəliş üçün,
Çətinlik yaradan məhz bu iş üçün,
Səkkiz min manat pul, yardım eyləyir,
Bu işə ürəklə uğur söyləyir.
Ayrılır məktəbdən xoş təəssüratla,
Ayrılır az sonra həm də həyatla!
Deyərdi “bilikdir hər şeydən öndə”,
Ayrıldı həyatdan bilik günündə...!

O vaxtdan istidir o buz otaqlar,
O vaxtdan üşümür burda uşaqlar.
Nə qədər yağsa da qışda yağış, qar,
Bu məktəb Lətifin adıyla qızar.
Ötübdür o vaxtdan on üç il zaman,
Anılıb, sevilib o hər vaxt, hər an.
Ötəcək əlli il, bəlkə yüz il də,
Lətif yaşayacaq ürəkdə, dildə.
Yaşayıb duracaq səxasıyla o,
Kimsəsiz kəslərə cəfasıyla o.
Kaş belə görəydik hər kəsin sonun,
O ölməz ruhuna eşq olsun onun.

## XI

Dayanıb bu yerdə, yenidən dönək,
İki min səkkizin isti anına.
Qısaca olsa da, nəzər yetirək,
Piriyev Xəzanın iş planına.

Yerlər var, yollar var kənddən kənarda,
Getməyi çətindi təsərrüfata.
İnsanlar qalırlar yağışda, qarda,
Torpağa, palçığa hey bata-bata.

Yenə də hansısa bir şirkət ilə,
Danışıq aparır, razılıq alır.
On beş kilometr torpaq yerlərə
Çınqılla, qum ilə bir örtük salır.

Tarixi, şahidi var bu anların,
Həqiqət nədirsə, qoymayaq itsin.
Qoy Allah iz açıb, yol salanların
Yolunu hər zaman uğurlu etsin.

İndisə bu yolu burda dayanıb,
Başqa bir yol ilə gərəkdir gedim.
Ruhunu çox böyük hörmətlə anıb,
Bu yolu salandan mən söhbət edim.

Doğrudur həmin yol çoxdan salınıb,
Mən sizə yazmışdım əvvəl bu haqda.
O vaxtdan iyrimi beş il adlayıb,
Çox bərbad haldadı bu yol bu vaxtda.

Pis günə qoyubdu yağışlar, sellər,
Bu yolla hərəkət çətindir kəndə.
Narahat olurlar, əzab çəkirlər,
Kənd əhli hər dəfə gedib-gələndə.

Bəs kimdi bu yoldan narahat olub,
Kənd üçün, yol üçün bu yol düzəldən?
O burda böyüyüb, burda doğulub,
Bu kəndə bağlıdı kökdən, əzəldən.

O kənddən çıxdığı qırx ildi bəlkə,
Bakıda yaşayıb, Bakıda qalıb.
İşləyib çox yerdə, gəzib çox ölkə,
Amma ki, gücünü bu kənddən alıb.

Çox adlı, çox sanlı mühəndis idi,
Tərəqqi medallı Hacıyev Knyaz.
Özündən sonraya çox-çox iz salıb,
Heyf ki, həyatdan köç etdi bu yaz!

Məhz onun istəyi, köməyi ilə,
Çox yüksək şəkildə bu yol düzəlmiş.
Qocalı, cavanlı kim varsa elə,
Hamının könlüncə olmuşdur bu iş.

Qoy olsun hər zaman əziz ruhu şad,
Zəhməti olduğu yoldu, gedirik.
Hər gedib gələndə bu yolu rahat,
Adını hörmətlə biz yad edirik.

Bu dünya belədir, hər gələn gedər,
Yol isə əbədi qalan bir yoldu.
Az sonra bu yolu məktəbə qədər,
Vaqif Salman oğlu düzəltmiş oldu.

Bu yolun sağ-sola vardır çox qolu,
Təmirsiz, asfaltsız illərdir qalır.
Bu yolla kəsişən başqa bir yolu,
Bayramov Nüsrət də asfalt saldırır.

Kənd içi narahat bir çox yol qalıb,
İnşallah zamanla düzələr belə.
Son vaxtlar biri də asfalt salınıb,
Piriyev Rəşidin zəhməti ilə.

Bu elə qayğıdı, bu kəndə hörmət,
İlahi onlara yar olsun deyək.
Həm Vaqif, həm Rəşid, həm də ki Nüsrət,
El ilə birlikdə var olsun deyək.

**XII**

Böyük kənd sayılır bu kənd Bərdədə,
Əsas da ziyalı insanı çoxdu.
Yaranan günündən elə hər vədə,
Bu kəndin şöhrəti, həm şanı çoxdu.

Doğmadı, əzizdi biri-birinə,
Var burda sarsılmaz, qırılmaz birlik.
Bu birlik naminə, vəhdət naminə,
Böyük rol oynayır kənddə rəhbərlik.

Kənd üçün çalışan böyük hədəflə,
İcranın rəhbəri Sabir Cahandı.
Vətənə, dövlətə, elə şərəflə,
O, xidmət eyləyir uzun zamandı.

Bu kənddə görülən hər nəki iş var,
O işdə onun da vardır imzası.
Xoş gündə sevinər, başda oturar,
Bu elin yasını sanar öz yası.

Bu elə çox bağlı olduğu qədər,
Həm də ki bağlıdır dövlətə Sabir.
Çəkdiyi zəhməti getməyib hədər,
Dövlətdə ucalıb hörmətə Sabir.

Oxunur üzündən xoş bir hal-əhval,
O dəyər görübdü öz əməyinə.
Dövlətin rəhbəri vermişdir medal,
Dövlət qulluğunda fərqlənməyinə.

Toy-bayram olmuşdu kənd üçün o gün,
Biganə deyildir kənd buna, xeyr.
El-oba adından medal təbrikin
Elin şair oğlu Şiruyə deyir:

*“Səni özlərinə şahənşah seçib,*
*Yaşadığın elə, mahala alqış.*
*Hər an səs verirsən elin səsinə,*
*Bu fikirə alqış, xəyala alqış.*

*Ay elin başçısı, elin vəkili,*
*Ay elin fikiri, ay elin dili.*
*Uğur say ömrünə bu ayı, ili,*
*Aldığın təltifə, medala alqış.*

*Altmış ildə medal alan sən oldun,*
*Düz yol tutub, zəfər çalan sən oldun.*
*Can yandırıb, qeydə qalan sən oldun,*
*Bu təmiz əmələ, amala alqış.*

*El-obamız şad donuna bürünsün,*
*İstəməyən ilan olsun, sürünsün.*
*Bir medal da gəlsin, qoşa görünsün,*
*Gələcək sevincə, vüsala alqış.*

*Könlünün hər arzu, hər həvəsin gör,*
*Namiqin, Xaliqin nəticəsin gör.*
*Nəticə nədir ki, kötücəsin gör,*
*Şiruyə etdiyi bu hala alqış."*

Yeni bir güc verir ona bu gündə,
Bu şair təbriki, elin alqışı.
Söz verir özünə, duracaq öndə,
Nə qədər olsa da kəndin qayğısı.

Düz bir il vaxt keçib artıq o andan,
Dayanmır, baxmayır zaman heç nəyə.
Bu yerdə ayrılıb Sabir Cahandan,
Qayıdaq biz yenə bələdiyyəyə.

İki min on dördün yaz-yay fəslidi,
Başlayır bu kənddə yeni lahiyə.
Köhnə su xətləri dəyişməlidir,
İstismar müddəti keçibdir deyə.

Borular çürüyüb torpaq altında,
Az qala yox olub son otuz ildə.
Rəhmətlik Qiyasın rəhbər vaxtında,
Çəkilmiş olsa da yükşək şəkildə.

Bəs kimin zəhməti vardır bu yöndə?
Kim salıb plana bu su xəttini?
Sorağı gələndə, adı gələndə,
Gərəkdi el bilsin onun qədrini.

Su yoxsa, demək ki, həyat da yoxdur,
Su gücdür, qüvvətdir susuza, aca.
Bu işdə deputat zəhməti çoxdur,
Təşəkkür edirik Zahid Oruca.

İlk işi deyildir onun bu kəndə,
Bu işdən öncə də etmişdir kömək.
Deputat olaraq ilk seçiləndə,
Bu kəndə qaz çəkmiş, xətt dəyişərək.

Düzülür nizamla plastik boru,
Çəkilir su xətti dörd yüz ev üçün.
Üstünə düşübdü işlərin zoru,
Bu işlər şərəfdi Quliyev üçün.

Bu kəndin sədri tək, bələdiyyə tək,
Ona tapşırılıb əsas nəzarət.
Bir neçə ay boyu göstərib kömək,
Uğurla qurtarır işi nəhayət.

Qurtarmış olsa da indi bu işlər,
Əlavə qırx evə su çəkilməyib.
Bu işi başlayan həmin işçilər
O səmtə su xətti çəkə bilməyib.

O vaxtdan ötübdü tam bir il zaman,
Gərəkdir həll olsun qalan su işi.
Sahibkar olaraq Piriyev Xəzan
Üstünə götürür yenə bu işi.

Danışıq aparır Amerikanın
Bakıda yerləşən səfirliyiylə.
Sevgisin qazanıb Azərbaycanın
Səfirlik çox işdə öz xidmətiylə.

Nəticə müsbətdi danışıqlarda,
Qısa bir zamana iş başlayacaq.
İnşallah başlayıb elə bu yayda,
İlk payız ayına iş qalmayacaq.

Qurulur lap öncə iki böyük çən,
Sonra da boruya qazılır xəndək.
Bu çənlər qoyulub elə hündürdən,
Hər evə təzyiqlə su axsın gərək.

Biz dəyər saymayaq bəs necə bunu,
El üçün, kənd üçün, camaat üçün?
Döşənir narın qum xəndək uzunu
Borunu daşlardan qorumaq üçün.

Çəkilir hər evə bu su xətləri,
Səfirlik xərciylə yoldan birbaşa.
Nəzərə alırlar yol gedənləri,
Yol üstə bulaq da olunur inşa.

Verilib bu işin təhvil xəbəri,
Görüşə gələcək bura hamıyla.
Açılış edəcək ABŞ səfiri,
Roberto Sekuta öz xanımıyla.

Sanmayın siz onu sıradan biri,
O səfər etməyir, getmir hər kəndə.
Dünyanın çox nəhəng ölkə səfiri,
Gəlir kəndimizə, Yeni Daşkəndə.

Onlarla bərabər gəlir də bura,
Bərdədən, Bakıdan böyük adamlar.
Bu kəndin yadında on illər sonra
Bir tarix olacaq həmin bu anlar.

Bir çıxış etmişəm həmin görüşdə,
Xoş gəldin demişəm mən qonaqlara.
Təşəkkür etmişəm bizim bu işdə
Əməyi, zəhməti var olanlara.

Sevinci böyükdü həmin bu anın,
Alqışlar altında qurtarır görüş.
Elinə, kəndinə bağlı Xəzanın
Sayılır növbəti uğuru bu iş.

Yaratmaq, yaşatmaq, hey qurmaq üçün
Bəxş edib İlahi bu ömrü ona.
Biz onun borcunu qaytarmaq üçün
Diləyək Allahdan su ömrü ona.

## XIII

İki min on doqquzun dekabrında,
Dekabr ayının lap sonlarında
Hazırlıq görülüb hər yer, hər yanda,
Seçkinin vaxtıdı Azərbaycanda.
Necə ki, olubdu hər vaxt, hər vədə,
Hazırlıq yüksəkdi bizim kənddə də.
El-oba yığılıb bələdiyyəyə,
Yenidən üzv(ü)lər seçsinlər deyə.
Seçilən üzvlər içindən yenə,
Sədrlik olacaq layiq birinə.
Gərəkdir bu adam iş görən olsun,
El ilə ağlayıb, həm gülən olsun.
Gərəkdi qoymasın o, eli darda,
Elini düşünsün olsa da harda.
Fikrimi bu yerdə qoy deyim qısa,
Kənd üçün iş görsün nə lazımdısa.
Seçilir tam doqquz nəfər üzv(ü)lər,
Bu doqquz içindən sədr bir nəfər.
Bəs kimdir seçilən o həmin səd(i)r?
İşi nə, adı nə, soyadı nədir?
Söyləyim kimdi o, çox uzatmayım,
Uzadıb sözümü, sizi yormayım.
Seçilmiş yenə də bələdiyyəyə,
O Xəzan Piriyev, həm sədrliyə.
Çox işlər görübdü bu günə qədər,
Odur ki, el ona veribdir dəyər.
Bu kənddə ümidlər böyükdür ona,
İşlər var, həll olub, yetməyib sona.
İnşallah, doğruldar o ümidləri,
Odur ki, gözləyək gələn günləri.

Aradan cəmisi bir ay vaxt keçib,
El ilə görüşə Xəzan vaxt seçib.
İki min iyrimi, fevralın biri,
Baş tutur gözlənən böyük tədbiri.
Yığılıb çox insan kənd klubuna,
Bir azca açıqlıq gətirim buna.
Bu soyuq havada isti salamla,
Hal-əhval eyləyir Xəzan hamıyla.
Başlayır söhbətə o ürək ilə,
Bu elə, obaya xoş dilək ilə.
Danışır kənd üçün görəcəyindən,
Bu kəndin uğurlu gələcəyindən!
Nə gəlsə edəcək deyir əlindən,
O dəstək umacaq hər an elindən.
Deyir ki, mütləqdi yaransın birlik,
Qalmasın, olmasın kənddə zibillik.
Əl-ələ verərək, biz hamı gərək,
Qoruyaq bu kəndi öz evimiz tək.
Sonra da dinləyir kənd sakinlərin,
Onların istəyin, problemlərin.
Dinləyir söylənən çatışmazlığı,
Yay vaxtı yaşanır suyun azlığı!
Əlli ev sanki də başqa bir kənddi,
İllərdi ayrıdı cərəyan xətti.
O xətlər bağlanıb başqa kəndlərə,
Bu imkan yaradır problemlərə.
Çox yerə deyilib, yazılıb bu iş,
Həllini tapmayıb, pozulub bu iş.
Qeyd edir bunları kitaba Xəzan,
Söz verir, düzələr çox keçməz zaman.
Beləcə ilk görüş yetir tamama,
Növbəti görüşə az qalıb amma.

Fevralın beşində olacaq görüş,
Çox illər yaddaşda qalacaq görüş!
Xəzanın görüşü bəs kiminlədir?
Şəhid ailələri diqqətindədir.
Vaxt çatır, həmin gün, səhər çağında,
Qəlbitək o isti, öz otağında.
Çox böyük hörmətlə, məhəbbət ilə,
Mehriban, səmimi, xoş ülfət ilə.
Çıxır qarşısına bu insanların,
Doğmasın vətənə bu qıyanların!
Bu görüş saatdan çox müddət olur,
Bu müddət ərzində xoş söhbət olur.
Söhbətin məqamı düz gələn zaman,
Ən əsas fikrindən söz salır Xəzan.
– Nə qədər doğmadır, əzizdir sizə,
O qədər əzizdir şəhidlər bizə.
Düşmənlə döyüşüb, can verib onlar,
Vətənə bəxş edib bu gözəl anlar.
Bizə də borcdur ki, daima gərək,
Şəhidlər ruhuna ehtiram edək.
Var bizim kənddə də abidə çoxdan,
Çox illər keçibdi tikilən vaxtdan.
Çox gözəl olsa da hər iş əzəllər,
Bozarıb şəkillər, indi həm mərmər.
Gərəkdi yenidən təmir eyləyək,
Şəhidlər adına layiq olan tək.
Dəyişsin sütunlar, dəyişsin mərmər,
Həm böyük, həm rəngli olsun şəkillər.
Sağında, solunda gözəl bağ olsun,
Bu bağın içində bir otaq olsun.
Şəhiddən yadigar evdə hər nə var,
Şəkillər, paltarlar, qələm-kitablar.

Qoyulsun oraya, tamam var nə ki,
O xidmət eyləsin bir muzey təki.
Döşənsin daş ilə abidə önü,
Yayılsın hər yana sorağı, ünü.
Bu işdə dəstəkdi mənə ellilər,
“Sən başla, səninlə varıq” – deyiblər.
Bunları söyləyib, deyən zamanı,
Susub dinləyirdi hamı Xəzanı.
Hər kəsin üzündən sevinc yağırdı,
Təşəkkür etməyə hamı hazırdı.
Nəhayət dillənir şəhid qardaşı,
Bir neçə şəhidin döyüş yoldaşı.
Qarabağ əlili Qasımov Rizvan,
Sevincdən kövrəlir, söz alır bu an.
Danışır aramla, həm də diqqətlə,
Böyüyə, kiçiyə böyük hörmətlə:
“Məni bağışlasın burda böyüklər,
Böyüklər bizlərə verib öyüdlər.
Hörmətsiz çıxmasın tez söz almağım,
Bu anda çətindir susqun olmağım.
Bu olan təklifə şadam indi mən,
İstərəm başlasın bax bu iş həmən.
Şəhidlər bizlərə şöhrətdi, şandı,
Şəhidlər vətəndi, Azərbaycandı.
Borcluyuq onlara bizlər hər zaman,
Millətin yolunda keçib canından.
Düşmənlə döyüşdə şəhid olublar,
Mütləqdi əbədi yaşasın onlar.
Təşəkkür edirəm mən öz adımdan,
Bu gözəl təkliflə sağ olsun Xəzan.
İnşallah başlasın qısa zamanda,
Olarıq hər zaman onun yanında.

Ürəkdən dəstəyəm bu işə mən də,
Köməklik edəcəm yeri gələndə".
Sonra da danışır cəsur komandir,
Polkovnik-leytenant Səfərov Samir.
Söyləyir, əlbətdə vacibdir bu iş,
Sağ olsun bu işi kim ki düşünmüş.
Onların haqqıdı olsun hər yerdə,
Şəhidlər adına gözəl abidə.
Həssas bir məqamdı həm də vətəndə,
Döyüşlər başlaya bilər hər dəmdə.
Şəhidə hər nə ki olur ehtiram,
Bir örnək götürür bundan hər cavan.
Anlayır vətəni sevmək gərəkdir,
Anlayır vətən nə, yurd nə deməkdir.
Odur ki, qoy görsün bizim də gənclər,
Olsunlar hər biri mərd, vətənpərvər.
Odur ki, bu işi alqışlayıram,
Xəzana uğurlar arzulayıram.
Hər kim ki, olacaq onun dəstəyi,
Qoy Allah onların olsun köməyi.
Beləcə çıxışlar davam eyləyir,
Hər biri bu işə fikir söyləyir.
Danışır igidlər doğan analar,
Qürurlu görünür bu an analar.
Duyurlar ölməyib ər oğulları,
Bu millət yaşadır hər an onları.
Söyləyir bu işə xeyir-dualar,
Bu əziz analar, gözəl analar.
Qurtarır görüş də xoş dualarla,
Ancaq ki, yenə də bu analarla,
Bir görüş olacaq çox yaxın vaxtda,
Qadınlar günündə, tam səkkiz martda.

Təbrik eyləyəcək Xəzan onları,
Mən yazdım, siz bilin bu olanları.
Onu da bilin ki, qısa zamanda,
Qış çıxıb, yenicə bahar olanda,
Dayanmış o işin üstündə Xəzan,
Düzəlmiş enerji xəttində nöqsan.
Hansı ki, bağlıydı başqa xəttlərə,
O xəttlər gedirdi uzaq kəndlərə.
Gətirtmiş əlavə dəmir dirəklər,
Bu kəndə bağlanmış həminki xətlər.
Əlli ev işığa, nura boyanmış,
Sağ olsun Xəzanı, yaxşı ki, varmış!

## XIV

Ötübdü o vaxtdan bahar da, yay da,
Duyğulu bir kövrək payız başlayıb.
Qaranlıq gecəyə bənzəyir həyat,
Qarşıda nələr var, bilən olmayıb.

İki min iyrimi, sentyabr sonu,
Başlayır ikinci vətən savaşı.
Otuz il işğalda qalan vətənin
Azad olmalıdı torpağı, daşı.

Cəmisi qırx dörd gün zaman içində,
İlkdi bu qələbə müharibədə.
Çox böyük izaha təbim çatammaz,
Qısaca məlumat yazım bu yerdə.

Ayağa qalxıbdı tam Azərbaycan,
Millətin döyüşə ruhu yüksəkdir.
Hamının bir arzu, bir şüarı var,
Qələbə uğrunda döyüşəcəkdir.

Silahı fərqlidir, topu fərqlidir,
Bu döyüş bənzəmir ilk döyüşlərə.
Millətək, dövlətək qalmaqdan ötrü
Qalib gəlməliyik ermənilərə.

Döyüşə qatılıb səksənə yaxın,
Zabitli, əsgərli gənc kəndimizdən.
Qarabağ işğalda qaldığı yetər,
Sücaət gözləyir bu vətən bizdən.

Olsa da düşmənin arxa, dayağı,
Fransa, Rusiya, həm çox ölkələr.
Döyüşüb alarıq biz Qarabağı,
İnşallah bu payız bitənə qədər.

İlk uğur günüdür dörd oktyabr,
Başlanır qələbə Cəbrayıl ilə.
Alınır düşməndən iyrimi gündə,
Füzuli, Qubadlı, Zəngilan belə.

Silahı, sursatı qoyaraq qaçır,
Ordumuz önündə düşmən dayanmır.
Şuşamız işğaldan azad olan gün,
Qələbə günüdür səkkiz noyabr.

Çox asan yazsam da mən qələbədən,
Yox, asan olmadı qələbə bizə.
Bu zəfər naminə canından keçən,
Borcluyuq biz üç min şəhidimizə.

Yaralı nə qədər igidlər də var,
Onlara tez şəfa diləyirəm mən.
Bu vətən uğrunda can verənlərin
Ruhları önündə baş əyirəm mən.

Qələbə yolunda can verənlərin,
Biri də həmkəndli Səfayət oldu.
Döyüşlər başalayan lap ilk günlərdə,
Onun da qisməti şəhadət oldu.

O zaman üçrəngli bayraqla gələn
O tabut ucalıq gətirdi elə.
Bəkə də son illər Yeni Daşkənddə
O qədər izdiham olmamış hələ.

Həm zəfər sevinci, həm şəhid yası,
Yaşandı bu aylar, il başa yetdi.
İki min iyrimi birinci ildə,
Bəs Xəzan müəllim görək nə etdi?

Yəqin ki, hər kəsin durur yadında,
Tam bir il öncədən söz demişdi o.
Kənddəki şəhidlər abidəsini
Yenidən tikməyə vəd vermişdi o.

Bax həmin vədinin vaxtıdır indi,
Başlayır bu işə fevral ayında.
Bu böyük bir işdi, bəs ona dəstək,
Görəsən olacaq kimlər yanında?

Gərəkdir lap öncə tikilsin hasar,
Ətrafa ən azı iki yüz met(i)r.
Hər metr ikiqat, həm də hündürlük,
Hardasa yeddi yüz kvadrat edir.

Ərazi böyükdür, lahiyə böyük,
Əlbətdə bu işə xeyli xərc gərək.
Allahın izniylə iş avand olar,
Narahat olmağa heç tələsməyək.

Başlayıb qazılır barıya özül,
Alqışla, sevinclə, xoş bir diləklə.
Bu işə ilk yardım, ilk dəstək verən
Piriyev Rəşiddi, gəlir ürəklə.

Dayanib Xəzanla burada qoşa,
Kənd icra rəhbəri Cahangirov da.
Əlbətdə, hər zaman zəhmət çəkəcək,
Onunla bərəbər o da bu yolda.

Günbəgün tikilib, ucalır hasar,
Şəhidlər ruhuna böyük hörmətlə.
Bəlkə də işləri bitirmək olar
Beç-altı ay boyu bu sürət ilə.

Bu işlər getdikcə, eyni zamanda,
Sökülür təməldən köhnə abidə.
Bir gün də dayanmaq, gecikmək olmaz,
Gərəkdi bu işlər vaxtında bitə.

Bu elə şərəfli, şanlı bir işdi,
Yayılıb sədası artıq hər yana.
İnşallah tikilən bax bu abidə,
Bir örnək olacaq Azərbaycana.

Eşidib, duyubdu kənddəki işi,
General eloğlu Quliyev Asəf.
Dəstəyi nə olub, nə qədər olub?
– O haqda yazmıram, olmasın da səhv.

İnşası olacaq bu abidənin,
Tökülür özülü yeddisi martda.
Əlavə bu işə kim kömək edib,
Çalışıb yazacam mən onlar haqda.

Heç biri yad deyil, özgə deyildir,
Hər kimdi bu kənddən, bu eldən gəlir.
Bu işin naminə növbəti kömək
Tanrıverdi oğlu Emildən gəlir.

Əlavə hər axşam işdən gələndə,
Dayanıb soruşur, – "çatmayan nədir?"
Bir həftə boyunca iş texnikasın,
Hər səhər tezindən bura göndərir.

Heç asan deyildir burada işlər,
İşləyir durmadan KON yükləyici.
Gah ora, gah bura, gah başqa səmtə
Daşıyır çınqılı, daşı, kərpici.

Dəstəyin verdikcə el oğlanları,
Güclənir, burada iş sürət alır.
Başlanıb hörgüsü abidənin də,
Hər günü bir metr qalxıb ucalır.

Görünür, duyulur işin bəhrəsi,
Bəs kimdir bu işdə zəhmət çəkənlər?
Əlində qabarı, alnında təri,
Bəs kimdir bu usta, həm də fəhlələr?

Nofəldi, Elnurdu, Vaqifdi burda,
Ərzuman ustayla qurub tikirlər.
Var Emin, var Ruslan, Əlşad, Sədiyar,
Bir də ki, Elburus, zəhmət çəkirlər.

Bu əli qabarlı usta-fəhlənin,
Ruzisin yetirsin Allah həmişə.
Bu yerdə deyim ki, usta Elnurun
Əlavə yardımı vardır bu işə.

Ustaya, fəhləyə göstərir diqqət,
Bu onun canında, həm qanındadı.
Bu işə dəstəktək Bayramov Nüsrət,
Xəzanla birgədi, hey yanındadı.

Yarıdan keçibdi hörgü işləri,
Amma ki, ehtiyac çoxdu dəstəyə.
Belə bir məqamda Hacı Rövşən də
Eşidib bu işi, çatır köməyə.

Uzaqda işləyir, gec xəbər tutub,
Tikinti işindən, bu abidədən.
Gec xəbər tutsa da, yardım eyləyir,
Eldəniz Hacıyev vaxt itirmədən.

Artdıqca burada işin ahəngi,
Əlbətdə cəlb edir çox diqqətləri.
Bir yanda həm hörgü, həm suvaq işi,
Tezliklə olacaq ağlay işləri.

Çox savab işləri olub deyirlər,
Qoy Allah lütfünü kəsməsin ondan.
Növbəti bir dəstək gəlir Xəzana,
Süleymanov Vaqif Salman oğlundan.

Bu işə biganə olmamaq üçün,
Mütləqdir sevəsən torpağı, daşı.
Tikinti işində dəstəkdir həm də,
Vaqiflə bərabər Rəşid qardaşı.

Bu dəstək, bu kömək birlik deməkdir,
Harada birlik var, güc də var orda.
Şiruyə Sərrafdan bax bu birliyə,
Yeri var, söyləyim bir şeir burda:

*“Eldən aralansa təklənər, itər,*
*İgid arxalansa elə, güclənər.*
*Ümman parçalansa ada deyərlər,*
*Sızqa qarışarsa selə, güclənər.*

*Təkliyin hünəri xəyaldı, qardaş,*
*El-mahal birliyi vüsaldı qardaş.*
*“Tək əldən səs çıxmaz” – misaldı, qardaş,*
*Əl kömək durarsa ələ, güclənər.*

*Şiruyə, qalmayıb dünya heç kəsə,*
*Yaradıb, qurmağa insan tələsə.*
*Sözünü sözə qoş, səsini səsə,*
*Dil kömək durarsa dilə, güclənər”.*

Güclənər əlbətdə iş də, adam da,
Qoşulan olanda xoş bir niyyətlə.
Sağ olsun, Paşayev Rza bu anda,
Qoşulur yardıma məmnuniyyətlə.

Onunla bərabər, həm də Bakıdan
Qoşulur Yaməddin Hüseyn oğlu.
Hər kim ki, dəstəkdir, köməkdir bura,
Olsun da qazancı hər zaman çoxlu.

Tək elə bu işə kömək sanılmır,
Bu kömək göstərir bu elin gücün.
Qazancı çox olsun həm də Həsənov
Valehin bu işə köməyi üçün.

Yeddi yüz kvadrat hörgü və suvaq,
Nəhayət qurtarıb, yetibdir sona.
Ağlayın dalınca gedibdir Xəzan,
Hələ çox köməklik gərəkdir ona.

Sonra da gələcək abidə üçün,
Qırmızı, boz rəngdə mərmər piltələr.
İşləri tamama yetirmək üçün,
Adını çəkmirəm, gələcək nələr...

Maşınla gələsi hər nə yük olsa,
Təmənna ummadan olar orada.
Xüsusi rolu var şəhid qardaşı
Həsənov Zaurun yük daşınmada.

Yaxşılıq elə bir işdir ki, onu
İtirmək, ya danmaq qəbahət olar.
Bu işdə maddiyyət tək kömək deyil,
Mənəvi dəstəyi olanlar da var.

Nə zaman oraya getsəniz əgər,
Görərsiz Rizvanı, Ceyhunu orda.
Hər biri bir şəhid qardaşıdırlar,
Onlarla bərabər var Şahsuvar da.

Köməyə qoşulan bir insan da var,
O bizə doğmadı, istiqanlıdı.
Vətən sevdalıdı Sidqi Abbasov,
Doğulub Göyçədə, Subatanlıdı.

Başlayıb nəhayət ağlay işləri,
Bayramov Vilayət mahir ustadı.
Bu işlə ölkənin bir çox yerində
Var onun imzası, var onun adı.

Nəticə çox gözəl olması üçün,
Ölçüdə, kəskidə dəqiqlik gərək.
Çətinlik yaradır iyul istisi,
Az qalır gün altda dayansın ürək.

Ağlaylıq işlərin burda hardasa,
Yeddi yüz paqonnu ölçüsü vardır.
Ağ layın ardınca abidə üstə,
Qırmızı, boz mərmər vurulacaqdır.

Hardasa on beş min vəsait gedir,
Bu ağ lay, həm də ki, mərmər daşlara.
Belə bir məqamda yardım göstərən,
Təşəkkür edirik Kərimovlara.

Həm Azər müəllim, həm Hacı Zakir,
Həm də ki, Vüqardı bu Kərimovlar.
Dəstəklə bərabər belə deyiblər,
Gərəksə yenə də hazırdır onlar.

Ağlayı, mərməri, bu ağır işi,
İşləyir tam bir ay usta Vilayət.
Abidə önünə döşəmə tamet,
Düzməyin vaxtıdır indi nəhayət.

Nə azdı, nə çoxdu bu iş sahəsi,
Düz üç yüz kvadrat tamet olacaq.
İnşallah cəmisi bircə həftəyə,
Bu iş də uğurla tam qurtaracaq.

İşlərin uğurla getdiyi bu an,
Yenə də dəstəyin gəlir xəbəri.
Borcumdur ürəkdən mən alqışlayım,
Firudun və Telman Musayevləri.

Bu yardım işində kənarda qalmır,
Hay verir bu haya Hacı Ədalət.
Onunla bərabər əziz kirvəsi,
Qoşulur bu saya Hacı Səxavət.

Sifariş verilib hər bir şəhidin,
Düzəlir şəkili rəngli formada,
Bu şəhid oğullar sırasında mən,
Tanışlıq gətirim beş yeni ada.

Vətən qəhrəmanı Hümbətov Azad,
Bakıda yaşamış Daşkəndlimizdi.
Daşkəndli deyilən harda olsa da,
Yenə öz doğmamız, əzizimizdi.

Döyüşə getmişdir Baş leytenanttək,
Komandir olaraq öndə durmuşdur.
Bu vətən uğrunda şəhid olunca,
Düşmənin beş tankın məhz o vurmuşdur.

Bu beşdən ikinci Əsədxan oğlu
Tofiqdir, döyüşmüş o vaxt, ilk vədə.
İyrimi bir illik ömür yaşayıb,
Və şəhid olmuşdur o Ağdərədə.

Üçüncü Nürəddin Süleymanovdur,
Şəhadət qazanmış Murov dağında.
Onun da iyrimi bir yaşı varmış,
Vətənə canını verən çağında.

Zeynalov Nəbidir dördüncü şəhid,
O qanlı Ağdərə döyüş yeriymiş.
Daşkəndin çox olub igidi, əri,
Nəbi də onlardan elə biriymiş.

Nəhayət bu beşdən sonuncu şəhid,
Mahmuddur, soyadı Canbaxışovdur.
Minaya düşdüyü düşüb yaddaşa,
Heyf ki, məzarı hələ də yoxdur!

Bu beşlə əvvəlki on yeddi şəhid,
Birlikdə iyrimi iki qardaşdı.
Sanmayın ölüblər, bilin ki onlar,
Burada əbədi “dostdu, sirdaşdı”.

Əbədi “dost olan, bu sirdaş olan”,
Şəhidlər ruhuna ehtiram artır.
Abidə işinin bu məqamında
Əliyev Malik də köməyə çatır.

Çatır da köməyə Namazlılardan,
Nəsrəddin Əliyev, gözəl eloğlu.
O belə dəstəyi çox adamlara,
Bəlkə də göstərib əvvəllər çoxlu.

Çoxları Bayramov çağırır onu,
Dəstəyə qoşulan Mehdidən deyim.
O biznes əhlidi, sevmir nisyəni,
Mən ona "sağ ol"u indidən deyim.

Nəslində, soyunda iki şəhid var,
Yazılıb onların döyüş yolundan.
Odur ki, bu işə ürəklə, canla,
Qoşulub Tural da Pirnazarlıdan.

Nəhayət, sonuncu köməkçimizdi,
Bakıda yaşayan həmkəndli Zamin.
Atası Əhliman, ruhuna rəhmət,
Mən dedim, eşitdiz, siz deyin, amin.

Bu yerdə mən elin, kəndin adından
Təşəkkür edirəm bu insanlara.
Min əhsən deyirəm, xeyirxah işlə
Özündən sonraya iz salanlara.

İz salan biridi Coşqun Babayev,
Bir şəhid bulağı eyləyib inşa.
Abidə işində kömək də edib,
Ona da deyirik "çox sağ ol, yaşa".

Söz ardı deyim ki, burda öncədən,
Bir kiçik bulaq da tikib qoyublar.
Daşkəndli şairi, Məmmədsöyünü,
Su içib sevgiylə xatırlayıblar.

Sifariş vaxtından bir ay vaxt ötüb,
Düzəlib, hazırdı bütün şəkillər.
Az qalır hər biri dinə, danışa,
Möhtəşəm alınıb, gözəl çəkiblər.

Söhbət ki, möhtəşəm işdən düşübdü,
Təşəkkür edəyin gəlin bu ara.
Göyçəli ellimiz, Qoşabulaqlı,
O Qoşqar oğluna, usta Anara.

Özü də burada iş başındadır,
Bağlayır lövhəyə o, şəkilləri.
Elə bil şəkil yox, əsgərlərdilər,
Qaytarıb geriyə zaman illəri!

Elə bil indicə döyüşdən gəlib,
Bir azca toxtayıb, həm dincəlirlər...!
Şəhid zirvəsinə əbədi qalxan
İyrimi ikidir burda igidlər!

## XV

Sentyabr ayıdır, artıq çox işlər,
Hər necə lazımsa, görülübdülər.
Abidə hazırdı, hasar hazırdı,
Abidə önündə nə var hazırdı.
Əkilib dirəklər, çəkilib işıq,
Gecələr abidə olur yaraşıq.
Düzülüb yan-yana oturacaqlar,
Əyləşir qürurla burda uşaqlar.
Xəzan da burada olur hər axşam,
Gördüyü işindən alır o, ilham.
Hərlənir sağ-sola, düşünür dərin,
Havalar istidir, düşməyib sərin.
Hələ ki, ətrafda bağ salmaq olmaz,
Bu vaxtı əkilən tutmaz, ya qalmaz.
Gözləyir payızın sərin havasın,
Gül-çiçək basdırsın, ağaclar alsın.
Dönsün də abidə bir gülüstana,
Yazılsın tarixə, düşsün dastana.
Həm qışda, həm yayda bir cənnət olsun,
Abidə hər anda ziyarət olsun.
Yayılsın dörd yana ətri güllərin,
Ruhları şad olsun bu şəhidlərin.
Bu arzu-diləklə, fikir-xəyalla,
Hər günü burada xoş bir əhvalla,
Ötüşür anbaan, ay sona gedir,
Yetir Anım günü, əziz gün yetir.
İyrimi yeddisi sentyabrdı bu,
Yaradır könüldə qürurlu duyğu.
Anılır hər yerdə bu gün şəhidlər,
Əbədi yaşayan ölməz igidlər!

Məhz bu gün başlamış şanlı döyüşlər,
Həm də ki, başlamış geri dönüşlər.
Cəmisi qırx dörd gün döyüşən ordu,
Eyləmiş düşməndən azad bu yurdu.
Göstərmiş düşmənə gücün, qüvvətin,
Güldürmüş könlünü xalqın, millətin.
Bu millət naminə, bu xalq naminə,
Ədalət naminə, həm haqq naminə,
Ən ağır döyüşə şahid olmuşlar,
Döyüşə-döyüşə şəhid olmuşlar.
Vətəni qoruyub öz canlarıyla,
Bir tarix yazıblar al qanlarıyla.
Cəmisi qırx dörd gün zaman savaşıb,
Bütün səngərləri dağıdıb, aşıb.
Azad eyləmişlər bu torpaqları,
Otuz il işğalda qalan yurdları.
Odur ki, bu yurdda gedilsə hara,
Ehtiram günüdür bu gün onlara.
Bu eldə, obada, bax bu kənddə də,
Ehtiram olaraq bu vaxt, bu vədə.
Yığılıb yüzlərlə insan önünə,
Abidə hazırdır Anım gününə.
Gələrək buraya kənd əhli bütün,
Üç dəfə ziyarət eyləmiş bu gün.
Çıxışlar olmuşdur şəhidlər haqda,
Yurd üçün can verən igidlər haqda.
Söylənmiş onların cəsarətindən,
Vətənə, millətə sədaqətindən.
Bu Anım günündə, xalqın yanında,
Olmuşdur deputat Fatma xanım da.
Abidə önünə düzüb gül-çiçək,
Hörmətlə, sevgiylə baş endirərək.

Əziz ruhlarına rəhmət söyləmiş,
Şəhidlər haqqında çıxış eyləmiş.
Təşəkkür etmişdir abidə üçün,
Kimlər ki, xərc çəkib, qoymuşsa gücün.
Demiş ki, vətənə bir xidmətdi bu,
Sevgidi, hörmətdi, sədaqətdi bu.
Bəyənmiş ürəkdən xiyabanı o,
Ayrılıb buradan gedən anı o.
Gələcəm demişdir açılışda da,
Bir çıxış edəcəm mən lap başda da...
Ötəcək anbaan qırx dörd gün zaman,
İyrimi səkkiz il zaman sonradan.
Gələcək noyabr, o zəfər günü,
Ordumun Şuşaya o səfər günü.
Bu səfər, bu zəfər, bu tarix ki var,
Bir dünya boyunca bizi yaşadar.
O günə xoş arzu, xoş dilək ilə,
İnşallah gələcək çox qonaq hələ.
Gələcək Bakıdan, doğma Bərdədən,
Bu elə, bu kəndə yaxın bölgədən.
Açılış günündə hər gəlib-gedən,
Məmnun olacaqdır bu abidədən.
Əklillər qoyacaq, gül düzəcəklər,
Ehtiram edəcək, baş əyəcəklər.
Çıxışlar olacaq saatlar ilə,
Şeirlər deyəcək uşaqlar belə.
Duracaq yan-yana şəhid doğması,
Kiminin qardaşı, kimin anası.
Üzündə, gözündə sevinc olacaq,
Şəhid oğullarla qürur duyacaq.
Təşəkkür olacaq Xəzana çoxlu,
El niyə sevməsin bəs belə oğlu?

Bu işin başında durmuş mərdana,
Bu elin hörməti halaldır ona.
Hər kim ki, Xəzana olmuşdur dəstək,
Alqışlar alacaq onlar da tək-tək.
Onların dəstəyi köməyi ilə,
Abidə çatmışdır bu cür hasilə.
Şəhidə hörmətlə bu işlə onlar,
Özləri yaddaşda yaşayacaqlar.
Açılış sonunda söz alıb Aqşin,
Dəyərin verəcək bu gözəl işin.
Yazdığı əsəri təqdim edəcək,
Bununla açılış sona yetəcək.

## EPİLOQ

Bax burada sona vardım, başladığım yazını mən,
Yazılmalı çox işlərin, bəlkə yazdım azını mən.
Bu el, bu kənd çox böyükdü, çox dərinə gedəmmədim,
Öyrənməli çox işlərə, hər məqama yetəmmədim.
Bilirəm ki, yazılmalı çoxdu burda dəyərlilər,
Sona gedib çatammaram, mən başlayıb yazsam əgər.
Bəlkə buna azdı yaşım, bəlkə azdı təcrübəm də,
Qüsurlara yol verməyim, ola bilər bu vədəmdə.
Mən yazmadım bu kənddəki ağsaqqaldan, ağbircəkdən,
Hansılar ki, biz onları sevən idik lap ürəkdən.
Mən yazmadım əli qabar, torpaq əkən zəhmətkeşdən,
Çörəyini halallıqla qazanıbdı ağır işdən.
Mən yazmadım alimindən, həm bu kəndin loğmanından,
O alim ki, o loğman ki, fəxr etmişik ad-sanından.
Mən yazmadım döyüşlərdə çox döyüşən ərənlərdən,
O ərənlər müjdə verib bu millətə xoş zəfərdən.

Mən yazmadım neçə məşhur sənətkardan, həm yazardan,
Səsi gəlib uzun illər məclislərdən, toy-mağardan.
Mən öyrəndim yazdım yalnız, tikib, qurub, yaradandan,
O kəsdən ki, bu el üçün bir yadigar qalıb ondan.
O kəslərdən söz saldım ki, tanıdıbdı bu eli o,
Həyat üçün, bilik üçün, qoyub burda təməli o.
Mən yazdım ki, gələcəkdə qoy çıxmasın yaddan onlar,
Mən yazdım ki, onlar kimi bir iz qoysun bu insanlar.
Bir əbədi yaşamaqdı el-obaya gərək olmaq,
Ölməmişdən ölməkdi bu, el-obadan kənar qalmaq.
Mən bu elin bir oğlutək, çalışdım ki, nəsə edim,
Çox düşündüm, qərar verdim, bu işləri yazım dedim.
Bacardığım budur mənim, nə bacardım, yazdım bir az,
Olanları, qalanları duyduğum tək yozdum bir az.
Bu da məndən elim üçün bir yadigar olsun dedim,
Daha burda söz qurtardı, daha burda sona gedim.
Ömür vəfa eyləyərsə, yazacağam eldən yenə,
Bunu sizə söz verirəm, son məqamda dönə-dönə.

*13.10.2021*
*Yeni Daşkənd, Bərdə rayonu*

## QUCAQ AÇDI BƏRDƏ BİZƏ

***Ağdam Dövlət Dram Teatrının aktrisası Afəridə Sabirqızının dilindən***

**I**

Doxsan üçün yayıydı
İsti iyun ayıydı.
O gün gözlər nəm idi,
O gün cəhənnəm idi.
Mərmi səsi hər vədə,
Səslənirdi cəbhədə.
Qanlı döyüş gedirdi,
İşğal anı yetirdi.
Belə ağır bir anda,
Çətin vaxtda, zamanda,
Hələ açmamış səhər,
Boşaldıldı bir şəhər.
Bircə gündə, İlahi,
Nələr olurmuş, nələr!
Zülüm, zillət çəkilmiş,
Min zəhmətlə tikilmiş
Ağdam qurulu qaldı,
Evlər tam dolu qaldı!
Çoxu əyninə bir tək,
Götürmüşdü can köynək.
Kimi ayağı yalın,
Kimi uşağı yalın,
Kimi malı tövlədə.
– Qayıdarıq bəlkə də,

Düşünərək beləcə.
Gah aşkar, gah gizlicə,
Son dəfə göz yaşıyla,
Görüşüb dam-daşıyla,
Çöküb öpdü torpaqdan,
Nicat umdu Allahdan.
Olsa belə bu haqsız,
Bax beləcə əlacsız
Qohum, qardaş, el hamı,
Tərk eylədi Ağdamı.
Elə o gün beləcə,
Bircə gündüz və gecə.
İşğal oldu, talandı,
Ağdam oda qalandı!

**II**

Əzizinəm Ağdamı,
Ağdam qəlbin ağ damı.
Ağdam oldu sinəmdə
Sağalmayan “dağ” damı.

Mən aşiq dərdə sarı,
Tuş gəldik dərdə sarı.
Ağdam qaçqın düşüb eyy,
Yol gedir Bərdə sarı.

Ümid yeri bilərək,
Bərdəyə yol gedirik.

Quruyub daş olmuşuq
Dilimiz lal gedirik.

Ağdam boyda ürəkdə,
Sinədə xal gedirik.
Fikirlər alıb bizi,
Haçan geri dönərik.

Haçan bir də sevərək,
O torpağı öpərik.
Yoxsa, yoxsa Ağdamı,
Daha bir də görmərik!

Mən aşiq Bərdə yolu,
Açıbdı mərdə yolu.
Bu yol şərəf yoluydu,
Kim saldı dərdə yolu?

**III**

Bu da Ağdam-Bərdə yolu,
Ağdamlıyla bu yol dolu.
Kim ağlayır, kim hıçqırır,
Kim çağırır, kim qışqırır.
Dost-qohumlar sarışıbdı,
Ah-nalələr qarışıbdı.
Qarşı gəlib Bərdəlilər,
Dəstək olub, əl verdilər.
Biri təzə döşək verdi,
Biri isti çörək verdi.

Biri qaçıb su gətirdi,
Susuzluğun yatır dedi.
Biri evə qonaq etdi,
Biri haya, dada yetdi.
Biri şirin söz söylədi,
Qayıdarsız tez-söylədi.
Həftələrlə bax beləcə,
Axşam-sabah, gündüz-gecə.
Şərik olub dərdimizə,
Qucaq açdı Bərdə bizə.

**IV**

Bax beləcə keçdi aylar,
Ömrümüzdən neçə saylar.
Yay adladı, payız keçdi,
Hava şaxta, ayaz keçdi.
Onda qış da sərt gəlmişdi,
Dərd üstündən dərd gəlmişdi.
Yadımdadı yaxşı-yaxşı,
Paltosuzdum mən o qışı.
Geyinməyə qış paltarı,
Bir dənə də yoxdu barı.
Qar-yağışda paltosuzdum,
Atasızdım, yetim qızdım!
Yazıq anam əlacsızdı,
O da onda, arxasızdı,
Gəzib tamam bir bazarı,
Axtarmışdı qış paltarı.
Təzəsinə pulu azmış,

Köhnəsinə imkan varmış.
Qarlı qışdan çıxsın deyə,
Zəmanəyə söyə-söyə.
Olan quruş-qəpiyinə
Köhnə palto almış mənə.
Yenə o vaxt, o zamanlar
Qəlbi təmiz xoş insanlar,
Neçə-neçə Bərdəlilər,
Bizə həmdəm, dərd əhlilər,
Arxa oldu, dayaq oldu,
Yolumuza mayak oldu.
Darlıq nədir çox bilmədik,
Deməyin ki, yox, bilmədik.
İtirmirik bu eyliyi,
Biz duymadıq ögeyliyi.
Hər xeyirdə, şərdə bizə,
Kömək oldu Bərdə bizə.

**V**

Nə zaman ki, az müddətə,
Üç gün, beş gün, ya bir həftə,
Yol gedirəm səfərlərə,
Ayrı-ayrı şəhərlərə.
Qəlbim olmur bir an aram,
Bərdə üçün darıxıram.
Üzüm gülmür heç bir yanda,
Sevinirəm qayıdanda.
Hər Bərdəyə girəndə mən,
Fərəhlənnəm, ürəklənnəm.

Qollarıma qüvvət gəlir,
Ürəyimə cürət gəlir.
Ağdam mənim ürəyimdir,
Ən müqəddəs diləyimdir.
Doğulsam da Ağdamda mən,
Böyümüşəm Bərdədə şən.
Bərdə əziz öz anamdı,
Bərdə evim, həm binamdı,
Sorüşsalar haralıyam,
Bərdəli, həm Ağdamlıyam
Söyləyirəm onlara mən,
Fərq qoymuram bunlara mən.
Qurban olum adlarına,
Qızınıram odlarına.
İtirsək də birini biz,
Oldu doğma, oldu əziz
Bu məkanda, yerdə bizə,
Bərdə bizə, Bərdə bizə.

## ON ALTI ŞƏHİDİN ALTISI YAŞID

*Poema Qarabağ savaşında qəhrəmancasına həlak olan on iki Yeni Daşkəndli ərənimizin və qaçqın ailəsi olaraq Yeni Daşkənddə məskunlaşıb, cəbhəyə gedərək həlak olan üç igidimizin, eyni zamanda Xocalının müdafiəsində həlak olan Xocalı sakini, bir polis əməkdaşının əbədi ruhuna həsr olunmuşdur.*

*Qeyd edim ki, bu on altı şəhidin on üçü Yeni Daşkənd məzarlığında dəfn olunmuşdur. Onlardan üçü Ağdərə və Kəlbəcər döyüşlərində itkin düşdüyü üçün şəhidlik statusu verilmişdir. Ruhları şad olsun şəhidlərimizin.*

Vətəndi bu yurdun hər bir qarışı,
Vətəndi bu yurdun adi daşı da.
Bu vətən deyilən hər kiçik daşı,
Gərəkdir qorusun vətəndaşı da.

Ayırsan yaşamaz başı bədəndən,
Baş nəyə gərəkdir bədən yoxdusa?
Vətən də belədir, gərək biləsən,
Heç nədir bu millət vətən yoxdusa.

Savaşlar olubdu yüz illər öncə,
Tarixə düşübdü qurbanlarıyla.
Vaxt, zaman dəyişib, ötüb beləcə,
Vətən qorunubdu oğullarıyla.

Vətəni canından çox əziz sanıb,
Nə qədər igidlər, ərlər, ərənlər.
Əbədi, ölümsüz ömür qazanıb,
Özünü vətənə qurban edənlər.

Kiçik bir kəndidir Daşkənd yurdumun,[1]
Bu məkan olubdur dillər əzbəri.
Adını ucaldıb Milli Ordunun,
On altı şəhidi, çoxlu ərləri.

Özümə borc bilib, çox ehtiramla
Bu şəhid ərləri yad edim dedim.
Götürüb qələmi təblə, ilhamla,
Anaraq, ruhların şad edim dedim.

On altı şəhidin altısı yaşıd,
Oxumuş idilər eyni sinifdə.
Bu altı qəhrəman, bu altı şəhid,
On ili bir olmuş hər gün, hər həftə.

Atası, babası olub qəhrəman,
Qəhrəman olmaqmış onun da andı.
Drambon kəndində döyüşən zaman,[2]
İlk şəhid adını Yasif qazandı.[3]

Çiynində rabitə qurğusu ilə,
Döyüşə lap öndə gedirmiş Mehdi.
Qələbə ümidi, arzusu ilə,
Qorxu nə, ölüm nə bilmirmiş Mehdi.[4]

---

[1] Bərdə rayonunun Yeni Daşkənd kəndi.
[2] Drambon – Ağdərə rayonunda kənd. İndiki adı: Heyvalı.
[3] Yasif Fəzi oğlu Kərimov (1973-1992) – şəhid.
[4] Mehdi Əmirxan oğlu Məhərrəmov (1973-1993) – itkin, şəhid.

Yaraşıb ömrünə Rəşadət adı,[1]
Hər adam yaraşmır qoyulan ada.
Rəşadət cəbhədən aralanmadı,
Başından, çiynindən yaralansa da.

Son döyüş anları çox qanlı olub,
Ziyanın Kəlbəcər döyüşlərində.[2]
Məzarsız ruhu da o vaxtdan qalıb,
Murovun əlçatmaz zirvələrində.[3]

Səngərdən səngərə od saça-saça,
Düşmənə döyüşdə verməyib aman.
Olsa da Qulamım boyca balaca,[4]
Adına deyiblər "Milli Qəhrəman".

Orduda çoxundan ucaydı boyu,
Hey önə qaçardı hər vaxt, hər vədə.
Yenicə olmuşdu Elçinin toyu,[5]
Şəhidlik qazandı o, Ağdərədə.

Beləcə bu altı yaşıd igidlər,
Son nəfəs gəlincə vətən dedilər.
Düşmənlə döyüşdə göstərib hünər,
Canların vətənə qurban etdilər.

---

[1] Rəşadət Əli oğlu Piriyev (1973-1993) – itkin, şəhid.
[2] Ziya Elmar oğlu Quliyev (1973-1994) – itkin, şəhid.
[3] Murov dağ silsiləsi
[4] Qulam Əkbər oğlu Qədirov (1972-1994) – şəhid.
[5] Elçin Əlif oğlu Hüseynov (1973-1994) – şəhid.

İndisə söz açım səkkiz şəhiddən,
Səkkizin biriydi polis Ziyafət.
Təltif olunmuşdu Ulu öndərdən,
Medalla, ölmündən az sonra fəqət.[1]

Artilleriya rəisi vəzifəsiylə,
Səngərdə olmuşdu hər axşam, səhər.
Düşmənin gülləsi, ya mərmisiylə,
Qorxmamış bir an da kapitan Cəfər.[2]

İgidlər, ərənlər yaranır tək-tək,
Hünərlə, qeyrətlə düşürlər dilə.
Bu gün də, sabah da öyünmək gərək,
Bu yurdun ər oğlu Firudin ilə.[3]

Eldəniz hamını salıb təşvişə,[4]
Ən ağır döyüşə özün yetirib.
İlk dəfə baltayla girib döyüşə,
Önündə üç düşmən girov gətirib.

Ölümlə üz-üzə gəlib hər anda,
Neçə döyüşlərdən keçdi Məhərrəm.
Vətənin parçası olan Ağdamda,
Şəhidlik məqamın seçdi Məhərrəm.[5]

---

[1] Ziyafət Qurban oğlu Balıyev (1965-1992) – şəhid, ölümündən sonra “Hərbi xidmətlərə görə” medalı ilə təltif olunmuşdur.
[2] Cəfər İsax oğlu Cəmilov (1958-1993) – şəhid.
[3] Firudin Əli oğlu Həsənov (1969-1994) – şəhid.
[4] Eldəniz Dəmir oğlu Nazarov (1970-1993) – şəhid.
[5] Məhərrəm Ənvər oğlu Əliyev (1966-1994) – şəhid.

Oxumaq, elm almaq arzusu vardı,
Bütün arzuları vaxtsız da soldu.
Erməni terrorçu, vəhşi barbardı,
Rəsul da terrorun qurbanı oldu.[1]

O gecə qalmışdı hamı təşvişdə,
Yağılar şəhərə qəfil doldular.
Xocalı zülmündə, Rəşid döyüşdə,[2]
Ata da, ana da şəhid oldular.

Öz doğma elindən qaçqın olanda,
Könüllü getmişdi cəbhəyə onlar.
Şəhidlik qazandı vətən yolunda,
Həm Elşən,[3] həm Daşqın əmioğlular.[4]

Həvəslə başlarkən müəllimliyə,
İşğalda qalmışdı evi, ocağı.
Ələsgər yollandı lap ön cəbhəyə,[5]
Qorumaq gərəkdi yurdu, torpağı.

Beləcə bu ərlər, bax bu oğullar,
Dedilər torpağa, hər daşa vətən.
Bu gün də oyanıb deyirlər onlar,
Biz şəhid olduq ki, sən yaşa vətən!
Sən yaşa Vətən!

*15.02.2018*

---

[1] Rəsul Niftalı oğlu İlyasov (1975-1995) – metro partlayışı zamanı həlak olub
[2] Rəşid Hüseyn oğlu Hüseynov (1963-1992) – Xocalı şəhidi.
[3] Elşən Şura oğlu Əliyev (1974-1997) – şəhid, Yeni Daşkənddə məskunlaşan Ağdərəli məcburi köçkün.
[4] Daşqın Bəşir oğlu Əliyev (1976-1997) – şəhid, Yeni Daşkənddə məskunlaşan Ağdərəli məcburi köçkün.
[5] Ələsgər Fərrux oğlu Şükürov – şəhid, Yeni Daşkənddə məskunlaşan Kəlbəcərli məcburi köçkün.

# ŞEİRLƏR

# ELİMDƏ

Olsa da sifətim bir azca qara,
Əməlcə ağ olub üzüm elimdə.
Ədəblə, hörmətlə, xoşbəxtəm ki, mən,
Dolaşır söhbətim, sözüm elimdə.

Beşiyim olubdu uşaq olanda,
Ocağım olubdu sazaq olanda.
Bir addım mən ondan uzaq olanda
Qalıbdı ürəyim, gözüm elimdə.

Bir təbdə olmur ki, ana təbiət,
Gah alov yağdırır, gah soyuq zillət.
Çoxuna şaxtada verib hərarət,
Ocağım, atəşim, közüm elimdə.

Aqşinəm, cismimlə olsam da nə ki,
Özümdən ağırdı el qoyan çəki.
Saysa da el məni ağa, bəy təki,
Elimin quluyam özüm elimdə!

*10.01.2015*

## O ŞEİRİ BİR DƏ SÖYLƏ ƏRDOĞAN

*Təəssüf edirəm ki, yüzlərlə sayt və səhifələrdə bu şeirim ləhcəyə, hərfə fərq qoymadan adı bəlli olmayan (?) "Təbrizli tələbənin çağırışı" kimi yayımlanıb.*

Quzu kəsim şeir deyən dilinə,
O şeiri bir də söylə Ərdoğan!
Səs verəcək harayına qırx milyon,
Hədəfinə yaman dəyib, bax, yaman,
O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!

Bircə bəndlik şeir ilə oyanıb,
Təbriz indi ayaq üstə dayanıb.
Əsrlərlə əsarətdən usanıb,
Çalxalanır, silkələnir bax bu an,
O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!

Haqdan deyir, sevmir haqqı, düzü də,
Bir şeytandı astarı da, üzü də.
Zamanıdı, dağılacaq özü də,
Bizi bizdən ayrı salan, ayıran,
O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!

Dilindəki şər-böhtandı, yalandı,
Erməniyə mehri-ülfət salandı.
İran ki var, İran deyil, ilandı,
Bu "liana" qənim olsun o Quran,
O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!

Yox, dolmasın Araz daha lil ilə,
Axsın Araz o tay, bu tay gül ilə.
Biz ki, birik millət ilə, dil ilə,
Niyə axı ayrı qalsın bu məkan,
O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!

O tay, bu tay Araz üstə yol salaq,
Bu birliyə alqış deyək, əl çalaq.
Bəsdir daha əsarətdə alçalaq,
Alçalmışıq düz iki yüz il, zaman,
O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!

Bu ayrılıq əbədilik yad olsun,
Pişəvəri ruhu daim şad olsun,
Ünvanımız bircə ünvan, ad olsun.
Hey bir olsun Azərbaycan sonacan,
O şeiri bir də söylə Ərdoğan,
Qoy partlasın, qoy çatlasın bu İran!

*12.12.2020*

*P.S. Şeirlə bağlı sosial şəbəkələrdə yaranan problemə mətbuat orqanlarında şair-publisist Zaur Ustac aydınlıq gətirmiş, şeirin müəllifinin Aqşin Hacızadə olduğunu isbatlamışdır (redaktor).*

*Mənbə: "Bütöv Azərbaycan" qəzeti, №27 (418), 15 oktyabr 2021, səh.14*

## HAQQIN VAR, ÇIX OYNA, CƏNAB PREZİDENT

Bu Şuşa şəhrində, Cıdır düzündə,
Haqqın var, çıx oyna, Cənab Prezident!
Sən xalqın özüsən, xalq əvəzindən
Qol qaldır, çox oyna, Cənab Prezident!

Bu yerdə qan töküb çox igidlərin,
Var tarix yazanlar, var şahidlərin.
Ruhunu şad eylə sən şəhidlərin,
Düşməni yax, oyna, Cənab Prezident!

Başqa bir dəyəri vardır bu anın,
Sizdədir bu anda gözü dünyanın.
Buraxma, əlindən tut Ərdoğanın,
Əlini sıx oyna, Cənab Prezident!

Çəkinmə, nə olar, bir halay da çək,
Düşmənin görəcək, görüb öləcək!
Bütün kürsülərdə şax durduğun tək,
Şax dayan, şax oyna, Cənab Prezident!

Yox, qoyma hayqanuş, akopyan olsun,
Xankəndi bizimdir, orda "xan" olsun.
Növbəti səfərin İrəvan olsun,
O səmtə bax oyna, Cənab Prezident!
Haqqın var, çıx oyna, Cənab Prezident!

*17.06.2021*

## YAŞA PAŞAM, YAŞA ƏRDOĞAN, YAŞA

Sən bizə gərəksən canda qan təki,
Hökmünü verirsən yada xan təki,
Sən Türkü qoruyan qəhrəman təki,
Yüz il yox, min il yox, hər zaman yaşa,
Yaşa paşam, yaşa Ərdoğan, yaşa!

Sən var ol, bu dünya qoy rahat olsun,
Hər yerdə xoş dövran, xoş həyat olsun.
Sən var ol, var ol ki, narahat olsun
Sənin varlığından rus, İran, yaşa,
Yaşa paşam, yaşa Ərdoğan, yaşa!

Varlığın bizlərə ruhdu, dayaqdır,
Səninlə Türk dünyan bu gün oyaqdır.
Qardaşın İlhama arxa, dayaq dur,
Alınsın yağıdan İrəvan, yaşa,
Yaşa paşam, yaşa Ərdoğan, yaşa!

Yox bu yurdun nə ayağı, nə başı,
Bir qoruyaq bu torpağı, bu daşı.
Dalğalansın bayrağımız yanaşı
Bu Şuşadan, bu Qarabağdan, yaşa,
Yaşa paşam, yaşa Ərdoğan, yaşa!

Bilinsin ayrılmaz sirdaş olduğun,
Bir vətən, bir torpaq, bir daş olduğun.
İlhamla Ərdoğan qardaş olduğun
Şuşadan düşmənə et bəyan, yaşa,
Yaşa paşam, yaşa Ərdoğan, yaşa!

Sənədir Türklərin bu gün ərkləri,
Səndədir gümanı, xoş istəkləri.
Qovuşdur, bir eylə bütün türkləri,
Qur, yarat dünyada sən Turan, yaşa,
Yaşa paşam, yaşa Ərdoğan, yaşa!

*15.06.2021, saat: 15.05*

## YAŞA, EY ORDUMUN BAŞ KOMANDANI

Sən tarix yazaraq döndün örnəyə,
Sən sevinc yaşatdın bütün ölkəyə.
Qarabağ işğaldan qurtarsın deyə,
“Vur” dedin düşməni, verdin fərmanı,
Yaşa, ey ordumun Baş komandanı!

Əmr etdin yağıya, “işğaldan əl çək,
Yoxsa ki, əsgərin burda öləcək”.
Sən yurdun öndəri Heydər oğlutək,
Bəxş etdin xalqına şöhrəti, şanı,
Yaşa, ey ordumun Baş komandanı!

Sənin fərmanında, sənin imzanda,
Qovuşdu adına Suqovuşan da.
İndi o torpaqda, məhz o məkanda,
Coşur da fərəhdən əsgərin qanı,
Yaşa, ey ordumun Baş komandanı!

Türk oğlu türkdəndi damarda qanın,
Gözümdə şahısan indi cahanın.
Ərənlər yurdunun, Azərbaycanın,
Çökdürdün önündə Ermənistanı,
Yaşa, ey ordumun Baş komandanı!

Özündən razıydı çox vaxt, çox vədə,
Şuşadan bizlərə edirdi hədə.
Həm masa dalında, həm də cəbhədə,
Məhv etdin, susdurdun səy Paşinyanı,
Yaşa, ey ordumun Baş komandanı!

Sevildin, seçildin qətiyyətinlə,
Susdurdun çoxunu siyasətinlə.
Bəşəri sevginlə, xoş niyyətinlə
Sevdirdin dünyaya Azərbaycanı,
Yaşa, ey ordumun Baş komandanı!

Zəfərə köklənib indi yurdumuz,
Verməyir düşmənə aman ordumuz.
Gözləməz bir daha zaman ordumuz,
Tezliklə alacaq gözəl Şuşanı,
Yaşa, ey ordumun Baş komandanı!

Hər addan ucadır vətənin adı,
Əlbətdə şirindir həm də ki, dadı.
Birləşdir Zəngilan və Ordubadı,
Ayrıca görməyək biz Naxçıvanı,
Yaşa, ey ordumun Baş komandanı!

*06.10.2020*

## BİRLƏŞ AZƏRBAYCANIM

Bəsdir parçalandığın,
Bəsdir böləndün, yetər.
Dərd ki olmaz bu qədər!
O tay, bu tay qoy olsun,
Hər mahal, həm hər şəhər,
Bir ürəyim, bir canım,
Birləş Azərbaycanım!

Neçə yerə bölüblər,
Neçə yerə gör səni,
Eyləyiblər kor səni.
Yağı tutan zamandan
Borçalını, Göyçəni,
İtib şöhrətim, şanım,
Birləş Azərbaycanım!

Türk yurdusan, başını
Əymə farsa, rusa sən,
Durma susa-susa sən.
Qalx sahib ol yenə də
Qarabağa, Qarsa sən.
Gərəkdirsə yolunda
Hazıram verim canım,
Birləş Azərbaycanım!

Qüdrətli ol, yurduma
Hücum çəkməsin yağı,
Bir də görməyək dağı.
Üçrəng bayraq altında

Olsun vətən torpağı,
Olsun Dərbənd, Şirvanım,
Birləş Azərbaycanım!
Birləş Azərbaycanım!

*25.09.2019*

## ZƏFƏRİMİZ MÜBARƏKDİR

Düşmən ilə bu savaşda,
Zəfərimiz mübarəkdir.
Otuz ildən sonra yurda,
Səfərimiz mübarəkdir.

Tarix oldu “qaçdığımız”,
Yurddan ötrü acdığımız!
Qarabağda açdığımız
Səhərimiz mübarəkdir.

Bəy, xanları kəhər atlı,
Dil-dodaqda şəkər dadlı,
Gözəl, qədim Şuşa adlı
Şəhərimiz mübarəkdir.

Üzümüzə güldü zaman,
Tam qurtulduq bir işğaldan.
Bu sevincdən bizi boğan
Qəhərimiz mübarəkdir!
Zəfərimiz mübarəkdir!

*11.11.2020*

# TEZ GƏL TÜRKÜM, TEZ GƏL TÜRKÜM

Bura sənin öz yurdundur,
Tez gəl Türküm, tez gəl Türküm!
Gözləyirik sevinc ilə
Biz, gəl Türküm, biz, gəl Türküm!

Dönmə sola, dönmə sağa,
Salma yolun çox uzağa.
Naxçıvandan Qarabağa
Düz gəl Türküm, düz gəl Türküm!

Haqqın vardır yola burdan,
Qur dağılmaz qala burdan.
Mehmetini Zəngəzurdan
Düz gəl Türküm, düz gəl Türküm!

Qaldır göyə “göy atını”,
Sər üstümə qanadını.
Avropanı, həm Batını
Süz gəl Türküm, süz gəl Türküm!

Ürəyində nisgil, qübar,
Haqsızlıqdan bezənlər var.
Harda Türkü əzənlər var,
Əz gəl Türküm, əz gəl Türküm!
Tez gəl Türküm, tez gəl Türküm!

*30.11.2020*

# ƏZƏLİNDƏN TÜRK OĞLUYAM

Kimsə kimdi özü bilər,
Mən Azəri-Türk soyluyam.
Turan adlı bir dünyanın
Oğuz elli bir qoluyam.

Varlığıma od verməyin,
Saxta, özgə ad verməyin.
Öz adımdı, siz Türk deyin,
Əzəlindən Türk oğluyam.

Türkdü atam, Türkdü anam,
Həm şairəm, həm ozanam.
Meydanlarda həm Qazanam,
Həm Koroğlu, həm Boluyam.

Yaşım ötüb milyon ili,
Yaranışla çox ilgili.
Dilim Türkün şirin dili,
Sözü sirlə çox doluyam.

Bilməyənlər olsun halı,
Mənəm Yunis,[1] mənəm Alı.[2]
Həm Göyçəli, həm Borçalı,
Həm Sarıköy, həm Xoyluyam.

---

[1] Yunis Əmrə
[2] Aşıq Alı

Viran olsun küllü İran,
Rusla birgə verib fərman.
Türkmənçayda parçalanan
Bir millətin cüt yoluyam.

Çanaqqala zəfər yerim,
Xocalıdı kədər yerim.
Şəhid olub çoxlu ərim,
Həm yaslıyam, həm toyluyam,
Əzəlindən Türk oğluyam!

## SUSMA, OYAN GÜNEYİM

Səni unudammaram,
Sən yarımsan, paramsan.
Səni halal etmərik,
Sən İrana haramsan.
İki yüz il sağalmaz
Ən ağrılı yaramsan.
Bu ağrıdan, acıdan
Üzür məni göynəyim,
Susma, oyan Güneyim!

Müsəlmana müsəlman
Belə sərt olmaz, Allah!
“Mən ağayam, sən qul ol” –
Belə şərt olmaz, Allah!
Qırx milyonun dili yox,
Belə dərd olmaz Allah!
“Məhv ol, dağıl ey İran”,
– Bəs deməyim, nə deyim?
Susma, oyan Güneyim!

Öz dilində dərs alır
Fars içində erməni.
Kürsülərdə yer alır
Hər seçimdə erməni.
Sən susduqca bu farslar
Çıxıb əzirlər səni.
Əzilməyə bu qədər
Yox taqətim, yox heyim,
Susma, oyan Güneyim!

Kökü birdi, adı bir,
İkisi bir ocaqdı.
Ayrı yansa da, bir gün
Odu qovuşacaqdı.
"Azərbaycan oyaqdır,
Dilin qoruyacaqdır!"
– Nə möhtəşəm şüardır,
Nə gözəldir bu deyim,
Susma, oyan Güneyim!

Ay batarkən gün doğur,
Nur yaranır hər yanda.
Çox sirlidi bu dünya,
Çox şey olur bir anda.
Vaxtı çatıb, az qalıb,
Dağılacaq İran da!
Cəhd eyləyir səninlə
Qovuşmağa quzeyim,
Susma, oyan Güneyim!
Vaxtdır, oyan Güneyim!

*10.05.2021*

## AZƏRBAYCAN QADINI

***Vətən müharibəsində qazandığımız qələbədə Azərbaycan qadınlarının xüsusi yeri var. Eşq olsun Azərbaycan qadınına!***

Biri oğul göndərdi,
Biri qardaş göndərdi.
Biri igid bir nəvə,
Biri sirdaş göndərdi.
Vətən qorunsun deyə,
Ər silahdaş göndərdi.
Özünə doğma bildi
Cəbhədəki yadını,
Azərbaycan qadını!

On gün deyil dünyaya,
Körpəsinin gəlməsi.
Toy-bayram olmalıydı,
Atasının görməsi.
Fəqət bu gün dayanıb,
Qucağında körpəsi.
Boğdu, içində boğdu
O acı fəryadını,
Azərbaycan qadını!

Oxşayaraq tabutu,
Sənsən vüqarım – dedi.
Ölənəcən pozulmaz
Sənə ilqarım – dedi.
Yarana qurban olum,

Yaralı yarım – dedi.
Öpüb üçrəng tabutu,
Duydu şəhid dadını,
Azərbaycan qadını!

Yox, əymədi başını,
O dərd ilə yarışdı.
Vətən sağ olsun – dedi,
Bu dərd ilə barışdı.
Biri şəhid ərinin,
Biri şəhid oğlunun,
Tabutundan yapışdı.
Çiynini tay eylədi,
Yaşa şəhidim, dedi.
Yazdı yeni tarixə,
Yazdı məğrur adını,
Azərbaycan qadını!

*22.11.2020*

## EY İLHAM HEYDƏR OĞLU

Sən dahisən, sən ərsən,
Sən hünərsən, zəfərsən.
Zülmət dalınca doğan
İşıqlı bir səhərsən.
Azərbaycan xalqının
İgid oğlu, ər oğlu,
Ey İlham Heydər oğlu!

Düşmən burda qudurdu,
Qurdun güclü bir ordu.
Qətiyyətin, əzminlə
Azad etdin bu yurdu.
Oldun ulu millətin
Yenilməyən nər oğlu,
Ey İlham Heydər oğlu!

Heyran olmuşuq sənə,
Diz çökdürdün düşmənə.
Qarabağdan çıxmağa
Qol çəkdirdin düşmənə.
Qalib etdin yurdunu,
Yurdunun Öndər oğlu,
Ey İlham Heydər oğlu!

Məhv eylədin Artsağı,
O Paşinyan sarsağı.
Azad etdin işğaldan
Sən müqəddəs torpağı.
Əhsən söyləyir sənə
Bu vətənin hər oğlu,
Ey İlham Heydər oğlu!

Sevinc ilə, gülüşlə,
Doğma yurdla görüşlə,
Tam otuz il sonradan
Qarabağa dönüşlə,
Oldun xalqın gözündə
Xalqın müzəffər oğlu,
Ey İlham Heydər oğlu!

*12.11.2020*

## ÜÇRƏNGLİ BAYRAĞIMIZ SANCILIBDI ŞUŞAYA

Bayram ayı deyərik
Noyabra, bu aya.
Bu ay bizi tanıtdı,
Qalib təki dünyaya.

Qala, səngər qurmayır,
Qaçır düşmən, durmayır.
Sevincimiz sığmayır
Yerə, göyə, səmaya.

Alındı torpağımız,
Gözəl Qarabağımız.
Üçrəngli bayrağımız
Sancılıbdı Şuşaya!

*06.11.2020*

## BİRLƏŞİN, TURAN DEYİN

Bu uğurla, zəfərlə
Yaşa Komandan, yaşa!
İrəli get Türkümlə,
Ərdoğanla dur qoşa.

Sevir sizi bu vətən,
Olun canbir, olun tən.
Bir də gəlməsin düşmən
Bu torpağa, bu daşa.

Hər zaman can, can deyin,
Düşmənə “yan, yan” deyin.
Birləşin, Turan deyin,
Dünyaya olun Paşa!

*20.10.2020*

## QARABAĞ BİZİMDİ, AZƏRBAYCANDI

Tarixi qədimdi, adı uludu,
Dünənin bu günə gələn yoludu.
Azıx mağarası sirlə doludu,
Dünyanın özütək ulu xalqıma
Vüqardı, şərəfdi, şöhrətdi, şandı,
Qarabağ bizimdi, Azərbaycandı!

Bu məkan böyüdüb igid, ər məni,
Qoru deyir torpaq məni, yer məni.
Nökər gəlib bir vaxt bura erməni,
Nə qədər cəhd edə, ayıra bilməz.
Bir candan ayrılmaz ürəkdi, qandı,
Qarabağ bizimdi, Azərbaycandı!

Vaxt olub qalıbdı çətində, darda,
Yenə də var olub ərənlər orda.
Ölümlə susubdu Şah Qacar burda,
Ağalıq edəmməz nökər erməni,
Sahibi sultandı, ağadı, xandı,
Qarabağ bizimdi, Azərbaycandı!

Otuz il vaxt ötüb işğal ilindən,
Otuz il ayrıdı öz Türk elindən.
Otuz il içində bu yurd himindən,
Gah rusun, gah farsın himayəsiylə
Talanıb, sökülüb, tamam virandı,
Qarabağ bizimdi, Azərbaycandı!

Qələbə vaxtıdır, çatıbdır zaman,
Bax belə söyləyir İlham komandan.
"İt kimi qovacıq onları burdan" –
Qoy duysun bu dünya, eşitsin hamı,
Ora dönüşümüz artıq bir andı,
Qarabağ bizimdi, Azərbaycandı!

*09.10.2020*

## BU DÜNYA SEVMƏYİR TÜRK OLANLARI

Türksoylu olmaqdan heç usanmayın,
Bu kökdən, bu soydan aralanmayın,
Bir olun, min yerə paralanmayın,
Birlikdə qurun siz istehkamları,
Ayılın, birləşin türk adamları,
Bu dünya sevməyir türk olanları!

Haqsızlıq göründə çəkibdir nərə,
Türk sahib olubdur hər vaxt zəfərə.
Soyqırım adıyla bu gün türklərə,
Tükənmir hayların şər, böhtanları,
Ayılın, birləşin türk adamları,
Bu dünya sevməyir türk olanları!

"Obasını dağıt" deyir, "yıx" deyir,
"Öldür" deyir, "yandır" deyir, "yax" deyir,
Qanunu, maddəsi "türkə yox" deyir,
Bağlayır yolları, hər imkanları,
Ayılın, birləşin türk adamları,
Bu dünya sevməyir türk olanları!

ATƏT-i belədir, NATO-su belə,
Almanı, o farsı, həm rusu belə.
Pusquda dayanıb çoxusu hələ,
Gözləyir türk üçün bəd zamanları,
Ayılın, birləşin türk adamları,
Bu dünya sevməyir türk olanları!

Hay salın, bu haya Göytürküm gəlsin,[1]
Eldəniz Atabəy – bəy türküm gəlsin,[2]
Harada vardırsa, qoy türküm gəlsin.
Çağırın türk olan hər bir yanları,
Ayılın, birləşin türk adamları,
Bu dünya sevməyir türk olanları!

Arxamız bir Allah, həm Quran olsun,
Əlimiz, qolumuz bir vuran olsun,
Adımız bir olsun, qoy TURAN olsun.[3]
Qoruyaq türk olan müsəlmanları,
Ayılın, birləşin türk adamları,
Bu dünya sevməyir türk olanları!

*18.09.2017*

[1] Göytürk – fasilələrlə Mərkəzi Asiya və Çinin bir hissəsinə hökmranlıq etmiş türk dövləti.
[2] Eldəniz Atabəy – XII əsrdə Azərbaycan Atabəylərinin başçısı.
[3] TURAN – Geniş mənada türklərin yaşadığı bütün əraziləri bildirir.

## DÖYÜŞLƏRDƏ UDMALIYIQ BİZ DÖYÜŞÜ

Yorulmuşuq, usanmışıq dinləməkdən,
Yetər daha kürsüdəki söz döyüşü!
Qələbəyə, zəfərlərə çatmaq üçün
Gecdi sabah, başlayağın tez döyüşü!

Sülh gətirməz, yad gətirər xəta bizə,
Qoya bilməz qarşımızda veto bizə.
Gərək deyil ATƏT bizə, NATO bizə,
Ey millətim, meydanlarda çöz döyüşü!

Ömrümüzü dərd etməsin yurd – yuvasız,
Yurdumuzu yurd etməsin yurd – yuvasız.
Ərlərimi pərt etməsin yurd – yuvasız,
Bu ərlərim görüb qanlı yüz döyüşü!

Var cürətin, cəsarətin, həm də gücün,
Var qüdrətin düşmənini əzmək üçün,
Bir millətək başı uca gəzmək üçün
Döyüşlərdə udmalıyıq biz döyüşü!

Bəsdir daha gözlədiyin, qalx millətim,
Yetər daha bu həsrətin, bu zillətin.
Silah götür, səngərində dayan mətin,
Döyüş, vuruş, qələbəylə üz döyüşü!
Yetər daha kürsüdəki söz döyüşü!

## QARTALA BƏNZƏYƏN TƏZƏ XƏRİTƏ

Çoxları göstərib son xəritədə,
Qartala bənzədir Azərbaycanı.
Tərif də vururlar, guya hər vədə,
Heyrətə salmışıq bütün dünyanı.

Deyirlər qartalın başıdır Bakı,
Cənubu, şimalı qanadlarıdır.
Eləsə baxın siz, qanadlar axı,
İllərdi kəslib, çox yaralıdır.

Sağ qanad yaranı İrandan alıb,
Ağrısın Təbrizim, Zəncanım çəkir.
Sol qanad yaranı İvandan alıb,[1]
Əzabın Dərbəndim, dörd yanım çəkir.

Arxadan erməni, gürcü zopası.
Xaincə yıxıbdı Azərbaycanı.
Alınıb Borçalı, Qazax qəzası,
O güllü, o göycək Göyçəmiz hanı?

Qarabağ cənnətdi, yoxdu əvəzi,
Adını çəkəndə yannam hər dəfə.
Vermişik Zəngəzur, Dərələyəzi,
Naxçıvan düşübdü indi hədəfə.

[1] İvan – Rusiya imperiyası nəzərdə tutulur.

Qaytar bu yurdları qoy öz yerinə,
Sonra bax yurduna, necə vardısa.
Qartala bənzəyən təzə xəritə
Köhnə xəritədən qısadır, qısa.

Cənubu, şimalı birləşsə burda,
Görərsən Vətəni olduğu kimi.
Qartal yox, baxarsan onda bu yurda,
Dünyanı tutacaq bir ORDU kimi.

*27.10.2015*

## EY MEDAL ALANLAR, MEDAL SATANLAR

Ya ölüm, ya da ki, qalım yeridir,
Tanımaz səngəri bil hər döyüşçü.
Sanmayın burada hamı igiddir,
Var qorxaq döyüşçü, var ər döyüşçü.

Bu torpaq uğrunda keçibdi candan,
Tarixə dönüblər əziz şəhidlər.
Hələ alınmayıb nə qisas, nə qan,
Ötsə də o vaxtdan on neçə illər.

Nə adı çəkilir, nə bəhsi yoxdu,
Kölgədə qalıbdı ər döyüşçülər.
Cibləri boşsa da, gözləri toxdu,
Nə umacaq umar, nə bir var güdər.

Biganə qalmayıb bircə an belə,
Vətənin hayına yetən olubdu.
Var elə oğullar, hər zaman elə,
Arzusu, amalı Vətən olubdu.

Heyf ki, sırada vardır eləsi,
Nə döyüş görübdü, nə də ki, səngər.
Di gəl ki, götürüb dünyanı səsi,
Oğulsan döz buna, səbr elə sən gəl!

Yaltaqlıq eyləyib, başmaq cütləyib,
Kimlərə görəsə fəda olan var.
Əl çalıb, alçağı tərif eyləyib,
“Fədai” medalı alırlar onlar.

Od-ocaq qalayıb, kartof soyublar,
“Naryad”dan o yana, önə getməyib.
Ehh, elə medallı “qazilər” də var,
Cəbhədə bir dəfə döyüş etməyib.

Vərdişə dönübdü son vaxtlar bu hal,
Çoxalır gərəksiz, yersiz təltiflər.
Paxıllıq etmirəm, qoy alsın medal,
Medala layiqlə döyüşən ərlər.

Nə sevər, nə də ki bir an düşünər,
Bu vətən yolunda ölüb-itəni.
Medalı pul ilə alıb-verənlər,
İkicə qəpiyə satar vətəni!

Nahaqqa yox deyin, haqqı atmayın,
Ucalmaz heç zaman haqqı atanlar.
Siz Allah, medalı pula satmayın,
Ey medal alanlar, medal satanlar!

*28.06.2018*

## YAZAMMADIM XOCALININ DƏRDİNİ

Yazammadım Xocalının acısın,
Xocalıdan yazmaq mənə ar gəldi!
Xocalıdan əsirlər var deməyə,
Heç bilmədim dilim necə var gəldi!

Yazammadım Xocalının dərdini,
Xocalıdan yazmaq ilə kar aşmır.
Almırıqsa intiqamın, qisasın,
Xocalıdan yazmaq bizə yaraşmır!

Yüz yazılan, yüz deyilən nə varsa,
Orda ölən bir körpəyə tay olmaz.
Sözdə igid, dildə qoçaq olmaqla,
Əsirlərə, girovlara hay olmaz.

Yazammadım Xocalının dərdini,
Xocalının dərdi sözə sığışmaz.
Xocalıda ölənlərin ruhları
Perik düşüb, bir də yurda yığışmaz!

Yazammadım Xocalının dərdini,
Xocalının dərdi dərdin şahıdır.
Bəlkə elə bu dünyanın qəzası,
Orda nahaq ölənlərin ahıdır!

Aman Allah, nə qansızmış bu yağı,
Xocalıda nələr oldu, gör nələr.
Hələ, hələ, bu dünyaya gələməmiş,
Bətndəcə öldürüldü körpələr!

Bu dərd ki var, ömür boyu qalacaq,
Canımızda ağrı təki əbədi.
Nə qədər ki, almamışıq qisası,
Bu dərd bizim adımıza ləkədi!

*26.02.2016*

## QARA YANVAR

Otuz yaşlı bu matəmin,
Adı qalıb "Qara Yanvar!"
Otuz ildi bu matəmdə,
Şəhid deyər, millət ağlar!

Otuz ildi yaddaşdadı,
O gecənin güllə səsi.
Tanklar əzən, mərmi deşən,
Şəhidlərin hər tikəsi.

Otuz ildi silinməyir
Bakıdakı qan izləri.
Şəhid qanı bənzədirdi
O gecədə dənizləri!

Otuz ildi örnək olub
Fərizənin sevgisi də.
Şəhid oldu bətnindəki
Doğulmayan körpəsi də!

Sanki şəhid qanı ilə
Ləçəkləri al qan olub.
Otuz ildi qərənfillər
Şəhidlərə yorğan olub.

Duyan qəlbə, ürəklərə
Bir yanğıdı bəmi, pəsi.
Otuz ildi ağı deyir
Şəhidlərə bir ney səsi!

Öz sonuna rəvac verdi,
Qan tökməyə uya-uya.
Otuz ildi məhv olubdu
O qan tökən imperiya!

Otuz ildi bu millətə
Yaşadırlar rahatlığı.
Otuz ildi bu şəhidlər,
Bəxş eyləyib AZADLIĞI!

*16.01.2020*

## GÖYÇƏ DEYİRDİ

***Şəhid Mehdi Əmirxan oğlu Məhərrəmova ithaf olunur***

Göyçədə doğulub böyümüşdü o,
Dili də, ruhu da Göyçə deyirdi.
Bütün varlığıyla can demişdi o,
Göyçəni yer ilə göycə sevirdi.

Göyçədən əlləri üzülən andan,
Qarabağ olmuşdu ikinci yurdu.
Qorxmadı qanından, əziz canından,
Hər zaman cəbhədə ən öndə durdu.

Bir deyil, beş deyil, çox dəfələrlə,
Döyüşə girmişdi o Ağdərədə.
Savaşıb, vuruşub sonsuz hünərlə,
Zəfəri qeyd edib onlar çox vədə.

Çox ağır döyüşlər getdiyi zaman,
Düşmənin ordusu qurubmuş fəndi.
Salıb mühasirəyə öndən, arxadan,
Düşmənə keçibmiş Çıldıran kəndi.

Döyüşə-döyüşə neçə qəhrəman,
Son damla qanadək durmadı geri.
Düşmənin tutduğu qanlı Çıldıran,
Oldu da Mehdinin son döyüş yeri.

*16.02.2018*

## EL SƏNİ, CƏFƏR

***Şəhid Cəfər Cəmilovun***
***25 illik əbədi ayrılığı münasibətilə***

Göylərə çəkilmiş ruhunla bizdən,
Alır iyrimi beş il səni, Cəfər!
O qədər əzizdin, elə o vaxtdan
Unutmur bu ürək, dil səni, Cəfər.

İnciklik bilmədik biz aramızda,
Hey səni duyuruq öz aramızda!
Dostluqdan düşəndə söz aramızda,
Birinci düşünnük bil səni, Cəfər.

"Vətəndən müqəddəs deyil ki bu can" –
Deyərək canını verdin də qurban.
Bir şəhid oğlu tək hər gün, hər zaman,
Yaşadır qəlbində el səni, Cəfər.
Unutmur bu ürək, dil səni, Cəfər.

*21.05.2018*

## YAŞA ŞƏHİDİM

***Vətən müharibəsi şəhidi Səfayət Hümbətova***

Keçdiyin şərəfli döyüş yolunla,
Yaşa tarixlərdə, yaşa şəhidim!
Bu yurdu düşməndən azad eyləyib,
Ucalıq gətirdiz başa, şəhidim.

Şərəfdi bu elə şöhrətin, şanın,
Əzizi olmusan elin, obanın.
Son nəfəs gəlincə axıbdı qanın,
Bu doğma torpağa, daşa şəhidim.

Dağılan bu vətən tikiləcəkdir,
Hər yerdə gül-çiçək əkiləcəkdir,
Hər zaman anılıb, çəkiləcəkdir
Adın Vətən ilə qoşa, şəhidim,
Yaşa tarixlərdə, yaşa şəhidim.

*29.09.2020*

## VƏDƏSİZ

Nə sirdir, İlahi yaratdığını
Talayır, dağıdır, çapır vədəsiz.
Tor qurur insanın ömür yoluna,
Ölüm kəməndini atır vədəsiz.

Budur məzarıstan, budur məzarlar,
Tarixdi bu şəhid, igid oğullar.
Bir kam almamışdı dünyadan bunlar,
Torpağın qatına batır vədəsiz.

Ziyafət Yasiflə düşünür burda,
Ziyanın məzarı hardadı, harda?
Rəşadət Mehdiylə qalıbdı darda,
Zaman qollarını çatır vədəsiz.

Firudin Qulamla bax, qoşa durub,
Eldəniz Elçinlə baş-başa durub,
Cəfər əcəl ilə yarışa durub,
Nakamdı, torpaqda yatır vədəsiz.

Məhərrəm olubdu dillər əzbəri,
Nə məsumdu bu ərlərin nəzəri.
Solubdu Rəsulun qönçə gülləri,
Ölüm yaxşıları tapır vədəsiz.

*1995*

## APREL DÖYÜŞLƏRİNDƏ BİR HƏRBİ HİSSƏDƏN OLAN YEDDİ ŞƏHİDİMİZİN ƏZİZ XATİRƏSİNƏ

Silahlı ordunun döyüş yolunda,
Şanlı bir tarixdir Aprel döyüşü.
Düşmənlə savaşda, zəfər uğrunda,
Son deyil, bir ilkdir Aprel döyüşü.

Bu ağır döyüşdə torpaq naminə,
Onlarla ərlərin axıb qanları.
Oturub bir axşam, qürurla yenə,
Çalışdım yad edim qəhrəmanları.

Buyurun a dostlar, dinləyin ki, mən,
Söz açım sizlərə yeddi şəhiddən.
Düşməni səngərdə tutub öldürən,
Bir hərbi hissədən, yeddi igiddən.

Qəhrəman yurdudur Şəmkir, Şiştəpə,
Öyünür şəhidin doğması, yadı.
Bir qızıl xətt ilə düşüb tarixə,
Polkovnik Yusifov Vüqarın adı.[1]

Kəşfiyyat zamanı tutaraq girov,
"Murov qartalı"tək tanınmışdı da.
Polkovnik-leytenant Raquf Orucov,[2]
Ulu öndərindən ad almışdı da.[3]

---

[1] Vüqar Nurəddin oğlu Yusifov (1976-2016) – polkovnik, ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.
[2] Raquf Orucov (1972-2016) – polkovnik-leytenant, ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.
[3] Ulu öndər – Azərbaycanın ümummilli lideri Heydər Əliyev.

Deyildi tək elə bizlərə tanış,
Əzizdi həm də ki, Türklərə bu ad.
Süleyman Dəmirəldən mükafat almış,[1]
O, Milli Qəhrəman Mirzəyev Murad.[2]

Leytenant rütbəli Şirinov Sahil,[3]
Şəhidlik qazandı subaykən hələ.
Adını çəkəndə tək bir el deyil,
Ehtiram eyləyir bütün Qəbələ.

Əsgərov Nurlandır qəhrəman gizir,[4]
Xidmətdə fərqlənib olmuş medallı.
Qəlblərdə yaşayır, dillərdə gəzir,
Adıyla fəxr edir cəmi Masallı.

Vətəndi hər zaman ürəyindəki,
Verdi o vətənə canını qurban.
Düşdü tarixlərə mərd igid təki,
Üzündən nur yağan Zərdablı Nurlan.[5]

---

[1] Süleyman Dəmirəl – Türkiyə prezidenti (1993-2000)
[2] Murad Mirzəyev (1976-2016) – polkovnik-leytenant, Azərbaycanın Milli Qəhrəmanı.
[3] Sahil Həsrət oğlu Şirinov (1992-2016) – leytenant, ölümündən sonra III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilib.
[4] Nurlan Bayram oğlu Əsgərov (1995-2016) – gizir, ölümündən sonra III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilib.
[5] Nurlan Rasim oğlu Abdullazadə (1994-2016) – gizir, ölümündən sonra III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilib.

Çox ağır sınaqdan keçib Məhəbbət,[1]
Xüsusi təlim də almışdı Çində.[2]
Varıydı canında, qanında qeyrət,
Ölərkən qumbara tutmuş əlində.

Şərəflə yetirib ömrünü sona,
Yenilməz oldular xalq ürəyində.
Bu şəhid ərlərin can bahasına,
Bir uğur qazandıq Talış kəndində.[3]

Bu millət, bu dünya nə qədər ki var,
Sevərək yurdunu qoruyacaqdır.
Vətənin yolunda şəhid oğullar
Dünyada əbədi yaşayacaqdır!

*22.01.2018*

[1] Məhəbbət Zaman oğlu Mirzəyev (1994-2016) – hərbi qulluqçu, ölümündən sonra III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilib.
[2] Çin Xalq Respublikası
[3] Talış kəndi – Cəbhə bölgəsi olan Tərtər rayonunda kənd.

## AQİL CAVANŞİR OĞLU ƏLİYEVƏ

Olumdan ölümə qırx yeddi illik,
Bir ömür yaşadın, ər ömrü, Aqil!
Tay tuta bilmərik, yaza bilmərik,
Biz sənin ömrünə hər ömrü, Aqil!

Cavabsız qalmışam hələ seçimdə,
Sən bəşər əhliydin, yoxsa mələkdin?
Mənim tanıdığım paklar içində,
Biri də sən idin, bəlkə də təkdin.

Sən amal-əməldə, həm əqidədə,
Safıydın, düzüydün, biriydin elə.
Özündən böyüklər olan yerdə də,
Böyüklər gözündə piriydin elə.

Hardasa, nə vaxtsa pozulsa bir iş,
O işin həllinə olardın adil.
Sənə ad verənlər düz veriblərmiş,
Adın da Aqildi, özün də aqil.

Halaldı qazancın, hər işin-gücün,
Bu dünya malında gözün yoxuydu.
Əlacsız olana əl tutmaq üçün
Ürəyin böyükdü, səxan çoxuydu.

Həsəd apardım sənə sağlıqda,
Olsa da hörmətim, eldə öz adım.
Oxşamaq istərdim sənə saflıqda,
Nə qədər çalışdım, mən bacarmadım.

Hamıya bəlliydi ər qoçaqlığın,
Qeyrətin, cürətin vardı qanında.
Qoyuldu məzara sipər olduğun,
Vətənə atılan güllə canında.

Deyərdin, "əgər ki, yoxdusa izin,
Demək ki, varlığın torpağa yükdür".
Uyu bu torpaqda, uyu əzizim,
Bu torpaq üstündə haqqın böyükdür.

Düşünüb anaraq hey yana-yana,
Yoxluğun könlümdə bir iz salacaq.
Hər dəfə gələndə məzarıstana,
Məzarın bir əziz yerim olacaq!

*08.06.2020*

## MİN DOQQUZ YÜZ DOXSANIN İYRİMİ YANVAR GÜNÜ

Ağır sınaqdan keçib hər vaxt yolu xalqımın,
Çox olubdu ərləri dəli-dolu, xalqımın,
Təkcə matəm günü yox, həm də ulu xalqımın
Oldu şərəf, şan günü, qeyrət günü, ar günü,
Min doqquz yüz doxsanın iyrimi yanvar günü!

Azadlığın yolunda axmalıydı bu qanım,
Hamı bir arzudaydı, "ya ölməli, ya qalım"!
Bu millətə yetmiş il hakim olan o, zalım,
Böyük imperiyanın oldu o gün xar günü,
Min doqquz yüz doxsanın iyrimi yanvar günü!

"Ruhum yaşayar yəqin, qurban olsun bədənim",
Dedi, – "təki yaşasın azad yurdum, vətənim".
Şəhid oldu o gecə yüz qırx yeddi ərənim,
Dünyanın bu zülümə o kor günü, kar günü,
Min doqquz yüz doxsanın iyrimi yanvar günü!

Şəhidlərin matəmi milyon qəlbi dağladı,
Təbriz, Dərbənd ah çəkib, Türkiyə yas bağladı,
Bütün millət birləşib, bu dərdi bir ağladı
O çovğunlu, şaxtalı, o qış günü, qar günü,
Min doqquz yüz doxsanın iyrimi yanvar günü!

Xiyabanın önündə qoşa məzar qazıldı,
Oldu məzar məzara bir vəfadar, qazıldı.
Bu cahan təqvimində bir tarix də yazıldı,
İlham-Fərizə adlı oldu "aşiq-yar günü",
Min doqquz yüz doxsanın iyrimi yanvar günü!

Dəyişəcək fəsillər, ötəcəkdir vaxt, zaman,
Alınacaq qisası, qalmayacaq yerdə qan!
Gələcək nəsillərə çatdırarıq biz hər an,
Azərbaycan yaşayan o gecəni, dar günü,
Min doqquz yüz doxsanın iyrimi yanvar günü!

*14.01.2018*

## SƏNİN İLƏ

***Polkovnik-leytenant Çingiz İsmayılovun doğum gününə***

Ad gününü təbrik üçün gör neçə,
Uzanır görüşə əl sənin ilə.
Baxdıqca şərəfli ömür yoluna,
Öyünür komandir el sənin ilə.

Havası da ölüm qoxan bölgədə,
Öndə durdun əsgərinlə hər vədə.
Döyüşlərdə, səngərlərdə, cəbhədə,
Keçirdik üç qanlı il sənin ilə.

Nə danım olmusan darda gərəyim,
Sağlıqdı sən üçün ən xoş diləyim,
Necə döyünübsə əzəl ürəyim,
Bu gün də döyünür bil sənin ilə.

Nə dostam, nə doğma hər yetən üçün,
Canımı verərəm bil ki, sən üçün,
Silaha sarıllam bu vətən üçün,
Əmr etsən, desən ki gəl sənin ilə.

## BAŞ LEYTENANTIM

*Bu gün Cəbrayıl cəbhəsində döyüşlərin iştirakçısı olan, əmioğlu, gözəl qələm əhli, şair Əli Məhərrəmovun sabahkı tarix üçün növbəti ad günüdür. 45 yaşını cəbhədə qeyd edən komandirimizə, baş leytenantımıza əsgərləri ilə bərabər can sağlığı, döyüş uğurları və tezliklə Qarabağda qələbəni qeyd etmələrini arzu edirik.*[1]

Nə gözəl yaraşır əyninə mundir,
Fərəhim, qürurum, baş leytenantım!
Bu vətən yolunda zəfər naminə,
Olaydım əsgərin kaş, leytenantım!

Vətənə dar gündə olmasaq kömək,
Vətəndaş adını unudaq gərək.
Bu yurdda bizlərə vətən oğlu tək,
Əzizdi hər kiçik daş, leytenantım!

Hər döyüş öncəsi sən səcdə elə,
Uca yaradandan xoş dilək dilə.
Avtomat sinəndə sən zəfər ilə,
Səngərdən səngərə aş leytenantım!

Gün doğsun, gül açsın vətən dağları,
Ərisin ruhumun bu buzu, qarı.
Payızda yaşasın xalqım baharı,
Gəlməsin yurduma qış leytenantım!

*29.10.2020*

---

[1] Vətən müharibəsi iştirakçısı, baş leytenant Əli Məhərrəmov qələbədən sonra "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur (redaktor).

## ELOĞLU

***I qrup Qarabağ müharibəsi əlili, şəhid qardaşı, əziz dostumuz Rizvan Qasımovun 50 illik yubileyinə***

Təbiətin bu səfalı çağında,
Mübarəkdi əlli yaşın eloğlu.
Təbriklər söyləyir sənin şəninə,
Yüzlər ilə dost-sirdaşın eloğlu.

Gəncliyində çəkilmədin geriyə,
Silahlandın vətən deyə, el deyə,
Hazır idin can-başını verməyə,
Uca olsun hər an başın eloğlu.

Nə fikirləş əziz dostum, nə dərd çək,
Mərd olmusan, ətrafına yüz mərd çək.
Xoşbəxtsən ki, vardır sənin Qulamtək,
Şəhid olan ər qardaşın eloğlu.

*10.05.2018*

## YAŞA, AY ANA

***Anam Nuriyyə müəlliməyə***

Gözəl tanımıram bu yer üzündə,
Olsun gözəllikdə anamdan gözəl.
Loğman da görmədim ola şəfalı,
Əlləri anamtək loğmandan gözəl.

Bir azca canımda ağrı olanda,
Tez gəlib halıma yanan olubdu.
"Nə olub ay bala, qurbanın olum?"
Kəlməsi dərdimə dərman olubdu.

Nə qədər aradım, duymadım yenə,
Anamın mehrini heç bir kimsədə.
Ən həzin mahnıdan xoş gəlib mənə,
Anamın dilində layla səsi də.

Göydəki günəşdir gözümdə anam,
Günəştək nəfəsi istidir onun.
Bəlkə də günəşdən min dəfə artıq,
Nəfəsi ruhumu isidir onun.

Hər dəfə duyanda mən üz-gözümdə,
O nəfəs artırır həyat həvəsi.
Yüz mülkə, min vara, dövlətə dəyər
Anamın bu isti, doğma nəfəsi.

Uşaqlıq ilimə qaytarır məni,
Nöqsanım olanda acıqlanması.
Sonra da kövrəlib, kövrəldir məni,
Anamın saçımı tumarlaması.

Bu sevgi, qayğısı, nəvazişiylə,
Böyüyüb çatmışam bu yaş, bu ana.
Mən ona borc təki, bir oğul təki,
Bəs nəyi vermişəm, nə etdim ona?

Övladın yolunda yanar, əriyər,
Zəhməti bir kərə dilinə gəlməz.
On illər çəksəm də, mən ona zəhmət
Bir gecə çəkdiyi zəhmətə dəyməz.

Varlığın ömrümə ömür calayır,
Beləcə yol gedək qoşa, ay ana.
Əbədi sevgiyə, eşqə layiqsən,
Yüz yaşa, çox yaşa, yaşa, ay ana.

*08.03.2017*

## MİLLƏTİ ÇÖRƏKLƏ SINAMAQ OLMAZ

Yenə də qiyməti qalxır çörəyin,
Yenə də min cürə bəhanələr var.
Yağışlar ucundan, qıt olub deyin,
Xaricdən alırlar taxılı, bunlar!

Bir də ki, deyirlər – "unu az olur,
Bir fayda verməyir taxılımız da".
Heç deyən yoxdu ki, cibiniz dolur,
Bu yolla örtülür paxırınız da.

Nə qərar verirsiz verin, siz Allah,
Etməyin kimsəni çörək möhtacı.
Siz yeyən çörəyi, həm sizi vallah,
Gün gələr, ayaqlar çörəyin acı.

Çörək ki verməyi bacarmayırsız,
Çörəyin kəsməyin bu millətin də.
Bu qədər zülümlə anlamayırsız,
Cəzası olacaq hər zillətin də!

"Bir tikə çörəyi bir bölün, yeyin",
Belə söyləyibdi dədə-babalar.
Çörəyi bıçaqla dəyişdirməyin,
Çörəklə çox aclar doydurubdular!

Qiyməti qaldırıb bu qədər asan,
İnsanı öldürmək, – budurmu qəsdin?
Elə də, belə də cəllad olursan
Nə fərqi ya çörək, ya da baş kəsdin!

Çörəksiz olmasın bircə an həyat,
Çörəksiz olanda adam büzüşür.
Çörəyin qiyməti qalxanda bir qat,
Adamlar dəyərdən düz on qat düşür.

Hər dəfə təndirdə çörək bişəndə,
Qonşular gələrdi, əlində pendir.
Çörəyin qiyməti qalxıb şişəndən,
Qonşuya həsrətdi bizdəki təndir.

Oynayın neft ilə, qazla oynayın,
Çörəklə bu qədər oynamaq olmaz.
Millətin başına oyun açmayın,
Milləti çörəklə sınamaq olmaz!

*31.07.2016*

## YIXILA-YIXILA YAŞAYIRAM MƏN

Hər günü bir yeni dərd-əzab ilə,
Doğula-doğula yaşayıram mən.
İçimdən sökülüb çölümdən çöküb,
Dağıla-dağıla yaşayıram mən.

Söyləyə bilmirəm dildə arzumu,
Ağzımdan alırlar halal ruzumu.
Özüm öz əlimlə tutub ağzımı,
Boğula-boğula yaşayıram mən.

Narahat çırpınır rahatlıq tapmır,
Hər əlim yetənə ürəyim yatmır,
Ürəyim deyənə əllərim çatmır,
Yaxıla-yaxıla yaşayıram mən.

Aldandım tərifin təntənəsində,
İtirdim mənliyi "mən-mən" səsində.
Riyanın, yalanın məngənəsində
Sıxıla-sıxıla yaşayıram mən.

Haqq desəm, sayıllam cod adam təki,
Adımı çəkirlər bəd adam təki.
Başqa planetli, yad adam təki,
Baxıla-baxıla yaşayıram mən.

Eh, dərdim dərd olmaz daş adamlara,
Mən ayaq olmuşam "baş" adamlara.
Təsəllim budur ki, xoş adamlara
Çaxıla-çaxıla yaşayıram mən.

Arzular boş xəyal, ömürsə gödək,
Bu ömür boyunca görmədim kömək.
Eh, hələ bu yaşda, körpə uşaqtək,
Yıxıla-yıxıla yaşayıram mən,
Sıxıla-sıxıla yaşayıram mən.

## BİR QURBAN KƏSDİM MƏN

Bir qurban kəsdim mən, acgöz məmura,
Zalıma, nadana qurban olmayaq.
Şərəf də, mənlik də var ola-ola,
Şərəfsiz gözündə biz alçalmayaq!

Bir qurban kəsdim mən, bu həyat, zaman,
Bəndəni bəndədən üstün etməsin.
Birini ucaldıb verib də vardan,
Birini alçaldıb küskün etməsin.

Bir qurban kəsdim mən, kimsənin kimsə,
Haqqını tapdayıb, payın yeməsin.
Qoy Tanrı saf-çürük etsin necəsə,
Güclüdən gücsüzə zərbə dəyməsin.

Bir qurban kəsdim mən, hamı ürəkdən,
Adı tək özü də müsəlman olsun.
Ürəyi paxıllar, yamanlar hərdən,
Bir azca səmimi, mehriban olsun.

Bir qurban kəsdim mən, İraq, Suriya,
Xaçpərəst məkriylə bombalanmasın.
Günahsız körpələr düşüb pusquya,
Siyasi gülləyə hədəf olmasın.

Bir qurban kəsdim mən, əsir yurdumuz,
Yağı tapdağından tez azad olsun.
Zəfər döyüşünə qalxsın ordumuz,
Narahat çox ruhlar qoy rahat olsun!

Bir qurban kəsdim mən, bu olsun belə,
Bu elə olmasın, belə olmasın.
Hamının yolları bəzənsin güllə,
Heç kəsin yolunda tələ olmasın.

Bir qurban kəsdim mən, xəstə adamlar,
Allahın izniylə tapsın şəfasın.
Allahın hamıya mərhəməti var,
Heç kimsə Allahın heç unutmasın!

Bir qurban kəsdim mən, xoş dilək deyib,
Bağışla, əfv eylə, varımsa günah.
İsmayıl qurbanı mübarək deyib,
Kəsdiyim qurbanı qəbul et, Allah!

*12.09.2016*

## BU DÜNYA ELƏYİR DƏLİ ADAMI

Heç kimi anası dəli doğmayır,
Bu dünya eləyir dəli adamı!
Az qalır dinindən, imandan çıxa,
Məhəmməd ümməti, Əli adamı,
Bu dünya eləyir dəli adamı!

Doğulan günündən tutub soyurlar,
Kasıbı, mağmını ütüb soyurlar.
Qaldırıb kürsüyə, başçı qoyurlar,

Qaniçən adamı, zəli adamı,
Bu dünya eləyir dəli adamı!

Qoyubdu özünü hamı korluğa,
Yox deyən tapılmır zülümkarlığa!
Az qalır çıxarda vergi almağa,
Qəbirdə çürüyən ölü adamı,
Bu dünya eləyir dəli adamı!

*13.02.2018*

## ALLAHA

Məni də xəlq edib hər adam təki,
Bəs niyə özgəyəm, yadam Allaha?
Bu acı həyatdan daha nə qədər
Şikayət eyləyər adam Allaha?

Nə dəli sərsəri, nə səfehəm mən,
Əməldə düzəm mən, safam, şehəm mən.
Sanmayın özümdən müştəbehəm mən,
Deməyin, xoş gəlmir ədam Allaha.

Demirəm nə haqdı, nələr nahaqdı,
Nahaqqı, həm haqqı bilən Allahdı.
Bu yerlər göylərdən çox-çox uzaqdı,
Olsun ki, çatmayır sədam Allaha.

Həyatda nə qədər səvablarım var,
Bəlkə də daha çox günahlarım var.
Günahı əfv üçün dualarım var,
Kaş gedib yetəydi nidam Allaha!

*2015*

## TAA ÖMRÜM

Bu qədər dərdi ki, çəkirəm belə,
Çətin çatar altmış yaşa taa ömrüm!
Burdan belə inanmıram sevinclə,
Qoşalaşa, aşıb-daşa taa ömrüm!

Arzuları hicran ilə məhv etdim,
Ustad[1] demiş, "dərd-qəm alıb, nəf etdim"!
Hər addımda yenə, yenə səhv etdim,
Ötdü, keçdi çaşa-çaşa taa ömrüm!

Nə bir əda, nə də canda naz qalıb,
Bəlkə, elə bircə payız, yaz qalıb.
Ürəyimə damıbdı ki, az qalıb,
Gəlib yetib Aqşin, başa taa ömrüm!
Çətin çatar altmış yaşa taa ömrüm!

*17.10.2019*

## DÜNYA

Kimə çirkin, kimə gözəl,
Kimə isə baldı dünya!
Kimə yağlı bir quyruqdur,
Kimə turşdu, kaldı dünya!

Kimə saray, istehkamdı,
Kimə kasıb, zülmət damdı.
Kimə xoşdu, toy-bayramdı,
Kimə qovğa-qaldı dünya!

[1] Aşıq Ələsgər nəzərdə tutulur.

Həm alçaqdı, həm ucadı,
Həm cavandı, həm qocadı.
Kimə dostdu, bir arxadı,
Kimə kordu, laldı dünya!

Görünsə də gözəl donda,
Heç etibar umma onda.
Nə veribsə bir-bir sonda,
Biz bəndədən aldı dünya!

Bir gün gələn bir gün köçdü,
Xoşbəxt köçdü, küskün köçdü.
Milyonlarla Aqşin köçdü,
Yenə belə qaldı dünya!

*30.11.2019*

## DÜNYADAN

Gəlib-gedir bu dünyadan hər bəndə,
Beş il, on il, qonağıyam eh, mən də!
Lüt gəlmişəm doğulanda, gələndə,
Gedəndə də lüt gedəcəm dünyadan.

Daş-qaşına tamah salıb yanmadım,
Dar günümə gərək olar sanmadım.
Çox dedilər "qan ay bala", qanmadım,
Elə, belə küt gedəcəm dünyadan.

Ürəyimcə sevdim yurdu, elatı,
Qatdı başım təcnis, qoşma, bayatı.
Şükr edirəm, tərk edəndə həyatı,
Saf əməllə cüt gedəcəm dünyadan.

*25.03.2019*

## KÖYNƏYİNƏ

Eybi yoxdu, qoy kirlənsin,
Ləkə düşsün köynəyinə.
Palçıq dəysin, toz da qonsun,
Var əynində hər nəyinə.

Baş-ayağa ləkə bütün,
Bulasın da üz-gözünü.
Qəm eyləmə onun üçün,
Nahaq sıxma heç özünü.

O palçıq da, o ləkə də,
Yuyulacaq bil, su ilə.
Saf olacaq qəlb yenə də,
Xoş duyğuyla, arzu ilə.

Hər kim yuya, suya çəkə,
Zərrə qədər təmiz olmaz.
Namusa ki, düşdü ləkə,
Onda onu heç nə yumaz.

*16.11.2016*

## AZƏRBAYCAN ZABİTİ

Sən gözümdə ucasan, uca bayrağım təki,
Sən qəlbimdə ulusan, ulu torpağım təki.
Sən dilimdə əzbərsən, arxam, dayağım təki,
Ey yurdumun şərəfi, ey xalqımın igidi,
Azərbaycan zabiti.

Qan-qadalı illərdə, xalqın ağır günündə,
Dönüb qalxan nizəyə dayanmısan sən öndə.
Yağı hücum çəkəndə, yurda gözün dikəndə,
Vətən sərhədlərinin sənsən qıfıl, kilidi,
Azərbaycan zabiti.

Həm Qarabağ, həm də ki, döyüş etdin hər yanda,
Kəlbəcərdə, Laçında, Ağdərədə, Ağdamda.
Füzuli, Cəbrayılda, Qubadlı, Zəngilanda
Neçə qanlı döyüşün sənsən canlı şahidi,
Azərbaycan zabiti.

Yetmək üçün işıqlı yeni günə, sabaha,
Topla gücü, qüvvəti, ayağa dur bir daha.
Azğın düşmənə qarşı dönməlidi silaha,
Təkcə sənin gözündə bütün TÜRKün nifrəti,
Azərbaycan zabiti.

## YOL ÇƏKİLMƏYİR

Yol var ki, enişdi, yol var yoxuş, dar,
İlahi dünyada nə qədər yol var.
Hər yerə, hər səmtə çəkilir yollar,
Göyçəyə yön gedən yol çəkilməyir.

Ürəyim qübardı, baxıb yollara,
Yurd deyim, üz tutum, gedim mən hara?
Möhürlər vurulur yersiz qollara,
Yurdun xilasına qol çəkilməyir.

Gəzirik, tapmırıq indi əlacı,
Dəyərsiz eylədik Göyçətək tacı.
Bir deyil, beş deyil çəkdiyim acı,
Acılar olubdu bol, çəkilməyir.

Dağlandım, dağlardan gen düşən gündən,
Dərd məni əyləyib xoş soraq, ündən.
Bircə gün olsa da gözüm önündən,
O dərə, o yamac, yal çəkilməyir.

Bu dərdi ağlayıb lal, çəkirəm mən,
Aqşinəm, sinəmə xal çəkirəm mən.
Hər dərddən özümə bal çəkirəm mən,
Göyçənin dərdindən bal çəkilməyir.

*15.09.2015*

## BİR SEVGİ TARİXİ YAZDI FƏRİZƏ

***20 Yanvar şəhidlərinin əziz xatirəsinə***

Çəkib sinəmizə dağı o axşam,
Bakını tutmuşdu yağı, o axşam,
İlahi, nə idi axı o axşam?
O axşam, vətənə sevgidən təzə,
Bir sevgi tarixi yazdı Fərizə!

Sevənlər olubdu hər vaxt, hər vədə,
Heç sevən olmayıb belə, bəlkə də.
Leylini, Şirini qoyub kölgədə,
Sevib-sevilməyi öyrətdi bizə,
Bir sevgi tarixi yazdı Fərizə!

Hələ unutmamış toy sədasını,
Geyməli olmuşdu vay libasını.
Pak tutub eşqini, öz butasını,
Ölümlə, əcəllə durub üz-üzə,
Bir sevgi tarixi yazdı Fərizə!

O gecə öldürdü şər, İlhamını,
Vətənə bir arxa, nər İlhamını.
Şəhid zirvəsində ər İlhamını,
Görüncə, özü də etdi möcüzə,
Bir sevgi tarixi yazdı Fərizə!

Şərəfdir şəhidlik həm din eşqinə,
Sevdiyin igidin, mərdin eşqinə.
Vətənin, millətin, yurdun eşqinə,
Şəhid qanı axan hər yol, hər izə,
Bir sevgi tarixi yazdı Fərizə!

*30.06.2015*

## O KÖÇ GERİ QAYITMADI

***Göyçə qaçqınlığına həsr olunur***

*Səsini içinə çəkib gedir,*
*Ağrısı içinə çöküb gedir,*
*Dərdini yollara əkib gedir,*
*Bu köç hara gedir belə?*

**Nəriman Zeynalzadə**

Deyirdilər ola bilməz,
Nahaq zəfər çala bilməz,
O köç burda qala bilməz…
– O köç geri qayıtmadı.

Alan aldı, namərd satdı,
Arzusuna yağı çatdı,
Köç eylədi itdi, atdı,
O köç geri qayıtmadı.

Dua etdi tək Allaha,
Eyləmədi şəkk Allaha,
Ümid etdi hər sabaha,
O köç geri qayıtmadl.

Dizlərinin giri getdi,
Ağsaqqalı, piri getdi,
Əsrin dörddə biri getdi,
O köç geri qayıtmadı.

“Ağıllılar” aldatdılar,
Nağıl deyib yatırtdılar,
Yuxusuna bal qatdılar,
O köç geri qayıtmadı.

Bezdi, sandı doğma evdi,
Qürbəti qol açıb “sevdi”.
Tikdi bir alaçıx, sevdi,
O köç geri qayıtmadı.

Dözəmmədi dərdə, öldü,
Həsrət qalıb yurda, öldü,
Orda olan burda öldü,
O köç geri qayıtmadı.

Ana yurdun odu söndü,
Əbədilik dərdə döndü,
O köç burda yurda döndü,
O köç geri qayıtmadı!
O köç bizi ayıltmadı!

## AY İRANIN EŞŞƏYİ

***Azərbaycanı hədələyən Ərdəbil imamı, əslində şeytan mollası olan Ayətullah Seyid Həsən Amili deyilən birinə***

Səsini kəs, anqırma,
Baş aparma o yandan.
Duyuruq ki, qorxursuz
Artıq Azərbaycandan.
Türk oğluyuq, türkük biz,
Güc alırıq Turandan.
Az qalıbdı o günə,
Ayrılacaq İrandan
Bu yurdumun güneyi,
Ay İranın eşşəyi!

Başındakı əmmamə,
Heç yaraşmır başına.
Tuş gələydi kaş o baş,
Azərbaycan daşına.
Çıxıb hündür bir yerdən,
Anqırırsan boşuna.
Görürəm ki, öz səsin,
Gəlir özcə xoşuna.
Olmusan sən nəzərdə,
O farsların ən səyi,
Ay İranın eşşəyi!

Sizdən bizə nə qonşu,
Nə də olmaz müsəlman.
Əsarətə salmısız,
İki əsr vaxt, zaman.
Siz Allahdan uzaqsız,
Siz şeytansız, siz şeytan.
Məhv edəcək vaxt sizi,
Dağıdacaq tam, zaman.
Pozammazsız heç nəyi,
Ay İranın eşşəyi!

Erməniyə can deyən,
Şərəfsizsiz, şərəfsiz.
Nə bilirsiz axı siz,
Nədir vicdan, şərəf, siz?!
Etdiyiniz günaha,
Olacaqsız hədəf siz.
Sizdən aslan, şir olmaz,
Uzunqulaqsız təmiz.
Yığışdırın şişməyi,
Ay İranın eşşəyi!

Susub, susub güzəşti,
Biz etmişik çox sizə.
Siz elə şarlatansız,
Ümid, inam yox sizə.
Qovut nədi? – səhv salma,
Yedirdəcik ... sizə.
Sizin kimi yalandan,
Etməyirik xox sizə,
Şişirtmirik heç nəyi,
Ay İranın eşşəyi!

Nə baş versə Əhərdə,
Günah tutmayın bizdə.
Nələr olur Qəzvində,
Görün, anlayın siz də.
Oyanış var, çox şükür,
Ərdəbildə, Təbrizdə,
Azadlıq "küləyinin",
Yavaş-yavaş dənizdə,
Başlayıbdı əsməyi,
Ay İranın eşşəyi!

## BİZ YENƏ DƏ DÖNƏCƏYİK GÖYÇƏYƏ

Zülmət itir, yavaş-yavaş doğur dan,
Hazır olun göyçəlilər, bu andan.
Kəlbəcərdən mesaj verdi komandan,
Olub bizim qədim məkan, yurd deyə,
Biz yenə də dönəcəyik Göyçəyə!

Otuz üç il olub həsrət qaldığım,
Bəsdir daha boş xəyala daldığım.
Belə dedi o, qadasın aldığım,
“Qoymarıq ki, qalsın yada, özgəyə,
Biz yenə də dönəcəyik Göyçəyə!”

Alışacaq, sanma keçər odumuz,
Yaddaşdadı Basarkeçər adımız.
Lazım gəlsə basar, keçər ordumuz,
Məhəl qoymaz qarşısında heç nəyə,
Biz yenə də dönəcəyik Göyçəyə!

Yol olacaq hər bir yana Göyçədən,
Enəcəyik Dilicana Göyçədən,
Gedəcəyik İrəvana Göyçədən,
Yaradana şükr eyləyə-eyləyə,
Biz yenə də dönəcəyik Göyçəyə!

Dərələyəz ortadadır, ordadır,
Qovuşacaq Zəngibasar, Zəngəzur.
Deyə bilməz kimsə bizə “dayan, dur”,
Tam bütövlük gələcəkdir ölkəyə,
Biz yenə də dönəcəyik Göyçəyə!

*17.08.2021*

# PUBLİSİSTİKA

# İKİ QARDAŞ – İKİ İGİD, BİRİ QAZİ, BİRİ ŞƏHİD

Reyvə ana həyatın sınaqlarından üzüağ çıxmaq üçün, bütün gücünü toplayaraq, gecə-gündüz, az istirahət etməklə böyüməkdə olan üç oğul övladı üçün çalışırdı. Bu qarayanız, tək-tənha qadının əzmlə həyat mübarizəsini ətrafdan izləyən el-oba, qonum-qonşu, kasıb olmasına baxmayaraq, hətta ona həsəd belə aparırdılar. Hər dəfə kimsə ona, "ay Reyvə bacı, az işlə, bir az səhhətinə də fikir ver" – dedikdə, gülümsəyərək belə cavab verərdi: – "Mənim də işləməyimə ta az qalıb, daha qorxum yoxdu. Çox şükür Allaha, oğlanlarım böyüyüb, bir azdan üçü də arxam, dayağım olacaqlar".

Beləcə kasıb həyat tərzi ilə kolxozda pambıq tarlasında işləyə-işləyə üç oğlunu elə, camaata hörmətlə, sevgiylə yanaşan, tərbiyəli övladlar kimi böyüdüb ərsəyə çatdırdı Reyvə ana. Artıq bütün analar kimi o da, qəlbində övladlarının zamanı gəldikdə toy edib evləndirmək, kasıb komasına gəlin gətirmək arzusuyla yaşayırdı. Artıq böyük oğlu Rizvan və ortancıl oğlu Mərdan da Sovet Ordusunda xidmətə gedib baş ucalığı ilə xidmətdən qayıtmışdılar. İndi başqa bir zaman yaşanırdı. Sovet imperiyası son illərini yaşayırdı. Bütün hər yerdə hərc-mərclik baş alıb gedirdi. Belə bir vaxtda Reyvə ananın sonbeşiyi olan Qulam da Sovet Ordusuna xidmətə göndərilmişdi. Lakin hadisələrin başqa yöndə cərəyan etməsi, onun xidmətini yarımçıq qoyub, vətənə qayıtması ilə nəticələndi. 1992-ci ilin əvvəlləri idi. Qulam hərbi xidmətdən qayıdanda böyük qardaşı Rizvan artıq Qarabağın müdafiəsi uğrunda döyüşlərə qatılmışdı. Çünki, vətənin belə bir ağır anında qəlbində vətən sevgisi, yurd istəyi, yüksək vətənpərvərlik hissi olan heç kəs döyüşlərdən kənarda qala bilməzdi. Bu baxımdan Rizvan da

elə ilk günlərdən Bərdədə yenicə yaranmış Bərdə özünümüdafiə batalyonuna üzv yazılmışdı. Batolyona Ələmşah Məmmədov komandirlik edirdi. O bu batolyonun tərkibində ilk döyüşə Ağdərənin Marağa, Seysulan, Yarımcan, Marquşavan kəndləri uğrunda gedən döyüşlərdən başlamışdı. Artıq bir neçə ağır döyüşlərə girib çıxmış, kifayət qədər də qorxmaz bir döyüşçü kimi tanınmışdı.

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə ermənilərin Xocalı faciəsini törətməsi hamını hiddətləndirmişdi. Artıq Sovet xidmətindən yarımçıq qayıdan, evə gəlişinin bir ayı yenicə tamam olmuş Reyvə ananın kiçik oğlu Qulam da bu məqamda evdə qala bilməyəcəyini və döyüşlərə qatılıb vətənə xidmət edəcəyini anasına açıq şəkildə söyləyir. Əlbətdə, anası buna əvvəlcə bir neçə dəfə etiraz etsə də, onu yolundan döndərə bilməyəcəyini anlayıb, öz ana xeyir-duasını verərək, kiçik oğlunu da döyüşlərə yola salır. Qulam ilk döyüş yolunu 703 saylı hərbi hissənin tərkibində başlayır. Bu ərəfədə böyük qardaşı Rizvanın döyüşdüyü batolyon dağıldığından, o və silahadaşları 701 saylı hərbi briqadanın 5-ci taboruna keçirilmişdilər. Bu vaxta qədər dəfələrlə döyüşlərdə qəhrəmanlığı, qorxmazlığı ilə seçilən Rizvan taborun komandiri Tahir Cəfərov tərəfindən kiçik leytenant rütbəsi verilməklə 2-ci bölüyə komandir təyin olunmuşdu. İndi onlar Laçın rayonunun yüksəkliklərini qoruyur, Hoçazdağ, Qırxqız, Dəvəboynu, Sarıbaba, Fəraş, Nürəddinkənd, Çilyaz yüksəkliklərində aylardır ki, düşmən hücumlarının qarşısını mərdliklə alırlar. Burada Azərbaycanın hər bir bölgəsindən yüzlərlə qəhrəman, igid oğlanları mərdanə dayanıb, düşmənə qarşı layiqli döyüş əməliyyatları aparırlar. Hocazdağdan işğal altında olan Laçın rayonunu nəzarətdə saxlayaraq düşmənə ağır zərbələr də endirirlər. Bu ərəfələrdə, yəni 1992-ci ilin noyabr ayında

Rizvanın kiçik qardaşı Qulam da bu hərbi hissəyə, məhz qardaşının komandirlik etdiyi bölüyə keçirilir. O da artıq Laçın dağlarının müdafiəsi üçün döyüşlərə qoşulur. Beləliklə, iki qardaşın bir cəbhədən düşmənə qarşı şərəfli döyüş yolu başlayır. Qulam bölükdə sərrast atışlı qrantamyotçu kimi döyüşlərə gedirdi və elə bir döyüş olmazdı ki, o döyüşdə Qulamın qrantamyot hədəfinə düşmən texnikası düşməmiş olsun. Boyca çox balaca olan, az qala qrantamyotdan bir azca hündür olan bu qarayanız, dolu oğlan qəhrəmanlığı, qorxmazlığı sayəsində döyüş bölgəsində özünə düzgün mövqe seçərək sərrast atışı ilə onlarla düşmən texnikasını və canlı qüvvəsini məhv etmişdi. Artıq Qulamın adı bütün cəbhə boyu döyüşçülərin dilinin əzbəri olaraq hər tərəfə yayılmışdı. Demək olar ki, çox döyüşçülər onu sevərək ona oxşamaq, onun kimi qəhrəman döyüşçü olmaqla sevilmək arzusunda idilər. Bunu sonralar bir çox döyüşçülər özləri də etiraf edərək söyləyirdilər. Əslində Qulama yuxarı komandanlıq səviyyəsində də xüsusi hörmət və sevgi var idi.

Bu ərəfələrdə bütün cəbhə boyunca ağır döyüşlər gedirdi. Ermənilər rus ordusunun köməkliyi ilə demək olar ki, bütün cəbhə boyu üstünlüyü ələ alaraq hücuma keçirdilər. Belə bir məqamda, yəni 1993-cü ilin mart ayının sonlarında, yuxarı komandanlıq tərəfindən Laçın dağlarını qəhrəmanlıqla qoruyan bu hərbi hissəyə gözlənilməz göstəriş verilir. Hərbi hissə təcili Laçın ərazisini tərk edərək, Kəlbəcər rayonu istiqamətində ermənilərə qarşı döyüşlərə başlamalıdır. Beləcə 701 saylı hərbi hissə yüzlərlə igidlərin qanı bahasına, aylarla qoruyub saxladığı Laçın dağlarını tərk edərək, Kəlbəcər istiqamətinə yol başlayır. Burada isə vəziyyət çox gərgindir. Kəlbəcər demək olar ki, artıq işğal olmaq vəziyyətindədir. Hərbi hissələr arasında lazımi dö-

yüş planları hazırlamaqda çətinliklər var. Dinc əhali Murovdağ yolu ilə Kəlbəcərdən çıxmağa yollar axtarır. 701 saylı hərbi hissə də öz imkanları sayəsində həm dinc əhalinin oradan çıxarılmasına köməklik edir, həm də düşmənə qarşı döyüşürdü. Lakin bütün cəhdlərə baxmayaraq, kifayət qədər rus ordusu tərəfindən kömək alan, silahlanan erməni ordusu artıq aprel ayının 2-də Kəlbəcəri də işğal etdi. İndi Rizvangilin hərbi hissəsi Murovdağda yerləşərək düşmənlərə qarşı döyüşləri davam etdirirdi. İndi vəziyyət daha gərgin idi. Bu mənada cəbhə bölgəsinə yaxın olan ərazilərdə insanlar hadisələri daha yaxından duyub, vəziyyətin çox ağır olduğunu hiss edirdilər. Belə bir məqamı nəzərindən qaçırmayan Reyvə ananın evdə qalan ortancıl oğlu da, digər iki qardaşı kimi döyüşlərə getmək qərarına gəlir. Mərdan anasının bütün etirazlarına və hətta göz yaşları tökməsinə belə baxmayaraq, torpaqlarımızın azadlığı uğrunda döyüşlərə qoşulur. O xidmətə 703 saylı hərbi hissəyə göndərilir. Qeyd edim ki, bu vaxtlarda Yeni Daşkənd kəndindən artıq 200-ə qədər gənc Qarabağ uğrunda döyüşlərin iştirakçısı idi. Beləcə Reyvə ana hər gün üç oğlu ilə bərabər, bütün Azərbaycan əsgərlərinə bu şərəfli yolda uğurlar diləyərək, həyacan dolu, səksəkə dolu günlər yaşayırdı. Bir zamanlar üç oğlunu təkbaşına tərbiyə ilə böyüdüb el-oba gözündə uca sayılan Reyvə ana, indi nəinki elin, camaatın gözündə, həm də rayon rəhbərliyi səviyyəsində böyük hörmət və ehtirama malik olaraq diqqətdə saxlanılırdı. Ancaq bunun da düz hesab olunmadığını nəzərə alan kənd ağsaqqalları və rəhbərlik ailənin bir oğlunun ananı saxlamaq üçün geri qaytarılmasını məsləhət bilirdi. Bu qanunla da belə olmalı idi. Bunun üçün evin son beşiyi olan Qulamı Murovdağdan geri qaytarmaq istəyirlər. Lakin Qulam buna qətiyyən razılıq vermədiyindən ailənin ortancıl oğlu Mər-

danı döyüşlərdən geri çağırmalı olurlar. Qulam və Rizvan isə Murovdağda döyüşlərini davam etdirirlər.

1993-cü ilin dekabr ayının sonlarından etibarən 2-ci Kəlbəcər əməliyyatı hazırlanır. Rizvan və Qulamın xidmət etdiyi bu hərbi hissə də Kəlbəcərin azad olunması üçün yenidən döyüşlərə atılmışdır. Onlar 1994-cü ilin yanvar ayının ilk günləri ərzində çox ağır döyüşlərin iştirakçısı olmuşdular. O cümlədən onların qarşısında qoyulan əsas tələb Yanşaq kəndi və onun ətrafındakı Qızılqaya, Qara göl yüksəkliklərini, eləcə də Bağırsaq və Bağırlı kəndlərini azad etmək idi. Bu planla növbəti döyüş günü yanvar ayının 18-də Yanşaq kəndi uğrunda gedirdi. Güllə və mərmi səslərindən yer-göy lərzəyə gəlirdi. Sanki, dünyanın sonu idi. Bu dəhşətli döyüşdə, yanvar ayının 18-də 5-ci taborun 2-ci bölüyünün komandiri kiçik leytenant Rizvan ağır döyüş zamanı yaralanır. Yoldaşları dərhal ona ilk tibbi yardım edərək geri çəkməyə nail olurlar. Bir anlıq danışmaq iqtidarında olan Rizvan əsgərlərindən onun yaralanmasını qardaşı Qulama bidirməmələrini xahiş edir. Döyüş o qədər şiddətli olur ki, komandirin, yəni böyük qardaşının yaralanmasından Qulam da xəbərsiz olur. Və təbii ki, bu xəbəri bilən silahdaşları da ondan gizli saxlamağa çalışırlar. Yanşaq kəndi uğrunda ağır döyüşlər isə davam edir. Artıq ayın 19-dur. Qulam tez-tez mövqeyini dəyişərək düşmən tərəfdən daha çox zərbə gələn istiqamətlərə qumbaratanla sərrast atəşlər açır. Budur, son qumbarası əlindədir. İndi o yenə öz mövqeyini dəyişərək növbəti sərrast atışı yerinə yetirəcək. Və belə də edir, o son qumbaranı düşmən istiqamətinə yönəldərkən, artıq saatlarla onu izləyən, onun atdığı qumbaralardan böyük itkilər verib hiddətlənən düşmənin hədəfinə tuş gəlir. Onu yalnız bu cür dayandıra biləcəklərini anlayaraq, snayper gülləsi ilə Qulamı nişan alaraq susdu-

ra bilmişdilər. Ancaq bu Qulam üçün susmaq deyildi, son deyildi. O, artıq vətən yolunda əbədiyyətə gedən bir yolun, şəhidlik yolunun yolçusu idi! Çox ağrılı bir durum yaranıb. Qulamın ölüm xəbəri bütün cəbhə boyu, tez bir zamanda hamıya çatır. Qulamın itkisi hər kəs üçün çox üzüntülüdür! Bütün hərbi hissə üçün böyük itkidir. Həm də ağrılı odur ki, bir gün öncə böyük qardaş, bölük komandiri kiçik leytenant Rizvan yaralanaraq, ağır vəziyyətdə arxa cəbhəyə, Gəncə qospitalına göndərilib, kiçik qardaş Qulam isə bütün bunlardan xəbərsiz halda şəhid olur. Hər iki igid əsgəriylə, hər iki qardaşla bağlı yaranmış bu ağrılı hal üçün çox məyus olan 5-ci taborun komandiri Gəray Əsədov şəhidin döyüş yoldaşlarından bir neçəsini ayırıb, onu döyüş bölgəsindən çıxararaq arxa cəbhəyə, ailəsinə, elinə, obasına, doğulduğu Yeni Daşkənd kəndinə çatdırılmasını təşkil edir. Hələ səhər saatlarıdır, axşamadək şəhidin cənazəsi Bərdəyə çatdırıla bilər, nəhayət bu Qulamın anasının hüzuruna son dönüşü olur. Reyvə ana isə dünəndən Gəncə qospitalına yerləşdirilmiş oğlu Rizvanın yaralanması xəbərini səhər tezdən eşidib və dərhal da əli ilə dizinə, başına döyə-döyə doğmalarla, kəndin rəhbərləri, ağsaqqalları ilə üzü Gəncəyə tərəf çoxlu sayda maşın karvanı ilə yol gedirlər. Bu o zamandır ki, elə bu anlarda Qulam düşmən gülləsinə tuş gəlib. Bundan isə hələ heç kimsənin xəbəri yoxdu. Gəncə qospitalında Rizvanın artıq əməliyyatdan çıxdığı və durumunda ölüm qorxusu olmadığı yəqin olur. Ana ürəyi bir az toxtaqlıq tapır, Allaha şükür edir. Ancaq yenə içində onu narahat edən hansısa bir qüvvə olduğunu duyur. Sanki ürəyinə nəsə damıbmış kimi, Qulam haqda məlumat öyrənmək istəyir. Lakin bu haqda məlumatı olan bir kimsə yoxdur. Yanvar ayının 19-dur. Artıq axşam saatlarıdır. Reyvə ana yol boyu gah böyük oğlu Rizvanın yaşamasına şükr edir, gah da ki-

çik oğlu Qulama heç nə olmasın deyə, Allaha dua edərək doğmalarla Gəncədən Yeni Daşkəndə qayıdırlar. Bu anlarda isə Yeni Daşkəndə, Reyvə ananın ocağına heç kimin gözləmədiyi ikinci bir "yolçu" dəstəsi gəlir. O yolçu dəstəsi ki, nəinki Reyvə ananı, bütün eli, camaatı, kəndi və nəhayət hər kəsi üzəcək, hər kəsi göz yaşlarına boğacaq. Reyvə ana yenicə evinə çatıb, başına yığılmış el-obaya, qohum-qonşuya oğlu Rizvanın səhhətinin yaxşı olduğunu çatdıraraq, Allah şükr etdiyi bir məqamda, Gəncə qospitalından Reyvə ana ilə bərabər qayıtmış kəndin rəhbəri Məhərrəm Əliyev rayon rəhbərliyinin nümayəndələri və bir qrup hərbçi ilə həyətə girir. Reyvə ana da, hər kəs də elə zənn edir ki, yəqin gələnlər oğlu Rizvanın yaralanması xəbərini eşidib gəliblər. Ancaq gələn insanların baxışlarında qeyri üzüntünü duyan ana, yenə Rizvanla bağlı narahat olmağa başladı. Düşündü ki, yəqin onun yanından qayıtdıqdan sonra vəziyyəti ağırlaşıb. Kənd rəhbəri Məhərrəm Əliyev kövrək və duyğusal adam olduğundan qeyri-ixtiyari olaraq Reyvə ananın qarşısında göz yaşlarını saxlaya bilmir. Hamı təşviş içində nə baş verdiyini anlamağa çalışırdı. Kimsə nəsə deyə bilmirdi. Reyvə ana gah Məhərrəm Əliyevə, gah da onunla gələn qonaqlara, hərbçilərə üzünü tutub ağlayaraq nə baş verdiyini öyrənmək istəyirdi. Beləcə dəqiqələr ötürdü, dəqiqələr ötdükcə həyacan artır, pıçıltılar çoxalırdı. Artıq Qulamın şəhid olması və yaxın saatlarda cənazəsinin gətiriləcəyi gizlin-gizlin danışırılırdı. Hamı heyrət içində idi. Bir zamanlar hamının qibtə etdiyi bu ana, indi ard-arda oğul üzüntüsü yaşayırdı. Hələ el, camaat bir oğlunun yaralanaraq sağ qalmasına görə göz aydınlığı verməyə imkan tapmamış, cəmi bir gün belə keçməmiş kiçik oğlunun şəhid olması xəbərini eşidirdi. Bu çox dəhşətli idi. Bu bir ana üçün dözülməz idi. Qısa bir zaman içində Reyvə ananın ka-

sıb evi bir müqəddəs ocaq kimi insanların əhatəsində görünməz olmuşdu. Bütün el-oba, ətraf kəndlər belə Qulamın şəhid olmasını, cənazəsinin gətirildiyini eşidib, bu qapıya axışırdı. Nə Reyvə ana, nə Yeni Daşkənd hələ belə izdiham görməmişdi. Bu izdihamın arasında Reyvə ananın yanıqlı səsi, naləsi, ana fəryadı tam aydın olaraq seçilir, duyulurdu... Birdən izdiham tam sakit bir an yaratdı və izdiham sanki kiminsə göstərişi ilə ikiyə bölündü, yol açıldı. Budur, döyüş yoldaşlarının çiynində, üçrəngli Azərbaycan bayrağı ilə örtülmüş bir cənazə qapıya yön alır. İlahi bu nə ağır məqamdır. İlahi bu naləyə insan necə dözərmiş? Reyvə ana ilə bərabər bütün analar Qulamı öz doğma balasıtək dil deyib ağlayırdı. Bu anda ağlamayacaq kimsə yoxdu. Bu igidə bütün el ağlayırdı. Anaların dilindən səslənən "əlin qurusun ay yağı, yurdun dağılsın ay yağı" kəlmələri ürəkləri oyurdu. Bu an artıq Reyvə ananın qəlbi dözməyərək bayılmışdı. Hamı qışqırır, "həkim, həkim gəlsin", deyirdi. Bir az sonra özünə gələn Reyvə ana oğlunun cənazəsini qucaqlayaraq sanki çoxdan əzbərləmiş olduğu bir yanıqlı bayatı söylədi:

*Eləmi qoçaq balam,*
*Düşmənə bıçaq balam.*
*Məni qoyub gedirsən,*
*Qoy açım qucaq, balam.*

1994-cü ilin yanvar ayının 19-dan 20-ə keçən soyuq və üzüntülü qış gecəsini kənd camaatı ayaq üstə, Reyvə ananın qapısında açdı. Bu gün Qulam dünyaya göz açdığı doğma Yeni Daşkəndində, kənd qəbiristanlığında əbədi olaraq, uğrunda döyüşərək canını fəda etdiyi torpağa tarşırılacaqdı. Bu gün minlərlə insan, qoca, cavan, qadın, kişi, bütün məktəblilər, şəhid Qulamın igidliyindən həm qürur hissiylə

danışaraq, həm də köks ötürərək silahdaşlarının atdığı yaylım atəşləri altında onu dəfn etdilər. Şəhidin dəfnindən sonra getməyib, məzarı üstündə saatlarla çıxış edən, Qulam haqda öz yüksək fikirlərini bildirən el ağsaqqalları, ziyalılar, döyüş yoldaşları onun cürətindən, mərdliyindən, düşmənin saysız-hasabsız texnikasını məhv etməsindən, göz yaşlarına boğularaq ürək dolusu danışırdılar. Bu çıxışlar qəhrəman şəhidimizə olan böyük sevgidən irəli gəlirdi.

Qulamın məzarı üstündə el ağsaqqalı rəhmətlik Fəzi Kərimovun, Novruz Musayevin, Mehdi Hacıyevin, Molla Əmirxanın, bütün səngərləri gəzib, əsgərlərlə həmsöhbət olan, vətənpərvər şair Sərraf Şiruyənin şəhidimizlə bağlı dəyərli çıxışları bu gün də yaddaşlarda qalmaqdadır. Sərraf Şiruyənin elə həmin gün Qulama həsr etdiyi şeiri bu gün də bütün məktəblilərin dilində əzbər olaraq söylənməkdədir:

*Qeyrətin bir elə baş ucalığı,*
*Cürətin düşmənə heyrət gətirdi.*
*Hünərin vətənə zəfər sorağı,*
*Məzarın torpağa ziynət gətirdi.*

*Vətən harayladı – ümid, inamım,*
*Torpaq harayladı, – gəl qəhrəmanım.*
*Hər döyüş addımın, igid Qulamım,*
*Böyük bir mahala şöhrət gətirdi.*

*Sən ölmədin, sən ölümü öldürdün,*
*Bu millətin qüdrətini bildirdin.*
*Düşmənlərə çox zərbələr endirdin,*
*Qeyrətin bu elə şəfqət gətirdi.*

Heç zaman unutmayacağımız bir igid qəhrəmanı beləcə el ilə birlikdə əbədiyyətə yola saldıq.

Bəs şəhidimizin böyük qardaşı, yaralı halda qospitalda yatan Rizvanın taleyi necə oldu? Bəs Rizvan nə vəziyyətdədir? O artıq azacıq da olsa belə özünə gəlibsə, qardaşının, həm də əsgərinin şəhid olmasından xəbərdarmı? Bu dəfn mərasimi müddətində ona, onun yanına gedib gələnlər bu haqda məlumat veribmi? Və ya o Qulam haqda, onun necə olduğu haqda soruşubmu? Əlbətdə bu suallara cavab tapmağa çalışacağıq. Bunun üçün isə yenidən keçmiş tarixə qayıdaq.

Rizvanın durumu, səhhəti qospitalda günü-gündən yaxşılığa doğru gedir. Artıq yarası onu o qədər də çox narahat etmir. Onu narahat edən yalnız cəbhədki vəziyyət, döyüş yoldaşları və qardaşı Qulamın necə olmasıdır. Artıq Qulamın şəhid olmasından beş gün keçib. Reyvə ana yenə doğmalarla, kənd ağsaqqalları ilə Gəncəyə – Rizvanın yanına gəliblər. Hələ dünəndən hamı Reyvə ananı, Qulamın ölümünü Rizvana bildirməmək üçün möhkəm olmağı, ağlamamağı xahiş edib, tapşırıblar. Ana ürəyi dünyada ən saf, ən pak ürəkdir. Elə oğlunu qucaqlamağı ilə kövrəlib ağlamağa başlayan Reyvə anaya hamı "niyə ağlayırsan daha" deyə irad tutarkən, o, "Rizvanın sağalmasına sevinib ağlayıram" deyib, bir daha hönkürtü ilə ağladı. Hərə bir tərəfdən söz salıb fikri yayındırmağa çalışdılar. Bu alındı da. Rizvan nə isə qeyri bir xoşagəlməz hadisə baş verdiyini duymadı. O həqiqətən də anasının ağlamasını, elə anasının dediyi kim də qəbul etdi. Yanına gələnlər ordan-burdan söz salıb xoş bir söhbət yaratmağa cəhd edir, hərdən gülüş yaradan hansısa keçmiş hadisəni söyləyib gülürdülər. Ancaq anasının heç gülməyib, kədərli durmasını nəzərdən qaçırmayan Rizvan, nəhayət ondan nə üçün belə fikirli oldu-

ğunu soruşdu! Yazıq arvad bir an nə cavab verəciyini belə bilmədi. Birdən sanki, həqiqətən olmuş kimi bir hadisəni, onun sualına cavab kimi Rizvana söyləməyə başladı:

– Bəs bilirsənmi, ay Rizvan, o ağ düyəmiz varıydı haa, kasıb vaxtımızda bizi qatıq-südü ilə doyuzdurardı, bax onun cüt balası olmuşdu, bir həftədi onun bir balası ölübdü, indi anası o gündən mələyə-mələyə qalıb, heç yadımdan çıxmır o!

Rizvan bu inandırıcı söhbətin həqiqətən də ağrılı olduğunu duyub anasının buna kədərlənməsinə həm haqq qazandırdı, həm də dedi ki, – "ay ana, canın sağ olsun, qoy müharibəni qurtaraq, üç oğlun var, hərəsi sənin qapına bir inək alacaq, hər şey yaxşı olacaq, qəm eyləmə". Sonra Rizvan, sanki yuxudan ayılmış kimi, birdən, yanına gələnlərdən Qulamı soruşdu. "Qulamdan, uşaqlardan nə xəbəriniz var, Qulamın evə gəlmək xəbəri varmı, ya bir xəbər göndəribmi?" – deyə soruşdu.

Həmişə dilli-dilavər, yüksək vətənpərvərlik hissiylə danışan, ürəyi el ilə döyünən kənd rəhbəri Məhərrəm Əliyev dərhal Rizvanın sualını gülə-gülə cavablandırdı.

– "Ayə Qulamın qadasın alım, xəbər göndərib ki, qardaşım Rizvanın qanını bu mundar ermənilərdən alıb gələcəm, halaldı ona anasından əmdiyi süd, Qulam bir oğuldu, mərd oğuldu".

Məhərrəm Əliyevin bu sözlərindən Rizvanın da qardaşı ilə qürurlandığı hiss olundu. Artıq bir kövrək an yarandığını duyan, hər şeyin bir anda pozula biləcəyindən ehtiyatlanan rəhmətlik İsmayıl kişi tez – "artıq getmək vaxtıdır" deyə ucadan səsləndi. Hamı Rizvana bir daha heç nə hiss etdirmədən onunla görüşüb ayrıldı.

Rizvanla qospitalda el ağsaqallarının, kənd rəhbəri ilə doğmalarının növbəti görüşünün biri də şəhid Qulamın

yasının 37-ci günü oldu. Bu günlərdə Rizvan sağalmağa çox yaxın idi. Görüşə gələnlər yenə Rizvana heç nəyi bildirməməli idilər. Gizlin şəkildə baş həkimdən alınan razılıq əsasında belə qərara gəlirlər ki, Rizvan həm yuyunmaq üçün, həm də bir az da kənd camaatının istəyi ilə bir neçə günlüyə kəndə getsin. Bu, əlbətdə, Rizvanın da ürəyincə idi. Beləliklə fevral ayının 27-də, Qulamın 40 mərasiminə cəmi iki gün qalmış, günorta saatlarında Rizvan heç nədən xəbərsiz halda, doğmalarla Yeni Daşkəndə, öz evlərinə gələsi olur. Artıq dünəndən Qulamın 40 mərasimi üçün mağar da qurulub, hazırlanıb. Rizvan hələ maşından düşməmiş, qapılarında qurulmuş bu mağarı görərkən bir anlıq yerindəcə donub qaldı və dərhal da qapıda onun qarşısına gələn anasına üzünü tutaraq yüksək və həyacanlı səslə – "bu nə mağardır" deyə soruşduqda, artıq özünü hıçqırmaqdan saxlaya bilməyən Reyvə ana, – "bu mənim körpə balamın, sənin kiçik qardaşının, gözəl Qulamın mağarıdır" deyərək, ildırım vurmuş palıd ağacıtək yerə yıxıldı. Hələ də nə baş verdiyini düz-əməlli anlamayan Rizvan dizləri üstə yerə çökərək, bir qolu yaralı, həm də sarıqlı olduğundan, tək əli ilə anasının başını yerdən qaldırıb qucaqlayaraq qeyri-ixtiyari hıçqıra-hıçqıra ağlamağa başladı. Bu acı mənzərəyə, bu naləyə, bu fəryada ətrafda biganə qala biləcək kimsə yox idi. Hamı göz yaşları içində, ana-balanın sarmaşıqtək bir-birini qucaqlayıb "Qulam, Qulam" deyə ağlamasını izləyirdi. Həyat sanki bir anda Rizvan üçün tamam başqa bir mənzərəyə döndü. Anidən anasını buraxıb ayağa qalxan Rizvan, bir anlıq ətrafı diqqətlə və sakit baxışlarla seyr etdikdən sonra, dərhal da, sanki havalanmış kimi qaçaraq həyətdən çıxdı. Onun fikrinin nə olduğunu artıq hamı anlamışdı. O, şəhid qardaşının, əziz qardaşının məzarı üstünə qaçırdı. Onu qaça-qaça çəkib aparan qardaş sevgisi, qardaş məhəb-

bəti o qədər güclü idi ki, yaralı olmasına baxmayaraq, heç kəs onu saxlaya bilmədi. Uşaqlığı bir evdə keçib, bir ana qoynundan pərvazlanıb, böyüyüb, bir vətənin səngərində düşmənə qarşı döyüşüb, demək olar ki, bir gün zamanında biri yaralanıb, biri də şəhid olan bu iki qardaşın cismən görüşləri mümkün olmayan bu qəbirüstü görüşünü Tanrı heç bir qardaşa qismət etməsin. Bəlkə o gün o nalə səsinə, o yanğıya, o fəryada məzarlardakı ruhlar da narahat idilər. Bir igidin naləsinə, harayına bütün bir el yığılmışdı. Zaman çox yeyindir, vaxt çox sürətlə ötür və zaman bizi hər şeyə öyrədir, alışdırır, uyğunlaşdırır. Dünən qəbul edə bilmədiklərimizi, bu gün çox sakit şəkildə xatırlamalı oluruq. Amma unutmuruq, heç zaman unuda bilmirik. Çünki, o acıları biz yaşamışıq, əzizlərimiz üçün yaşamışıq. Heç unutmağa da haqqımz yoxdur. O mənada haqqımız yoxdur ki, hələ qarşıda bizi sonu zəfərlə sonuclanacaq böyük mübarizə gözləyir, ağır müharibə, gərgin bir savaş gözləyir! O müharibə ki, bu vətənə, bu torpağa, Qarabağa azadlıq gətirəcək! O savaş ki, qazanılacaq zəfərlə, qələbə ilə bu torpaq uğrunda şəhid olan oğullarımızın ruhu şad olacaq! Bu gün fiziki sağlamlığını itirən Rizvan və o timsalda Azərbaycanın minlərlə vətənpərvər oğlu yenidən döyüş meydanına atılacaq, silahla öz sözünü düşmənə deyə biləcək. O savaş ki, Azərbaycanın üçrəngli bayrağının Qarabağın hər bir guşəsində dalğalanmasına şərait yaradacaq! O savaş ki, dünyaya Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu, Azərbaycanın tacı olduğunu sübut etdirəcək!

Yaşasın Azərbaycan!

Yaşasın Azərbaycanın qəhrəmanları!

*2015-ci il*

# VƏTƏNİ CANINDAN ƏZİZ BİLƏN OĞUL

Belə bir deyim var "Torpağa o kəsin vətən deməyə haqqı çatır ki, onun uğrunda ölməyə hazır olsun və bunu bacarsın." Bu fikir mənə şair Sərraf Şiruyənin aşağıdakı şeirini xatırlatdı:

*Vətənə keşik çəkib oyaq olmamısansa,*
*Düşməni susduracaq yaraq olmamısansa,*
*El-obaya dar gündə dayaq olmamısansa,*
*Elin üstünə qayğın, azarın niyə düşsün?*

*Bir yazığa əl tutub fikir çəkməmisənsə,*
*Bir çiçək saralanda boyun bükməmisənsə,*
*Bircə ağac basdırıb, bir gül əkməmisənsə,*
*O bağa, o bağçaya güzarın niyə düşsün?*

*Bir qəlbi isitməyə odun, közün yoxdusa,*
*Quru təsəlli üçün şirin sözün yoxdusa,*
*Bu torpağın üstündə əgər izin yoxdusa,*
*Bu torpağın qoynuna məzarın niyə düşsün?*

Bəli, çox dəyərli fikirdi. Mənsub olduğun xalqın, millətin təsivini çəkmirsənsə, üstündə gəzib yaşadığın torpağı qorumursansa, haqqın yoxdur ki, nəinki, o millətin bir üzvü olaraq bu torpağın üstündə yaşayasan, hətda o torpaqda məzarın belə olmamalıdır. Nə xoşbəxtdir o insanlar ki, vətən laylasıyla pərvazlanıb, vətən sevgisiylə yaşayıb, vətənin azadlığı üçün haqqa qovuşublar.

Qəhrəmanlıq! Dilimizdə çox sadə bir şəkildə səslənən, arxasında isə vətənini, torpağını sevən, millətini, xalqını əziz sanan, namusunu, qeyrətini uca tutan, təmiz adı hər şeydən belə üstün hesab edən bir vətən övladının yurd

üçün, millət üçün, dövlət üçün can bahasına keçdiyi şərəfli yolunu əks etdirən bir söz. Qəhrəmanlıq sözünü dildə hər kəs sadə şəkildə işlətsə də, bu sözü öz həyatında amalı, əməli ilə doğrulda bilməz. Bu adı qazananlar isə əbədi olaraq xalqın, millətin sevgisini qazanır, əbədi olaraq həyatda yaşayırlar. Əslində qəhramanlıq da bir taledir. İnsanın körpəliyindən keçib gəldiyi mənalı ömür yolu, aldığı təlim-tərbiyə, düşdüyü, yaşadığı sağlam mühit onu qəhrəmanlığa aparır. Söhbət açacağım qəhrəmanımız da məhz bu yollardan keçərək, vətənini, millətini öz canından üstün tutaraq şəhidlik zirvəsinə ucalan əbədi qəhrəmanlarımızdandır.

Nazarov Eldəniz Dəmir oğlu 1970-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. Uşaqlığında çox çevik, çox cəld, qorxmaz, eyni zamanda nadinc olan Eldəniz Nazarov orta məktəb illərində də şagird yoldaşları arsında fərqlənibdir. İdman dərsinə daha çox marağı olan Eldəniz Nazarov qısa boylu olsa da, hələ orta məktəb illərində özündə sağlam, gümrah bir bədən forması yaratmışdı və demək olardı ki, gücü-qüvvəti ilə, görünüşü ilə sanki bir balacaboy pəhləvanı xatırladırdı. 1987-ci ildə orta məktəbi qurtardıqdan sonra keçmiş Sovetlər birliyində orduya çağrılan Eldəniz Nazarov Sovet ordusunda xidmətdən qayıdanda artıq Azərbaycanın Dağlıq Qarabağ bölgəsində iki millət arasında vəziyyət kifayət qədər gərginləşmişdi, müharibə alovu çatılmaqda idi. Və nəhayət az müddət sonra Azərbaycanın rayonlarında özünü müdafiə batolyonları yaradılmağa başladı. Bərdə rayonunda da yaradılan Bərdə batolyonu çox qısa bir zamanda sıralarına minlərlə könüllülər toplaya bilmişdi. Bərdə batalyonu dəfələrlə Tərtər istiqamətində gedən döyüşlərdə doyüşərək kifayət qədər uğurlar da əldə etmişdi. Bu uğurların əldə edilməsi təbii ki, Bərdə batolyonuna üzv olan hər bir zabitin, hər bir əsgərin qəhrəmanlığı sayəsində əldə olunmuşdu. O zaman hər bir

döyüşçü döyüşə yalnız qələbə üçün, yalnız öldürmək üçün atılırdı. Döyüşçülərdə qələbə üçün böyük inam var idi. O döyüşçülərdən bir neçəsi ilə birlikdə oturub o günlərə qayıdır, igid, qorxmaz oğlanlardan söhbət salırıq. Müsahiblərim Bərdə batolyonunun yaradıldığı gündən üzvüləri olan kiçik leytenant, Qarabağ əlili Rizvan Qasımov, Qarabağ əlili Camal Canbaxışov, Qarabağ veteranı, ehtiyatda olan zabit Gəray Əsədov, Qarabağ müharibəsi veteranı Malik Həsənovdur.

İlk olaraq söhbətimi Qarabağ əlili Rizvan Qasımovla başlayıram. Ondan Eldəniz Nazarovun döyüş yolu barədə, dillərdə gəzən igidliyi haqda danışmasını, onun haqqında verəcəyim sualları cavablandırmasını xahiş edirəm. Rizvan Qasımov Eldəniz Nazarovla bağlı söhbətini belə başladı:

Artıq 1992-ci ilin fevral ayı idi. Eldəniz Nazarov da bir gün qohumları, qonşuları ilə görüşüb, ata və anasının xeyir-duasını alıb könüllü olaraq Bərdə müdafiə batalyonuna üzv olur. O vaxtlar cəbhədə demək olar ki, hər gün ağır döyüşlər gedirdi. Eldəniz Bərdə batalyonuna üzv olana qədər biz bir neçə döyüşlərin iştirakçısı olmuşduq. Yenə Tərtər-Marquşevan istiqamətində növbəti döyüşə hazırlıq gedirdi, artıq hamı hazır idi. Eldəniz Nazarov da bu gün ilk dəfə olaraq döyüşçülər sırasında dayanmışdı, ilk döyüşə girəcəkdi. O zaman silah çatışmazlığı var idi, belə ki, iki, ya üç döyüşçüyə bir silah düşürdü. Bu baxımdan Eldənizə də silah verilməmişdi. Buna baxmayaraq, Eldəniz özüylə bir qumbara və bir də böyük saplı bir balta götürmüşdü. Artıq batalyonumuz Marquşavan kəndində erməni "boyevik"ləri ilə ağır döyüşə girmişdi, erməni əsilli kənd camaatının da kənddən çıxmasına erməni "boyevik"ləri, saqqallıları imkan verməmişdi. Demək olar ki, kəndin bütün ərazisində küçə döyüşləri gedirdi, bu arada yalnız balta və bir qumbara ilə ilk dəfə döyüşə girən Eldənizin əlində bir təklülə silah, qarşı-

sında isə 3-ü qadın, 6-sı kişi olmaqla 9 erməni sakinini gətirdiyini gördük. Bu inanılmaz idi. Bir erməni dığasını balta ilə öldürüb silahını ələ keçirdikdən sonra zirzəmidə gizlənmiş erməniləri də əsir götürüb qayıdan Eldəniz elə ilk döyüşdən hamını heyrətləndirmişdi. O zaman bütün Bərdə, Tərtər bölgəsində, tanıyan da, tanımayan da Eldənizin ilk döyüşdə igidliyindən danışırdı.

Bu arada mən Rizvan Qasımovdan Eldənizin tutub gətirdiyi ermənilərə nə etdiz deyə sual verdim. "O ermənilər sonralar işimizə yaradı" deyə Rizvan Qasımov davam edir. Belə ki, sonralar Xocalıda əsir düşənlərlə onları dəyişmişdilər.

Növbəti döyüşlərimizin biri Tərtərin Çaylı kəndi istiqamətində baş tutmuşdu, deyə Rizvan bildirir. Bizim batalyon Tərtərin Seydimli kəndi ərazisində Torpaq təpə adlanan yerdən Çaylı kəndində yerləşən ermənilərə qarşı döyüşə başladı. 3 saat davam edən ağır döyüşdən sonra səngəri tərk edib qaçan ermənilərin "boyevik"lərinin bir necəsi Eldənizin dayandığı mövqeyə çox yaxın olduğundan iki erməni elə qaçarkən Eldənizin güllələdiyi də gözümüz qarşısındadır.

Mən Rizvanın bu an bir anlıq susmağını nəzərə alıb növbəti müsahibim kimi üzümü Qarabağ əlili Camal Canbaxışova tutdum. Ondan döyüş yoldaşı Eldəniz haqda danışmasını xahiş etdim.

Camal Canbaxışov bir az da sanki əsəbi (qeyd edim ki, bu psixolji gərginlik indi keçmiş döyüşçülərin çoxunda özünü göstərir) halda, – Mən onun hansı döyüş yolunu deyim, birmi, ikimi? – deyəsi olsam hamısını deməliyəm, o isə bir kitaba sığası deyil, deyə söhbətinə başlayır. Əvvəldən də Rizvanla söhbətimizi sakitcə dinləyən Camalın da Eldənizlə bağlı kövrəldiyini, hətta o günləri xatırladığından

əllərinin belə əsdiyini hiss etməmək mümkün deyildi. Bir az xəyala gedərək söhbətinə davam edir:

– Çətindir, Eldəniz haqqında, onun döyüş meydanında döyüşçü kimi etdiyi hərəkətləri, yerdəyişmələr edərək təyin etdiyi düşmən mövqeyini sərrast güllə ilə susdurması, bir daha düşmənin həmən hədəfindən atəş açılmaması sözlə ifadə olunacaq qədər asan deyil. Onun döyüşdə yaşadığı və etdiklərini yalnız kinolarda tam olaraq canlandırıb görmək olar, deyir Camal. Aramızda yaşca kiçik olduğundan bir neçə qorxaq uşaqlar da var idi ki, onlar da sağ qalmalarını Eldənizin yanında olmalarında görürdülər. O baxımdan həmin uşaqları Eldəniz həmişə özü tutduğu döyüş mövqeyində yerləşdirərdi. Əslində Eldəniz bütün döyüşçülər üçün bir örnək idi, həm də ondan sanki hər birimiz mənəvi güc alırdıq. Eldəniz kimi igid oğullara heyf deyərək, Allah ona rəhmət etsin deyən Camala təşəkkür edib, yenicə dostları ilə görüşə gəlmiş, o zaman beşinci taborun komandiri olmuş, bu gün də öz əsgərləri ilə, döyüşçü yoldaşları ilə birgə olan Gəray Əsədovla tanış olub, qəhrəmanımızla bağlı söhbətimi davam etmək istəyirəm. Ondan Eldənizin qəhrəmanlığından söz açmasını, yaddaşında olan döyüş anlarını sözlə canlandırmasını xahiş etdim. Gəray müəllim məqsədimi bilən kimi, söhbətinə belə başladı:

– Ay qardaş, Eldənizin qəhrəmanlığını heç kim yazmaqla, danışmaqla canlandıra bilməz, onu canlandırmaq üçün gərəkdi ki, qan qoxuyan, güllə vıyıltısından, mərmi səsindən qulaq tutulan döyüş meydanı ola, Kəlbəcərin, Laçının, Ağdərənin qayalıqları, dağları ola ki, az da olsa anlada bilək Eldənizin o dağlarda necə döyüşdüyünü. Bütün Bərdə batolyonunun hər bir üzvünü dindirsən Eldənizin qəhrəmanlığından ağız dolusu danışar deyə keçmiş komandir başını bulayır. Ani sükutdan sonra Gəray müəllim bir az da ucadan sanki komandir xislətinə uyğun olaraq, onun

döyüş yolunu, qəhrəmanlığını kinofilmlərlə canlandırıb ictimaiyyətə catdırmaq daha real olar deyir. Mənim taborumda erməni ilə üzbəüzə getməyə çox mərd oğlanlar vardı ki, onlardan da biri məhz Eldəniz Nazarov idi. İmkan edib özüm onların hər birinin o qəhrəmanlıqlarını yazıya alacam deyərək köksünü ötürür Gəray müəllim.

Mən söhbətimizə yenidən Rizvan Qasımovun qatılmasını, əlavə bilgilər verməsini xahiş edirəm. Söhbətimizin əvvəlindən siqareti siqaretə calayan Rizvan növbəti siqaretini yandırıb, siqaretin acı tüstüsünü əsəbiliklə ciyərlərinə alıb, əsəbi halda havaya üfürdükdən sonra söhbətinə belə başladı:

– 1992-ci ilin sonlarında özünü müdafiə batalyonları kimi döyüşən dəstələr ləğv olunanda bizim batalyon da qanunu ordu sıralarına dəvət olundu. Biz Laçın bölgəsində 701 saylı hərbi hissənin 5-ci taborunda xidmət edirdik. Laçın bölgəsində nəinki bizim batalyon, digərləri də çox ağır döyüşlərin iştirakçısı olub, hər bir döyüşçümüzün əməyi böyük olub. Ancaq hamı da eyni ola bilməzdi, Eldəniz haqda döyüşçülərdə belə bir fikir formalaşmışdı ki, o həqiqətən qurd ürəyi yeyib. Çünki, bu zalım oğlu ölüm nədir deyə düşünmürdü, hər qorxulu bir əraziyə təkbaşına getməkdən belə çəkinmirdi. Maraqlı idi ki, ona sarı atılan güllələr də ondan yan keçirdi, ətrafında nə qədər döyüşçülər yaralanmış, nə qədər şəhid olanlar olmuşdu, o isə döyüşürdü. Onun Hoçaz dağında, Fərraş yüksəkliyində, Çilyaz dağında gedən döyüşlərdə etdiyi qəhrəmanlıqlar hamı üçün nümunə göstərilərdi.

Bu məqamda Gəray müəllim yenidən söhbətimizə qoşularaq, qeyd etdi ki, 1993-cü ilin əvvəllərində bizim hərbi hissəni Kəlbəcər bölgəsində artıq vəziyyətin çətin olmasını nəzərə alıb kömək üçün ora göndərdilər və əsas vəzifələrimizdən biri də yerli əhalinin mümkün qədər sağ-salamat

oradan çıxmasına kömək etmək idi ki, Eldəniz Nazarov bu işdə də həmişə olduğu kimi fəallıq göstərmişdir.

Daha sonra söhbətimizi lap əvvəldən susaraq, bütün deyilənləri sakitcə dinləyən, Eldəniz Nazarovun son dəqiqələrində yanında olan və onu komandirin göstərişi ilə döyüş bölgəsindən çətinliklə olsa da arxa cəbhəyə, ordan da Bərdəyə gətirən Qarabağ müharibəsi veteranı Malik Həsənovla davam etdirirəm. Eldənizin son döyüşü, son dəqiqələri sizinlə birlikdə olub, bu döyüş necə baş verdi, onun yaralanması necə və nə cür oldu? – deyə sual verirəm. Malik Abbasov hərbi hissələrinin artıq 1993-cü ilin avqustunda Ağdam bölgəsinə köçürüldüyünü söylədi. Burada batalyonumuz Ağdamın Sarıcalı, Əhmədağalı kəndlərinin üst tərəfində yerləşmişdi, taborumuz bu istiqamətdə gedən ağır döyüşlərin iştirakçısı idi. Postlarımız bir-birindən çox da aralı olmayan məsafələrdə idi. Səhər saat 9-10 arası olardı. Ermənilər bizim mövqelərə 1 tank, 2 BMP və təxminən 200-ə qədər piyada ilə hücuma keçmişdilər. Çox ağır döyüş gedirdi. Düşmən tərəf artıq kifayət qədər mövqelərimizə yaxınlaşırdı. Bizim dayandığımız mövqedən sol tərəfdə yolu mühafizə üçün döyüşçülər yerləşdirilmişdi ki, orada sakitlik idi, Eldəniz də o mövqedə yerləşmişdi, bizim mövqedəki ağır döyüşlərin getdiyini görüb o dərin qazılmış kanal yolu ilə bizim mövqeyə tərəf qaçaraq gəlmişdi. O burada olmalı deyildi, mən onu burada görəndə hətda ona acıqlanaraq, ölümünmü çatıb, nə üçün buraya gəldin deyə üstünə qışqırdım, o isə "mən döyüşçüyəm, harda döyüş var, orada da olmalıyam" deyərək özünə mövqe tutdu. Artıq bu an həmin mövqeyə bir erməni tankı da yaxınlaşmaqda idi, hamı bunu görür və nə baş verəcəyi bilinmirdi. Əlində qrantamyot tutmuş əsgərimiz isə sanki donmuş şəkildə qalmışdı. Bu anı nəzərindən qaçırmayan Eldəniz onu itələyərək qrantamyotu əlindən aldı və üstünə qışqırdı ki, nə üçün

durursan. O dərhal da nişan alaraq erməni tankının ardınca gələn piyada dəstəsinə doğru atəş açdı. Qrantamyotun mərmisi yalnız piyadaları məhv etmək üçün olduğundan o düzgün seçim edərək texnikanı nişan almamışdı. Ancaq tank ətrafındakı ermənilərin bir çoxunun artıq görünmədiyi də aydın hiss olunurdu. Elə bu anda erməni tankının ərazidə olan böyük su çəninə atdığı mərminin qəlpələri ətrafımızda uçuşmağa başladı. Bu qəlpələrdən bir neçə döyüşçümüz yaralandı, Eldəniz də bu mərmi qəlpəsindən yayına bilməmişdi. Böyük bir qəlpə ilə o başından ağır yaralanmışdı, demək olar ki, onun sağalacağına ümid çox az idi. Mən onun həmkəndlisi olduğumdan bölük komandirim dərhal mənə onu arxa cəbhəyə, oradan isə həkimə çatdırmağı əmr etdi. Mən onu başından qan axa-axa kürəyimə alıb, özü qaça-qaça döyüş meydanına gəldiyi dərin kanal yolu ilə arxa cəbhəyə gətirdim, oradan isə dərhal UAZ maşını ilə Bərdəyə çatdırdıq. Onun nəfəsi artıq çox çətinliklə gəlirdi, həkimlər də hər şeyin gec olduğunu söylədi. Və beləliklə Eldənizin qəhrəmanlıqlarla dolu döyüş yolu sona yetdi deyə Malik Abbasov köksünü ötürdü. Mən bu yerdə artıq Eldənizin döyüş yoldaşlarının hər birinin gözlərinin yaşardığını görüb qəhrəmanımızla bağlı söhbətimi də yekunlaşdırmağı nəzərə aldım.

Ancaq qəhrəmanımızla və ümumən qəhrəmanlarımızla bağlı söhbətlərimiz, fikirlərimiz hələ çox danışılacaq, çox yazılacaq.

Məqaləmin sonunda vətənimizin torpaqlarımızın azadlığı uğrunda canını qurban edib, şəhidlik zirvəsinə ucalan hər bir qəhrəman oğlumuzun ölməz ruhu qarşısında baş əyirəm.

Allah şəhidlərə rəhmət etsin!

*2015,*
*Yeni Daşkənd kəndi*

## PİRNAZARLI OCAĞININ İKİNCİ ŞƏHİD OĞLU

Gözümüzü açıb qoynunda pərvazlandığımız, böyüyüb boya-başa çatdığımız Vətən deyilən bir anlam var. Qəlbində sevgisi, istəyi olan hər bir kəs bu anlama sevgi və hörmətlə yanaşır, vətəni özünə şam-çıraq bilib, hər zaman pərvanə sevgisi ilə ətrafında dolanmağa, bu sevgi ilə yanmağa hazırdır.

Yer üzərində insanlar hələ bir qəbilə olaraq birlikdə yaşadığı andan etibarən öz yaşadığı ərazini özünə doğma bir məkan saymış, vətən adlandırmış və bütün zaman boyunca bu məkanı, vətəni yadellilərdən qorumağa çalışmışdır. Beləcə hər bir xalq öz yurdunu oğulları, ərənləri, igidləri sayəsində qoruyaraq həm bir millət olaraq yaşamasını təmin etmiş, həm vətənini yaşatmış, həm də bu mübarizələrdə öz qəhrəmanlarını yaratmışdır.

Böyük və ulu Oğuz yurdu olan Azərbaycanımız da beləcə öz ərgən oğulları, igidləri ilə qoruna-qoruna, zamanın çətin sınaqlarından, ağır döyüş yollarından keçə-keçə öz adını dünya dövlətləri arasında, millətlər sırasında yaşatmağı bacarmışdır. Tarixdə dəfələrlə sınaqlara, mübarizələrə cəlb olunan Azərbaycanın yaxın keçmişimiz olan ötən əsrin sonlarında cəlb olunduğu müharibədə, bu vətənin bir ayrılmaz hissəsi olan Qarabağ uğrunda mübarizədə də yüzlərlə yeni qəhrəmanlar yarandı ki, bu qəhrəmanların adı uğrunda fəda olduqları vətən ilə bərabər çəkilir, qoşa yazılır. Bu gün oxucularımıza da elə bu qəhrəman oğullardan biri haqda söhbət açacağam.

Firuddin Əli oğlu Həsənov 1969-cu il yanvar ayının 20-də Bərdə rayonunun Yeni Daşkənd kəndində sadə bir zəhmətkeş ailəsində anadan olmuşdur. O kənddə Pirnazarlı ocağı kimi tanınan böyük bir nəslin, kökün sevimli övladlarından biri idi. Qayğısız uşaqlıq illərini ailənin əzizi kimi böyüyərək 1976-1986-cı illərdə Yeni Daşkənd kənd orta

məktəbində orta təhsil almışdır. Hələ orta məktəbdə yuxarı siniflərdə oxuduğu illərdə kolxozçu ailəsinin bir üzvü kimi anası Gülarəyə kolxoz işlərində köməklik etməkdən çəkinməmiş, çox zamanlarda çöl işlərində anasını tək qoymamağa çalışmışdır. 1987-ci ilin yaz-yay aylarında Sovet ordusu sıralarına xidmətə çağırılan Firuddin Həsənov hərbi xidmətini Özbəkistanda yerinə yetirir. 1989-cu ildə hərbi xidmətdən qayıtdıqda artıq Azərbaycanda ermənilərin yaratdığı Qarabağ gərginliyi kifayət qədər ciddiləşmişdi. Bu ana qədər artıq Firuddinin ata-babalarının qədim yurdu olan Göyçə mahalından da doğmaları, bir çox həmkəndliləri Göyçədən didərgin düşərək bu kənddə məskulaşmışdılar. Həmin ərəfədə təhsilini davam etdirmək istəyi ilə Firuddin Həsənov Qazax Kənd Təsərrüfatı Texnikumunun Şərabçılıq fakültəsinə qəbul olur. Texnikumda oxuduğu iki il ərzində Firuddin hər dəfə doğmaları ilə görüşə gəldikdə kənd cavanlarının çoxlarının döyüşə getdiyinin şahidi olurdu. Növbəti gəlişində də artıq yaşadığı Yeni Daşkəndin 100-dən çox gəncinin müharibəyə getdiyini eşidərkən, artıq təhsilini yarımçıq qoyub onun da bu şərəfli yola getməli olduğuna özlüyündə qərar verir. Və axşam yemək masası arxasında bu fikrini valideynlərinə birbaşa açaraq söyləyir. Anası Gülarə Firuddini bu fikrindən döndərməyə cəhd etsə də, oğlundan eşitdiyi cavab onun razılaşmasına səbəb olmuşdu. Belə ki, Firuddin anasının etirazına qarşı olaraq dediyi "müharibəyə gedən oğlanların hansından əskiyəm, hansından qorxağam ki, onlar vətəni, milləti qorumağa gedə, mən isə yox" – kəlməsi masa arxasında olan ailə üzvlərinin sözünü kəsmişdi. Bu söhbətdən sonra atası Əli kişi bir az da qürurlu şəkildə əlini oğlu Firuddinin çiyninə qoyub, "bəli, vətəni qorumaq mənim də oğlumun borcudur, yolun uğurlu olsun oğul" – demişdi. Anası Gülarə kövrələrək Allah səni də, cəmi oğulları da qorusun deyərək oğlunun alnından öpərək xeyir-duasını vermişdi.

1992-ci ilin dekabr ayı idi. Həmkəndlilərinin bir çoxlarının üzv olduğu Bərdə batalyonuna döyüşçü kimi qoşulan Firuddin Həsənov vətənin bir igidi kimi ilk döyüş yolunu Laçın rayonunun ərazisindən başladı. O zaman artıq Laçın rayonunun özü ermənilər tərəfindən işğal olunsa da, bir çox kəndləri döyüşçülərimiz tərəfindən cəsurluqla qorunurdu. Laçının uca dağları, dekabr ayının sərt soyuğu, qarşıda mənfur düşmən, hər bir Azərbaycan oğlunu mərd, mübariz olmağa çağırırdı. Firuddin də döyüş yoldaşları ilə birlikdə hər gün ermənilərlə qanlı döyüşlərə girirdi. Həm erməni kəşfiyyatçılarının gecələr hücumunun qarşısı alınır, həm də gündüz saatlarında hər qarış mövqe uğrunda döyüşlər gedirdi. Firuddin Həsənovun üzv olduğu Bərdə batalyonu artıq Laçının Hoçaz yüksəkliyində, Fərraş dağında, Nurəddin kəndində, Qırxqız dağında, Çilyaz dağında neçə aylar idi ki, düşmənlə savaşırdı. Bu döyüşlərdə düşmənin yüzlərlə əsgərini məhv edib zərərsizləşdirsələr də, Bərdə taborunun da onlarla şəhid və yaralananları olmuşdu. Növbəti döyüşlərin biri isə Çilyaz dağı uğrunda əməliyyat olmuşdur. Belə ki, həmin vaxt Çilyaz dağında başqa hərbi hissənin əsgərləri postda olarkən erməni qüvvələri 200-dək əsgər ilə Çilyaz dağına hücuma keçirlər. Bərdə taboru da təcili olaraq orada olan qüvvələrimizə köməyə göndərilir və düşmən geri oturdulur. Bu döyüşdə də Bərdə taboru üç şəhid verir ki, onlardan biri düşmənlə arada olan ərazidə qaldığından bölük komandiri Rizvan Qasımov döyüşçülərdən Firuddin Həsənovu, Maşallah Nazarovu, malış ləqəbli Bərdəli Ələddini və əlavə dörd nəfər də götürərək döyüş yoldaşlarının cəsədini döyüş bölgəsindən çıxarmaq üçün yola düşürlər. Bölük komandiri Rizvan Qasımovun komandanlığı ilə yenidən döyüşə girən bu səkkiz nəfərlik dəstə otuz bir erməni əsgəri öldürərək döyüş bölgəsində qalan əsgərimizin cəsədini də götürərək itkisiz geri qayıdırlar ki, yenə bu döyüşdə Firuddinin də xüsusi fəallığı olmuşdur.

Daha sonra isə arxa cəbhə ilə əlaqə çətin olduğundan ərzaq çatışmazlığı yarandığı bir vaxtda əlacsız qalıb ərzaq üçün düşmən səngərinə gecə ikən hücum edən əsgərlərimiz arasında yenə Firuddin olmuşdur ki, onlar düşmən postundakı 3 ermənini öldürüb əsasən İran məhsulları olan ərzağı, konserv və siqaretləri götürərək geri qayıtmışdılar.

Artıq 1993-cü ilin mart ayının sonları idi. Düşmən bütün cəbhələrdə hücumlar təşkil edirdi. Kəlbəcərin işğal olunmasının qarşısını almaq məqsədi ilə Bərdə taborunun da üzv olduğu "N" saylı hərbi hissənin Laçın bölgəsindən çıxarılaraq Kəlbəcər bölgəsinə göndərilməsi haqda mərkəzdən qərar verilir. Beləliklə aylarla mərdliklə qoruduğu Laçının kəndlərini başqa hərbi hissələrə təhvil verib Kəlbəcərə gələn Bərdə taboru elə ilk gündən ağır döyüşlərin iştirakçısı olur. Taborun əsgər və zabitləri Kəlbəcər rayonunun özü də olmaq şərtilə bütün istiqamətlərdə qəhrəmanlıqla döyüşürdü. Eyni zamanda Firuddin və döyüş yoldaşları Kəlbəcərin dinc əhalisinin də itkisiz oradan çıxarılmasında kifayət qədər köməklik edirlər. Əslində taborun qarşısında qoyulan əsas məsələ də dinc əhalinin oradan çıxarılmasına kömək etmək idi. Bütün cəhdlərə baxmayaraq aprel ayının 1-də Kəlbəcər işğal olunur və həmin gün Bərdə taborunun komandiri Tahir Cəfərov da itkin düşür. Taborun komandirliyi Gəray Əsədova tapşırılır.

Kəlbəcər alındıqdan sonra Toğana kəndində yerləşən Bərdə taboru Murovdağ istiqamətində 1993-cü ilin avqust ayının 15-dək döyüşlərini davam etdirir. Bu tarixdə yenidən Bərdə taboru mərkəzin göstərişi ilə yerdəyişmə edərək Ağdam cəbhəsinə göndərilir. 1993-cü ilin dekabr ayının ortalarına qədər Ağdam cəbhəsində, Cəmənli, Sarıcalı kəndlərində yerləşərək, Əhmədağalı, Qaraqaşlı, Cəvahirli, Qərvənd istiqamətlərində düşmən ilə amansız döyüşlərin iştirakçısı olan Bərdə taboru nailiyyətləri ilə bərabər bir çox

itkilər də verir ki, onlardan da biri Firuddin Həsənovun əmisi oğlu Yeni Daşkəndli Eldəniz Nazarov idi.

1993-cü ilin dekabr ayının ortalarında ikinci Kəlbəcər əməliyyatı başlayarkən Bərdə taboru tabeliyində olduğu "N" saylı hərbi hissənin tərkibində yenidən Kəlbəcər istiqamətində döyüşlərə göndərilir. Dekabr ayının 29-u saat 16-da Bərdə taborunun da 82 nəfərlik döyüşçüsü taborun komandiri Gəray Əsədovun komandanlığı ilə böyük və ağır hesab olunan "Meydançay" əməliyyatına başlayır. Bu əməliyyatda qələbə Kəlbəcərin alınması demək idi. Firuddin Həsənov da bütün bu döyüşlərin hər birində, o cümlədən Qamışlıdağ, Qaragöl, Bağırlı, Bağırsaq, Ağbaba, Yanşaq kəndləri istiqamətində qəhrəmanlıqla döyüşürdü. Yanvar ayının 18-də taborun bölük komandiri Rizvan Qasımov yaralanaraq qospitala göndərilir, bir gün sonra isə, yanvar ayının 19-da Rizvanla çiyin-çiyinə döyüşən kiçik qardaşı Qulam şəhid olur. Komandanlığın icazəsi ilə Qulamın dəfnində bir neçə döyüş yoldaşları, o cümlədən Qulamın həmkəndlisi Firuddin Həsənov da iştirak etmək üçün Bərdə rayonunun Yeni Daşkənd kəndinə göndərilirlər. Şəhid Qulam Qədirovun dəfnində yaylım atəşləri açaraq onun qisasının yerdə qalmayacağına and içən Firuddin Həsənov həmin gün döyüş yoldaşları ilə yenidən cəbhəyə qayıdır. Fevral ayının 3-dək gedən döyüşlərin hər birində iştirak edən Firuddin Həsənovun da döyüş yoluna məhz bu tarixdəki döyüş son nöqtəni qoyur. Belə ki, Yanşaq kəndi istiqamətində döyüşlərdə ağır yaralanaraq şəhidlik zirvəsinə ucalan Firuddin Həsənov həmkəndlisi şəhid Qulam Qədirovun ölümündən cəmi iki həftə sonra doğulduğu Yeni Daşkəndin qəbiristanlığında dəfn olunur. Şəhid Firuddin Həsənovun da məzarı üstə açılan yaylım atəşləri silahdaşlarının ona sevgisi, ehtiramı və nəhayət qisasının alınacağı vədi idi ki, bu inşallah Azərbaycan Ordusunun sayəsində yerinə yetiriləcək.

*08.02.2015*

## MÜNDƏRİCAT

Ön söz əvəzi (Ünvanımı)............................................4

## POEMALAR

Tikdim ki, izim qala....................................................6
Qucaq açdı Bərdə bizə ..............................................77
On altı şəhidin altısı yaşıd ..........................................83

## ŞEİRLƏR

Elimdə ..........................................................................89
O şeiri bir də söylə Ərdoğan........................................90
Haqqın var, çıx oyna, Cənab Prezident........................92
Yaşa paşam, yaşa Ərdoğan, yaşa.................................93
Yaşa, ey ordumun Baş komandanı ..............................94
Birləş Azərbaycanım....................................................96
Zəfərimiz mübarəkdir ..................................................97
Tez gəl Türküm, tez gəl Türküm.................................98
Əzəlindən Türk oğluyam..............................................99
Susma, oyan Güneyim ..................................................100
Azərbaycan qadını ........................................................102
Ey İlham Heydər oğlu ..................................................104
Üçrəngli bayrağımız sancılıbdı Şuşaya........................105
Birləşin, Turan deyin....................................................106
Qarabağ bizimdi, Azərbaycandı ..................................106
Bu dünya sevməyir türk olanları .................................108
Döyüşlərdə udmalıyıq biz döyüşü ..............................110
Qartala bənzəyən təzə xəritə.........................................111
Ey medal alanlar, medal satanlar .................................112
Yazammadım Xocalının dərdini..................................114
Qara Yanvar..................................................................115
Göyçə deyirdi................................................................117
El səni, Cəfər ................................................................118

Yaşa şəhidim ........................................................ 118
Vədəsiz ................................................................... 119
Aprel döyüşlərində bir hərbi hissədən olan yeddi
şəhidimizin əziz xatirəsinə ......................................... 120
Aqil Cavanşir oğlu Əliyevə ........................................ 123
Min doqquz yüz doxsanın iyrimi yanvar günü ............ 124
Sənin ilə ................................................................. 126
Baş leytenantım ......................................................... 127
Eloğlu ..................................................................... 128
Yaşa, ay ana ............................................................. 129
Milləti çörəklə sınamaq olmaz .................................. 130
Yıxıla-yıxıla yaşayıram mən ...................................... 132
Bir qurban kəsdim mən .............................................. 133
Bu dünya eləyir dəli adamı ........................................ 134
Allaha ..................................................................... 135
Taa ömrüm ............................................................... 136
Dünya ..................................................................... 136
Dünyadan ................................................................. 137
Köynəyinə ................................................................ 138
Azərbaycan zabiti ...................................................... 139
Yol çəkilməyir .......................................................... 140
Bir sevgi tarixi yazdı Fərizə ....................................... 141
O köç geri qayıtmadı ................................................. 142
Ay İranın eşşəyi ........................................................ 143
Biz yenə də dönəcəyik Göyçəyə ................................. 146

## PUBLİSİSTİKA

İki qardaş – iki igid, biri qazi, biri şəhid ..................... 148
Vətəni canından əziz bilən oğul ................................. 161
Pirnazarlı ocağının ikinci şəhid oğlu .......................... 169

**Aqşin Hacızadə**
**Tikdim ki, izim qala**
**Bakı, "Elm və təhsil", 2021.**

**"Elm və təhsil"** nəşriyyatının direktoru:
*professor* **Nadir MƏMMƏDLİ**

Kompyuter və dizayn: **Araz Yaquboğlu**
Texniki redaktor: **Mütəllim Həsənov**
Korrektor: **Səmayə Nəcəfova**
Operator: **Hürü Zamanlı**

Yığılmağa verilmişdir: 13.10.2021
Çapa imzalanmışdır: 01.11.2021
Şərti çap vərəqi: 11 ç.v., Sifariş №444
Kağız formatı: 60x84, 1/16. Tiraj: 300

Kitab **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail:** elm_ve_tehsil@box.az
**Tel:** (+99412) 497-16-32, (+99450) 311-41-89
**Ünvan:** Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4